# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 71

*Milli Məclisin iclas salonu.*
*1 may 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 117 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.
**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.
**Rövşən Namazov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Siyasəti Baş İdarəsinin rəisi.
**Tural Həsənli**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hüquqi Təminat İdarəsinin rəisi.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti haqqında.
2. "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
3. "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
4. "Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**1. Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Zaur Şükürov, Elşən Musayev, Zahid Oruc, Vüqar Bayramov, Şahin İsmayılov, Azay Quliyev, Səməd Seyidov, Anar İsgəndərov, Razi Nurullayev, Musa Qasımlı, Hikmət Məmmədov, Ziyafət Əsgərov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**2. "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Nigar Məmmədova, Bəxtiyar Əliyev, Hicran Hüseynova, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**3. "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Nigar Məmmədova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**4. "Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**6. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Zahid Oruc, Rövşən Muradov, Elçin Mirzəbəyli, Razi Nurullayev, Hikmət Məmmədov, Əli Hüseynli, Şahin Bağırov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**8. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**9. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Razi Nurullayev, Fazil Mustafa, Nigar Məmmədova, Bəhruz Məhərrəmov, Elman Nəsirov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***MİLLİ MƏCLİSİN İCLASI***

*1 may 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin, buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

Yetərsay var. Biz iclasımıza başlayırıq.

Hörmətli həmkarlar, indi xahiş edirəm, gündəliyə də münasibət bildirin. Gündəlik sizə paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bu gün biz 9 məsələ müzakirə edəcəyik. Gündəliyin 1-ci məsələsi Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə bağlıdır.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi uzaqgörən xarici siyasət dövlətimizi beynəlxalq birliyin nüfuzlu bir üzvünə çevirmişdir. Biz xarici siyasətimizdə dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmət, daxili işlərinə qarışmama prinsiplərini rəhbər tutur, beynəlxalq qurumlar ilə iş birliyini inkişaf etdiririk. Bu baxımdan, ölkəmiz Avropa Parlamenti ilə əməkdaşlıq mexanizmlərini həmişə konstruktiv dialoq platforması kimi nəzərdən keçirmişdir.

Bu da qeyd edilməlidir ki, Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır, qitənin enerji təhlükəsizliyinə böyük töhfə verir. Strateji infrastruktur layihələrinin reallaşdırılması, nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi yolunda atılan addımlar, regional sabitliyin təmin edilməsində fəal iştirak ölkəmizin beynəlxalq münasibətlər sistemində məsuliyyətli və konstruktiv rol oynadığını təsdiq edir. Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər möhkəm təmələ əsaslanır və zəngin potensiala malikdir.

Hörmətli deputatlar, təəssüflə qeyd olunmalıdır ki, ölkəmizdə və regionumuzda baş verən proseslərə Avropa Parlamentinin yanaşmalarında mövcud olan problemlər böyük narazılıq və narahatlıq doğurur və bu proses uzun illərdir ki, davam edir. Avropa Parlamentinin ölkəmizlə bağlı qəbul etdiyi qətnamələr birtərəfli və qərəzli xarakter daşıyır, ikili standartlara əsaslanır. Bu sənədlər real vəziyyəti əks etdirmir və çox vaxt Azərbaycanın qanuni maraqlarını pozmağa yönəlmişdir.

Görünən budur ki, Avropa Parlamentinin bu fəaliyyəti sistemli xarakter daşıyır. Avropa demokratiyasını təmsil etmək iddiasında olan bu qurumun Azərbaycana qarşı fəaliyyətlə məşğul olan lobbi qruplarının və müxtəlif maraq dairələrinin əlində alətə çevrilməsi təəssüf doğurur.

Hörmətli həmkarlar, xatırladım ki, bir neçə il bundan əvvəl

Azərbaycanın Avropa Parlamenti ilə münasibətlərində böhran ciddi siyasi qərarların qəbul edilməsi ilə nəticələnmişdi. 2015-ci ildə Azərbaycan parlamenti Avropa Parlamentində Azərbaycan barəsində sistemli və davamlı şəkildə aparılan qarayaxma kampaniyasına cavab olaraq bu təşkilatla qarşılıqlı əlaqəni dayandırmağa məcbur olmuşdu. Milli Məclis Avropa Parlamentindən tələb etmişdi ki, Azərbaycana münasibətdə obyektiv mövqe tutsun və bu yanaşmanı real addımlarla nümayiş etdirsin.

Bu qərar qəbul edildikdən sonra Avropa Parlamenti ikitərəfli dialoqu bərpa etmək məqsədi ilə bir sıra addımlar atmış, o cümlədən öz deputatlarından ibarət səlahiyyətli nümayəndə heyətini Azərbaycana göndərmişdi. Avropa Parlamentinin bu səylərindən sonra Milli Məclis əməkdaşlıq maraqlarını əsas tutaraq 2016-cı ilin sentyabr ayında münasibətlərin bərpasına dair qərar qəbul etmişdi.

Hörmətli deputatlar, təəssüf ki, ötən 10 il Avropa Parlamentinin Azərbaycan əleyhinə hərəkətlərdən əl çəkmək niyyətində olmadığını göstərmişdir. İkinci Qarabağ müharibəsindən sonra təşkilatın fəaliyyətində anti-Azərbaycan ritorikası daha da güclənmişdir. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın otuz illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi Avropa Parlamentinin Azərbaycana qarşı təxribatlarının intensivliyinin artmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələr altında Azərbaycana qarşı 13 qətnamə qəbul etmişdir.

Bütün bunlar həmin qurumun, əslində, hansı meyarlar əsasında fəaliyyət göstərdiyinin əsas sübutu sayıla bilər. Şübhə yoxdur ki, Avropa Parlamentinin Azərbaycan əleyhinə məqsədyönlü fəaliyyəti ikitərəfli münasibətlərdə etimad mühitini pozmuş, eyni zamanda, konstruktiv dialoq

və əməkdaşlıq perspektivlərinə sarsıdıcı zərbə vurmuşdur. Bu da aydındır ki, təşkilatın nümayiş etdirdiyi yanaşma regionda sülh və sabitlik yaradılmasına yönələn səylərə maneçilik törətməyə yönəlmişdir.

Milli Məclis Avropa Parlamentinin dövlətimizə qarşı qərəzli fəaliyyətinə səssiz qala bilməz və şübhəsiz ki, məsələ barəsində qəti mövqeyini bildirəcəkdir.

Beləliklə, hörmətli həmkarlar, qeyd etdiyim kimi, gündəliyimizin 1-ci məsələsi Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə bağlıdır. Biz məsələnin müzakirəsinə başlayırıq. Xahiş edirəm, çıxış etmək istəyənlər yazılsınlar. Buyurun.

Hörmətli həmkarlar, təklif var. 5 dəqiqə, hətta 3 dəqiqə də deyilir. Mən düşünürəm, çıxışlar 5 dəqiqəyə qədər olsun. Hamı bununla razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, bu gün qalib ölkənin parlamenti olaraq biz 30 aprel tarixli növbəti anti-Azərbaycan qətnaməsi fonunda hər hansı bağımızın və dərin əlaqələrimizin olmadığı Avropa Parlamentinə yenidən zaman ayırmağa məcburuq.

Məlumdur ki, hətta öz yurisdiksiya coğrafiyasında belə nüfuzunu çoxdan itirmiş təsisat olan Avropa Parlamenti ilə bağlı hər hansı siyasi prioritetimiz yoxdur. Hətta cənab İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasında da ifadə etdiyi kimi, biz heç seçkilərə belə sağlam subyekt hesab etmədiyimiz üçün Avropa Parlamenti missiyasını dəvət etməyə lüzum görmürük. Amma bu siyasi bataqlıq Azərbaycandan əl çəkmək istəmir. Təbii ki, nə qədər uzaq durmağa çalışsaq da, suverenliyimizə qarşı növbəti siyasi təxribat olduğu üçün belə çirkab yuvalarını cavabsız buraxmaq olmaz.

Əvvəlcə ondan başlayaq ki, Avropa Parlamentinin 2026-cı il 30 aprel tarixli əsassız, kökündən yanlış və mövcud reallıqlardan uzaq söz yığını heç bir formada hüquqi sənəd adlana bilməz. Çünki özlüyündə bu siyasi şantaj hüquqa, beynəlxalq hüququn bir neçə fundamental prinsipinə və dövlətlərarası münasibətləri tənzimləyən sənədlərə birbaşa zidd mahiyyət daşıyır.

Avropa Parlamenti BMT Nizamnaməsinə, “Beynəlxalq hüquq prinsipləri haqqında” 1970-ci il tarixli Bəyannaməyə, Helsinki Yekun Aktının maddələrinə, Avropa İttifaqı ilə Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlıq sazişlərinə və beynəlxalq müqavilələr hüququna daban-dabana zidd mövqe ortaya qoyur.

Əgər Avropa Parlamentini bu qətnamənin adında olduğu kimi, Ermənistanda demokratik dayanıqlığın dəstəklənməsi maraqlandırırsa, ilk növbədə, regionda postmünaqişə dövründə normallaşmanı və sülh səylərini dəstəkləməlidir. Amma əvəzində açıq qarşıdurma mövqeyi sərgilənir və Ermənistan revanşa təşviq edilir.

Bu gün bütün dünya Ermənistanla sülh prosesində əsas təşəbbüskar tərəfin, sülh müqaviləsi layihəsini təklif edən, sülh və etimad quruculuğu tədbirlərinin uğurunu təmin edən tərəfin məhz cənab İlham Əliyevin liderliyində Azərbaycan olduğunu istisnasız qəbul edir. Amma Avropa Parlamenti uydurma qətnaməsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində tam suverenliyinin bərpasından sonrakı vəziyyəti riyakarcasına qəsdən təhrif edir, bizi sabitliyi pozan tərəf adlandırır.

İki il yarımdan çoxdur ki, Azərbaycan–Ermənistan sərhədində atəş səsi gəlmir, de-fakto sülhdür. Sən hansı sabitlik pozuntusundan danışırsan? Bu

gün bölgədə sabitliyi pozmağa cəhd edən bir tərəf varsa, o da fiaskoya məhkum səyləri ilə Avropa Parlamenti və əlaqəli qurumlarıdır.

Paşinyan özü öz dili ilə Qarabağ gündəmindən imtina etdiyi bir şəraitdə Avropa Parlamenti Dağlıq Qarabağ ermənilərinin maneəsiz və ləyaqətli şəkildə geri qayıtması barədə çağırış edir. Birincisi, dünyada "Dağlıq Qarabağ" adlı subyekt yoxdur. İkincisi, Azərbaycanın Qarabağda dinc və qanuni əsaslarla yaşamış ermənilərlə bağlı problemi yoxdur və olmayıb da.

Azərbaycan Konstitusiyasının 28-ci maddəsinin III hissəsinə əsasən qanuni surətdə Azərbaycan ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və respublika ərazisindən kənara gedə bilər. Biz Qərbi və Şərqi Zəngəzurdan, o cümlədən Qarabağdan olan soydaşlarımızın qovularkən məruz qaldığı zorakılıqların tam əksinə, ölkədən getmək istəyən erməni əsilli sakinlərin təhlükəsizliyinə və reinteqrasiyasına tam şəkildə hazır olduğumuzu bildirib, onların ləyaqətli köçünə imkan yaratmışıq. Bu, azadlıq hüququnun təməl əsaslarından biridir. Biz nə etməli idik? Könüllü surətdə getmək istəyən adamı Qarabağa buxovlamalı idikmi?

Yaxşı, sən 5-10 min erməninin könüllü köçündən danışırsan, bəs 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün taleyi bu günə qədər Avropa Parlamentinin gündəmində olubmu? Təbii ki, yox. Çünki Avropa Parlamenti selektivlik üzərində qurulmuş siyasi çirkab alətidir və belə bir qurumun indi ədalət dərsi keçməyə mənəvi haqqı yoxdur. Yaxud qətnamədə ədalətsiz həbs olunan "hərbi əsirlər" ifadəsinə istinad edilir. Biz hansı formada izah etməliyik ki, hazırda həbsdə olanlar "hərbi əsir" deyil, terrorizm, sabotaj və müharibə cinayətləri də daxil olmaqla, xüsusi ilə ağır cinayətlərə görə barələrində məhkəmə hökmü olan şəxslərdir və bu

mövzuda hər hansı əks-arqument Azərbaycanın daxili işlərinə və məhkəmə sisteminə müdaxilə etmək cəhdidir.

Qətnamədə mədəni irsin məhv edilməsi ilə bağlı iddialar da irəli sürülür. 30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda daş üstündə daş qalmamışdır. Azərbaycanın mədəni və dini irsi sistematik şəkildə dağıdılıb, talan və təhqir edilirdi. O zaman Avropa Parlamenti harada idi?

Aydındır ki, bunları nə Ermənistan, nə insan hüquqları, nə də mədəni irs maraqlandırır. Bunların qayğısı Cənubi Qafqazda itirilmiş təsir imkanlarını bərpa etməklə bağlıdır. Amma unutmamalıdırlar ki, onların iki gündən bir qəbul etdikləri kağız parçalarının cənab İlham Əliyevin liderliyində regionda yaranan reallıqlar qarşısında çəkisi sıfıra bərabərdir. Öz liderinin ətrafında dəmir yumruq kimi birləşən cəmiyyəti heç bir kənar təzyiq, o cümlədən də bu ucuz kağız parçaları yolundan döndərə bilməz. Siz, cənab İlham Əliyevin təbirincə desək, bizim üçün tamamilə əhəmiyyətsiz olan o sifarişli qətnamələrinizi qəbul etməkdə olun, biz də inkişafda. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Zaur Şükürov. Buyurun.

**Zaur Şükürov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli deputatlar, dəyərli media nümayəndələri. Məlum olduğu kimi, Avropa Parlamenti Ermənistanla bağlı "Ermənistanda demokratik dayanıqlılığın dəstəklənməsi" adlı qətnamə qəbul edərək növbəti dəfə Azərbaycanı hədəf alıb. Qətnamədə Azərbaycana qarşı iddialar tamamilə əsassız, kökündən yanlış və mövcud reallıqdan uzaqdır. Avropa Parlamentinin regionda post-münaqişə dövründə normallaşmanı və sülh səylərini dəstəkləmək əvəzinə, qarşıdurma mövqeyi sərgiləməsi regiondakı

sülh prosesinə və Azərbaycan–Avropa İttifaqı münasibətlərinə mənfi təsir göstərir.

Qətnamədə 2020-ci ildə 44 günlük Vətən müharibəsindən və 2023-cü ildə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində tam suverenliyinin bərpasından sonrakı inkişaflar qəsdən təhrif olunur. "Ədalətsiz həbs" kimi ifadələrdən istifadə etməklə "hərbi əsir" kimi təqdim edilən məhbusların azadlığa buraxılması çağırışları hüquqi cəhətdən yanlış və qəbuledilməzdir.

Azərbaycan xoş məram nümayiş etdirərək 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirlərindən sonra məhbusların böyük əksəriyyətini geri qaytarıb. Hazırda həbsdə olanlar "hərbi əsir" deyil, terrorizm, sabotaj və müharibə cinayətləri də daxil olmaqla, ağır cinayətlərə görə barələrində məhkəmə hökmü olan şəxslərdir.

Qətnamədə qeyd olunan "Dağlıq Qarabağ ermənilərinin maneəsiz və ləyaqətli şəkildə geri qayıtması" barədə cəfəng çağırışları rədd edirik. Azərbaycan dəfələrlə Konstitusiyasına və beynəlxalq öhdəliklərinə uyğun olaraq, erməni əsilli sakinlərin hüquqlarını, təhlükəsizliyini və reinteqrasiyasını təmin etməyə hazır olduğunu bildirib. Ermənistan sakinlərinin ölkəni tərk etməsi məcburiyyət deyil, könüllü əsasda baş verib. Bundan əlavə, qətnamədə təxminən 1 milyon qaçqın və məcburi köçkün olan azərbaycanlının hüquqlarını tamamilə görməzdən gələrək, erməni sakinlərinin qayıtmasına selektiv şəkildə vurğu edilməsi qərəzli yanaşmanın bariz nümunəsidir.

Mədəni irsin məhv edilməsi ilə bağlı iddialar riyakarlıqdır. Təqribən 30 illik işğal dövründə Azərbaycanın mədəni və dini irsi sistematik şəkildə dağıdılıb, talan edilib və ya təhqir edilib. Bütün şəhərlər viran edilib, məscidlər, məzarlıqlar və tarixi abidələr yer üzündən silinib və bu halların

heç birinə Avropa Parlamenti tərəfindən heç zaman diqqət belə yetirilməyib. Buna baxmayaraq, ölkəmiz tərəfindən həm işğaldan azad edilmiş ərazilərdə, həm də digər bölgələrdə ayrı-seçkilik etmədən ən müxtəlif tarixi və dini abidələr qorunur və bərpa olunur. Bu faktları görməzdən gəlmək ikili standartların nümunəsidir.

Ermənistandakı revanşistlərin səsləndirdiyi fitnəkar iddialarla uzlaşan belə bir mövqe sərgilənməsi dolayısı ilə həmin qüvvələrin və erməni separatçıları tərəfindən xalqımıza qarşı törədilən, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, terrorçuluq, hakimiyyətin zorla ələ keçirilməsi və digər bu kimi ağır cinayətlərin dəstəklənməsi anlamına gəlir. Qətnamədə belə riyakar və iftira dolu oxşar fikirlərin təkrarlanması bu fəaliyyətə cəlb olunmuş və maskalanmış Avropa siyasətçilərinin həqiqi üzünü bir daha nümayiş etdirdi.

BMT-nin Beynəlxalq ədalət məhkəməsinin sabiq prokuroru, Azərbaycana qarşı daim saxta iddialarla çıxış edən, erməni lobbisinin alətinə çevrilmiş Luis Moreno Okamponun da yer aldığı qalmaqallı videoda səsləndirilən fikirlər isə istər bədnam Okamponun, istərsə də bu siyasətçilərin təxribatçı və korrupsiya əməllərini bir daha ifşa etdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin heyrətamiz liderliyi sayəsində regionda yeni geosiyasi və geoiqtisadi reallıqların yaranmasını, Prezidentimizin sülh gündəliyi əsasında Azərbaycanla Ermənistan arasında tədricən formalaşmaqda olan normallaşma prosesini və nəhayət, bütün bu reallıqların beynəlxalq platformalarda qəbul olunmasını həzm edə bilməyən qüvvələr hər vəchlə regionda sabitliyin yenidən pozulmasına cəhd edirlər.

Ümumiyyətlə, müəyyən Avropa institutları daxilində daha geniş qərəzli yanaşma hər kəsə yaxşı məlumdur. Ölkəmiz 2020-ci il Vətən

müharibəsindən sonra ayrı-seçkili yanaşmaların və əsassız ittihamların konstruktiv dialoqdan üstün tutulduğu bir şəraitdə Avropa Şurası Parlament Assambleyası, Avronest Parlament Assambleyası və Avropa Parlamenti kimi bir sıra Avropa platformaları ilə əməkdaşlıq münasibətlərini yenidən nəzərdən keçirib. AŞPA-da təmsilçiliyimiz dayandırılmaqla, digər bir sıra qurumlarda iştirak səviyyəsi aşağı salınıb. Bu qərarlar Azərbaycanın ikili standartlara qarşı prinsipial mövqeyini və milli maraqlarını qorumaq əzmini aydın şəkildə nümayiş etdirib.

Avropa Parlamentinin qətnaməsində yer almış Azərbaycan əleyhinə bu cəfəng və riyakar iddiaları qətiyyətlə pisləyir və rədd edirik. Bu fəaliyyətə cəlb olunmuş şəxslər unutmasınlar ki, ölkəmiz möhtərəm Prezidentimizin liderliyi ilə qarşıya qoyulan hədəflərə uğurla nail olur və regionda sülh, sabitlik, davamlı inkişaf naminə fəaliyyətə qarşı çıxan qüvvələrin niyyətləri yenə də puç olacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Elşən Musayev. Buyurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli Sahibə xanım, millət vəkilləri və media nümayəndələri. Avropa Parlamenti yenə də öz ənənəsinə sadiq qalaraq və uzunmüddətli qərəz təcrübəsinə əsaslanaraq Azərbaycana qarşı növbəti riyakar qətnaməsini qəbul edib. Bunlar sanki kvorum gözləyirlər, bir himə bənddirlər və hər yerdə – göydə, havada təşəbbüs axtarışındadırlar: Azərbaycanı hədəf almaq üçün. Hərçənd biz artıq məhrum icraatlara öyrəşmişik, alışmışıq və belələrinə qarşı siyasi immunitetimiz də çoxdan formalaşıb.

Yenə başlayıblar ki, “filankəs belə ədalətsiz həbs olundu”, ya da “filankəslər hərbi əsirdir”. Keçən iclasların birində Niderland və Belçika mövzusu üzərindən həmin təfəkkürün yiyələrinə hörmətli həmkarım Erkin

Qədirli çox doğru cavab verdi. Həmin cavab təxminən belə idi ki, sənəd hazırlayanda öncə normal bir hüquqşünas tapın, anlayışları dəqiqləşdirin, hər paraqrafda müxtəlif fikrə gəlməyin, fərqli havaya girməyin, ondan sonra danışarsınız və məntiq yürüdərsiniz.

İkincisi. Deyirlər, Qarabağa ermənilərin ləyaqətli qayıdışı təmin olunmalıdır. Əvvəla, ondan başlayaq ki, Azərbaycan adekvat ölkədir, beynəlxalq öhdəliklərə hörmətlə yanaşır. Birgə yaşayışın əleyhinə deyil və həmin yanaşmaya da öz əməli ilə daim sadiqlik nümayiş etdirib. Amma görün, bunu kim deyir? 30 il boyunca erməni vandalizminə, işğalına susan, göz yuman, 1 milyon qaçqın və köçkünün taleyinə biganə qalan Avropa Parlamenti. “Nonsense” və “curious” bax, budur.

Üçüncüsü. Deyirlər ki, “mədəni irsi məhv etmisiniz”, ya da “edirsiniz”. Bax, bu yerdə bilmirsən, güləsən, ya ağlayasan. Niyə? Çünki belə şeyi söyləmək üçün, sözün gerçək anlamında, abırsız olmaq lazımdır, ya da normal abır yetərlidir ki, həmin kəlməni dilinə almayasan.

Nəhayət, dördüncüsü. Heç Ermənistanın siyasi rəhbərliyinin özü Avropa Parlamentinin əsassızca, məntiqsizcə, mənasızca qaldırdığı məsələlərin üzərinə gəlmir. Kiməsə hərbi əsir demir, hansısa abstrakt mədəni irsdən danışmır. O zaman adama sual verərlər: Sizə nə gəlib, cənablar? Siz Papadan artıq katoliksiniz?

Çox hörmətli sədr, hörmətli həmkarlar, mən düşünürəm ki, biz bunlarla ən azından indiki dövrdə bütün əlaqələri kəsməliyik, komissiyadan da çəkilməliyik, Avronest-dən də çıxmalıyıq və sair. Çünki bunların dəyərləri ümumi bəşəri dəyərlər deyil, demokratiya deyil, insan hüquq və azadlıqları deyil, bunların dəyərləri cılız, məkrli, riyakar, lokal və periferik dəyərlərdir və Avropa Parlamenti həmin dəyərlərlə çox uzağa gedə bilməyəcək. Çox uzağa gedə bilməyənin yanında isə indidən qərarlaşmaq deyil, məhz

qərarlaşmamaq, düşünürəm ki, ən salamat işdir. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, dəyərli millət vəkilləri, son 36 ildə Avropa Parlamentinin Ermənistan–Azərbaycan münaqişəsinə və Qarabağ məsələsinə dair onlarca qətnaməsinə nəzər saldıqda Ukraynanın ərazi bütövlüyünü qətiyyətlə müdafiə edənlərin torpaqlarımızın işğalına necə haqq qazandırdıqlarını aydın görürük. 1990–2000-ci illərdə yalnız erməni əhalisinin humanitar böhrana məruz qalması və müdafiəsini iddia edən avrobürokratlar münaqişənin siyasi köklərini pərdələyərək separatizmə dəstək verir, öz müqəddəratını təyin etməyi qabardır, "dondurulmuş münaqişə" və "status-kvo" ifadələri ilə işğalı legitimləşdirməyə, Qarabağ rejimini tanıtmağa çalışırlar.

2020-ci ildə Vətən müharibəsində qələbəmizdən sonra Avropa Parlamenti məğlub dövlətlərin tribunasına çevrilərək, İrəvan hakimiyyətinin belə dilə gətirmədiyi "abidə", "qayıdış" və "xristian irsinin qorunması" mövzusu ilə ölkəmizə qarşı hücumlarının intensivliyini gücləndiriblər. "Hərbi əsirlər" adı altında keçmiş işğalçıları diriltmək istəyi aşkar ortadadır. Onları siyasi məhbus elan eləsələr, təəccüblənmərik. Avropa Parlamentində üçüncü Reyxə, Nürnberqdə mühakimə olunanlara bəraət tələb etsələr, bizim üçün qeyri-adi hesab edilməməlidir. Dünənki sənəddə "Dağlıq Qarabağ" termini işğalçıların təkcə Qorbaçov fondundan deyil, eyni ilə Qərb dövlətlərindən və parlamentlərindən maliyyə, siyasi və hərbi yardım aldıqlarını sübut edir. Halbuki Ermənistan hökuməti həmin ifadələri işlətmir. Lakin ən başlıcası qətnamənin adıdır. "Ermənistanın demokratik

dayanıqlılığının gücləndirilməsi, xarici müdaxilədən və Moskvadan gələn hibrid hücumlardan qorunması”.

Əgər doğrudan da, məqsəd belədirsə və ayrılmış 11 milyon avro vəsaiti xərcləməkdirsə, Ermənistanı xarici informasiya hücumlarına məruz qoyan və regionda sülhə zərbə vuran, Paşinyanın seçki platformasının əsas ideyasını, Azərbaycanla normallaşma prosesini pozan, üçbaşlı müharibə partiyasını gücləndirən elə həm də Brüssel bürokratiyasıdır. Əlbəttə, onların böyük bir hissəsi qonşu dövlətlərin də agentləridir.

Eva Kalinin korrupsioner davamçıları qorxur ki, iki xalqın düşmənçiliyi sona çatar və o dövlətlərin əli kəsilər. Qarabağ məsələsi gündəlikdən çıxdıqca keçmiş imperiya varisləri Qafqaza qorxu kültürünü yaya, silah sata, neft-qaz resurslarını sümürə bilmirlər. Bir neçə aydan sonra sülh müqaviləsi imzalananda, iki millət arasında diplomatik, siyasi və ticarət əlaqələri yarananda avroqətnamələr utanc səhifələri kimi tarixin arxivinə atılacaq.

Qarabağ əhalisini geri qaytarmağa çalışanlar, yəqin, Şuşa və Xankəndi azərbaycanlılarını nəzərdə tuturlar. Paşinyanın ən böyük rəqibləri daxildə həmin o dediyimiz üçbaşlı partiya deyil, İrəvanın düşmənləri aprelin 11-12-də Parisdə toplaşan 22 dövlətin təmsilçiləri və dünən qətnaməyə səs verənlərdir.

Son 35 ildə ilk dəfə “AZAL” təyyarəsi İrəvana gedib. Təhlükəsiz şəraitdə Baş nazirin müavini Prezidentin tapşırığı ilə sülh prosesi çərçivəsində sərhəd xəttini razılaşdırır. Belə bir vaxtda barışa və təhlükəsizliyə qarşı fəallaşan qüvvələr qələbəmizdən qisas almağa çalışırlar. Bəs parlamentimizin cavabı nə olmalıdır? Biz bəyan etməliyik ki, sülh prosesinə zərbə vuranlara qarşı İrəvan Bakı ilə birlikdə eyni səngərdə dayanmalıdır. Ermənistan rəsmi şəkildə bəyan etməlidir ki, son 30 ildə işğalı

legitimləşdirmək üçün qurduqları infrastruktur, o cümlədən dini və mədəni abidələri, qayıdış məsələsini kimsə imperiya maraqlarına adət edə bilməz. Bəli, Azərbaycan dövləti sülh düşmənlərinin siyahısını tərtib edib dünyaya təqdim etməlidir ki, Cənubi Qafqaza müharibə gətirmək istəyən agentlərin kimliyi hamıya bəlli olsun.

Hörmətli sədr, Sizin giriş nitqinizi də hər bir parlament üzvü, əminəm ki, müdafiə edir. Təklif edirik, mümkün olsa, bir bəyanat layihəsinin hazırlanması üçün komissiya formalaşdırılsın. Əminəm ki, sənəd onların növbəti dəfə, – dünən Siz onu bizim planlaşdırma iclasında səsləndirmişdiniz, sayca artıq 14-cüdür, görünür ki, ömürlərini, günlərini bizə həsr ediblər, – bu sənədə də növbəti bir cavabımız olsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyi gücləndikcə fərqli qurumlar, eləcə də Avropa Parlamenti tərəfindən Azərbaycana qarşı saxta və qərəzli qətnamələrin qəbul edilməsi müşahidə olunur. Təbii ki, Avropa Parlamentinin növbəti qətnaməsi saxta dəyərlərə əsaslanan və eyni zamanda, Azərbaycana qarşı ikili münasibətin davamı kimi qiymətləndirilməlidir.

Hörmətli xanım sədr, Siz və həmkarlarımız qətnamədə olan məsələlərlə bağlı ətraflı məlumat təqdim etdiniz. Təbii ki, qətnamə tamamilə qərəzli və saxta məlumatlara, eyni zamanda, Azərbaycana qarşı hələ də davam etdirilən ikili standartlara əsaslanır. Azərbaycan sülh gündəliyinə sadiq qalaraq regionda sülh və əməkdaşlığa töhfə verən ölkədir. Azərbaycan, bir tərəfdən, Ermənistana yanacaq ixrac edir, eyni zamanda,

Azərbaycan üzərindən Ermənistana daşınan bütün yüklərlə bağlı məhdudiyyətlər aradan qaldırılıb. Bu da, təbii ki, Azərbaycanın bölgədəki sülhə olan töhfəsidir. Bu, cənab Prezident tərəfindən Azərbaycanda, regionda yeni formalaşan yeni düzən kontekstində, bütövlükdə, ölkəmizin sülhlə və əməkdaşlıqla bağlı mövqeyini göstərir. Çox təəssüf ki, Azərbaycanın sülh gündəliyinə sadiq qalmasına baxmayaraq, Avropa Parlamenti də daxil olmaqla, fərqli parlamentlər və beynəlxalq qurumlar tərəfindən Azərbaycana, eyni zamanda, regionda artıq formalaşmaqda olan dayanıqlı sülhə qarşı qətnamələr və sənədlərin qəbulu müşahidə olunur. Təbii ki, saxta dəyərlərlə sülhə töhfə vermək olmaz. Regiondakı sülhə töhfə yalnız faktiki addımlarla və əməkdaşlıqla mümkündür.

Azərbaycan hazırda 16 ölkənin enerji təhlükəsizliyinə töhfə verir və həmin ölkələrdən 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Praktik olaraq bu ondan xəbər verir ki, bir tərəfdən, Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinə yaxından töhfə verib və yalnız enerji sahəsində deyil, həm də nəqliyyat və digər sektorlar daxil olmaqla, Avropa İttifaqı ilə əməkdaşlıq həyata keçirir. Azərbaycan yalnız son illər Avropa İttifaqına 57 milyard kubmetr mavi qaz nəql edib və xüsusən də Avropanın mavi qaza tələbatının kəskin artdığı dövrlərdə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verən əsas ölkələrdən birinə çevrilib. Bu gün Azərbaycan Avropa İttifaqında mavi qaz idxalına görə ən böyük 5-ci idxalçı ölkədir.

Bütün bunlar ondan xəbər verir ki, Azərbaycanın məramı əməkdaşlıqdır. Ancaq çox təəssüf ki, bu əməkdaşlıq bir sıra qurumları, o cümlədən Avropa Parlamentini narahat edir. Xüsusən də Azərbaycana son 1 həftədə olan yüksək səviyyəli səfərlər də onu təsdiq edir ki, Azərbaycanla əməkdaşlıqda maraqlı olan ölkələrin sayı çoxdur. Xüsusi ilə Çexiya da Azərbaycanın mavi qazını almaq niyyətindədir. Bu, təbii ki, bir tərəfdən,

Avropa İttifaqına üzv olan bir sıra ölkələrin mövqeyini nümayiş etdirir, baxmayaraq ki, Avropa Parlamenti ənənəvi qərəzli fəaliyyətini davam etdirir. Digər tərəfdən isə, bu, Azərbaycanın Avropa İttifaqının təhlükəsizliyinə, xüsusi ilə də enerji təhlükəsizliyinə daha yaxından töhfə verəcəyindən xəbər verir.

Avronest nümayəndə heyətinin üzvü olaraq VI çağırışda Avropa Parlamentində keçirilən iclaslarda da mənim ən çox müşahidə etdiyim məsələlərdən biri ikili standartlar idi. Azərbaycan ərazisi –Qarabağ və Şərqi Zəngəzur, o cümlədən mənim təmsil etdiyim rayon uzun müddət işğal altında qalıb. Çox təəssüf ki, həmin müddətdə Avropa Parlamenti tərəfindən hər hansı bir qətnamə, hər hansı bir sənəd qəbul edilməyib. Amma artıq regionda sülh formalaşıb, əməkdaşlıqla bağlı imkanlar yaranıb və sülh gündəliyi var. Biz bu kontekstdən Avropa Parlamentinin daha da aktivləşməsini, ikili və qərəzli qətnamələr qəbul etməsini müşahidə edirik.

Azərbaycan xalqı cənab Prezidentin ətrafında sıx birləşib. Bu gün güclü iqtidar–xalq birliyi var. Bu güclü iqtidar–xalq birliyini Avropa Parlamentinin saxta qətnamələri ilə sarsıtmaq mümkün deyil. Çünki bu, möhkəm və güclü təmələ əsaslanır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, çıxışlarda Milli Məclisin qərarını qəbul etməyin zəruri olduğu bildirildi. Ona görə də biz qərarın mətnini hazırlamaq üçün komissiya yaratmalıyıq. Təklif var ki, komissiyanın tərkibinə bu deputatlar daxil edilsin: Ziyafət Əsgərov – Milli Məclisin sədr müavini, komissiyanın üzvləri isə hörmətli həmkarlarım Fazil Mustafa, Mübariz Qurbanlı, Tahir Mirkişili, Tural Gəncəliyev, Jalə Əliyeva və Səbinə Xasayeva. Başqa fikir yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Ona görə də komissiya işə başlaya bilər. Ziyafət müəllim, mən xahiş edirəm, Siz deputatlarla birgə, Fərid müəllim, Siz də bütün təşkilati məsələlərlə məşğul olun. Buyurun.

Hörmətli həmkarlar, çıxışlarımız davam edir. Şahin İsmayılov. Buyurun.

**Şahin İsmayılov.** Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar, Avropa Parlamentində qəbul edilmiş məlum sənəd bir daha göstərir ki, bu qurumun müəyyən dairələri Cənubi Qafqaz reallıqlarına obyektiv və balanslı yanaşmaq əvəzinə, siyasi qərəz və selektiv yanaşma nümayiş etdirməkdə davam edirlər. İlk növbədə, Ermənistanla bağlı sənəddə Azərbaycan adının davamlı şəkildə neqativ kontekstdə hallandırılması tamamilə məntiqsiz və absurddur. Söhbət Ermənistan siyasətinə həsr edilmiş sənəddən gedirsə, bu sənədin Azərbaycan əleyhinə siyasi platformaya çevrilməsi qəbulolunmazdır. Bu yanaşma sənədin siyasi motivli olduğunu açıq şəkildə ortaya qoyur.

İkinci mühüm məqam ondan ibarətdir ki, regionda uzun illər davam etmiş münaqişə artıq başa çatmışdır. Azərbaycan öz beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Bugünkü reallıq postmünaqişə dövrüdür. Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və sülh sazişi istiqamətində intensiv proses gedir. Belə bir həssas mərhələdə Avropa Parlamentinin birtərəfli və təxribat xarakterli bəyanatları sülh gündəminə xidmət etmir, əksinə, regionda etimad mühitinə zərbə vurur.

Xüsusi ilə vurğulamaq lazımdır ki, hesabatda təhlükəsiz, maneəsiz və ləyaqətli geri dönüş hüququndan bəhs edilirsə, bu prinsip selektiv tətbiq edilə bilməz. Onilliklər ərzində Ermənistan ərazisindən sistemli şəkildə qovulmuş yüz minlərcə Qərbi azərbaycanlının hüquqları niyə görməzdən

gəlinir? Əgər həqiqətən, insan hüquqları, mülkiyyət hüququ və ləyaqətli geri dönüş prinsipləri müdafiə olunursa, onda Qərbi azərbaycanlıların öz doğma torpaqlarına dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı da eyni beynəlxalq hüquq və mənəvi çərçivədə dəstəklənməlidir.

Bu məsələdə ikili standart açıq görünür: Bir tərəfin hüquqları davamlı vurğulanır, digər tərəfin fundamental hüquqları isə sistemli şəkildə susdurulur. Belə selektiv yanaşma insan hüquqları ideyasının özünü siyasiləşdirir və onun legitimliyinə xələl gətirir.

Avropa Parlamentinin bəzi dairələrinin Azərbaycana münasibətdə nümayiş etdirdiyi təəssübkeş fəaliyyət artıq yeni deyil. Uzun illər ərzində Azərbaycanın üzləşdiyi işğal, etnik təmizləmə, bir milyona yaxın məcburi köçkün problemi və mədəni irsin dağıdılması eyni həssaslıqla gündəmə gətirilməmişdir. Bu gün isə regionda yeni status-kvo formalaşdığı bir vaxtda birtərəfli yanaşmanın davam etməsi ciddi suallar doğurur.

Azərbaycan regionda dayanıqlı sülhün tərəfdarıdır. Azərbaycan hesab edir ki, Cənubi Qafqazın gələcəyi qarşıdurma ritorikası ilə deyil, qarşılıqlı suverenliyə hörmət, ərazi bütövlüyünün tanınması və real sülh gündəliyi üzərində qurulmalıdır. Bu baxımdan, Avropa Parlamenti regiona dair mövqeyini emosional və siyasi simpatiyalar əsasında deyil, beynəlxalq hüquq, obyektivlik və balans prinsipləri əsasında yenidən nəzərdən keçirməlidir.

Hörmətli xanım sədr, mən də həmkarlarımın fikirlərinə qoşuluram. Avropa Parlamenti ilə mövcud olan bütün əlaqələrin kəsilməsini və bu münasibətlərə tamamilə yenidən baxılmasına çağırış etmək istərdim. Azərbaycan böyük ölkədir. Azərbaycanın böyüklüyü onun ərazisinin ölçüləri ilə hesablanmır. Azərbaycanın böyüklüyü regionda oynadığı rolla ölçülür.

Bu baxımdan, biz bir daha böyük ölkə olaraq Avropa Parlamenti ilə münasibətlərimizə, düşünürəm ki, yenidən baxmalıyıq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bu gün biz Avropa Parlamentinin ölkəmizə qarşı nəinki qərəzli, həm də bütövlükdə, adi məntiqdən kənar, düşmən mövqedə durması ilə bağlı məsələləri müzakirə edirik.

Hörmətli xanım sədr, Siz də çıxışınızda qeyd etdiniz, son 10 ildə Azərbaycanın etdiyi müsbət jestlərə rəğmən, Azərbaycanın Avropa Parlamenti ilə əməkdaşlıq istəyinə baxmayaraq, biz görürük ki, Avropa Parlamenti yenə də öz ampulasındadır. Heç bir vəchlə Azərbaycanın həyata keçirdiyi konstruktiv siyasətə uyğun öz siyasətini formalaşdırmır və qəbul etdiyi qətnamələrdə birbaşa ölkəmizin milli maraqlarını hədəf alır. Bəlkə də dünən qəbul olunan "Ermənistanda demokratik dayanıqlılığın inkişafına dair qətnamə"də yerli-yersiz, heç aidiyyəti olmayan bir formada yenə də Azərbaycanın adını yazıblar. Bütün dünyanın gözü qabağında ölkəmizə qarşı, xalqımıza, millətimizə qarşı müxtəlif beynəlxalq cinayətlər törətmiş şəxslərin "hərbi əsir" adı altında buraxılmasını tələb edirlər. Guya Qarabağda ermənilərin irsi korlanır, tapdalanır, guya ermənilərə qarşı haqsızlıq olub, guya "Dağlıq Qarabağ" ermənilərinin ölkəmizə qayıtması ilə bağlı Azərbaycan hər hansı bir addım atmır. Yenə köhnə söhbətlər, narrativlər, köhnə ittihamlar. Əlbəttə ki, biz bunların hamısına alışmışıq.

Bunlar burada təkcə bu siyasi münaqişəni qızışdırmaqla məşğul olmurlar, yaxud yeni münaqişə yaratmaq üçün erməni revanşistlərini hərəkətə gətirmirlər, eyni zamanda, Azərbaycanın, keçmiş qətnamədə

olduğu kimi, enerji siyasətini də hədəfə gətirirlər. Əvvəl də qəbul olunan qətnamələrdə bunlar Avropa İttifaqı ilə Azərbaycan arasında bağlanmış strateji əməkdaşlıq sazişinin, yaxud da enerji sahəsindəki əməkdaşlığında, yəni müqavilənin ləğv olunması ilə bağlı müəyyən ittihamlar qaldırmışdılar.

Bir neçə gün bundan öncə Okamponun etiraflarına baxaq. Bunlar açıq şəkildə etiraf edirlər ki, bu gün bizim məqsədimiz təkcə “Dağlıq Qarabağ”dakı olan erməniləri aktivləşdirmək deyil, eyni zamanda, Azərbaycanla Avropa İttifaqı arasındakı bugünkü sağlam əməkdaşlığı sarsıtmaq, Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayeni sıxışdırmaq, hətta keçmiş xarici siyasət üzrə nümayəndə Borreli bu işə cəlb etmək... Zatən Cozep Borrellin fəaliyyəti bizə bəlli idi, həmişə korrupsiyaya bulaşmış, Azərbaycana qarşı çox qərəzli və qeyri-peşəkar münasibət bəsləyən bir komissar olmuşdu.

Bilirsiniz, bu məsələləri araşdıranda sual meydana gəlir: Axı, niyə bu olur? Bu gün Azərbaycanla Avropa arasında münasibətlər kifayət qədər yüksəkdir. Biz Avropa ölkələrinin bir çoxu ilə strateji tərəfdaşıq. Bu gün Avropa İttifaqı faktiki olaraq Azərbaycanın enerjisinə görə Azərbaycana minnətdar olmalıdır. Azərbaycanın təbii qazının tədarükü birbaşa Avropa İttifaqı ölkələrinə göndərilir və bu gün ən çətin məqamda Azərbaycan Avropalı vətəndaşları, sakinləri soyuqda donmaqdan xilas edir. Bunun müqabilində niyə Avropa Parlamentinin üzvləri Azərbaycanla bağlı bu qədər qərəzli mövqe tuturlar? Cavab çox sadədir. Burada 2 səbəb var. Birinci, bu şəxslər sırf korrupsiya müqabilində, pul müqabilində lobbilərin təsiri ilə Azərbaycana qarşı sifariş yerinə yetirirlər.

İkinci səbəb odur ki, bu gün həmin qüvvələr bəzi ölkələrin geosiyasi maraqlarını ifadə edirlər. Burada açıqdır. Məsələn, biz nə qədər şahidi olmuşuq ki, Azərbaycanla bağlı bu cür fəallıq göstərən şəxslər sonradan bu

və ya digər formada korrupsiyaya cəlb olunublar. 2022-ci ildə Avropa Parlamentinin vitse-spikeri Eva Kaylinin vəziyyətini bilirik. “Qatargate” məsələsinə görə onu həbs etdilər. Onun korrupsiya ilə bağlı açıq sxemi ortaya çıxdı. Yaxud da elə erməni şəbəkəsinin birbaşa önündə gedən ABŞ Senatının Xarici əlaqələr komitəsinin rəhbəri Robert Menendez. O da eyni şəbəkənin üzvü idi və korrupsiya ilə bağlı ittiham olundu.

Hörmətli həmkarlar, mən hesab edirəm ki, artıq Belçika hökuməti məhz Borrel kimi adamlara qarşı cinayət işinə başlamalıdır. Onun əlaqələri araşdırılmalıdır, onun qəbul etdiyi qərarların siyasi motivli olması, korrupsiya xarakterli olması ifşa olunmalıdır, onu həbs etməlidirlər. İndi biri də çıxıb – Nyu-York meri Mamdani Azərbaycanla bağlı hədyanlar yağdırır. ABŞ-nin Beynəlxalq dini azadlıq komissiyasının bəzi üzvləri Azərbaycana qarşı hesabatlar hazırlayıb, eyni ittihamları orada səsləndirirlər.

Bunlar, əlbəttə ki, əbəsdir. Azərbaycan buna çox sərt münasibət bildirməlidir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidova söz vermək istərdim. Səməd müəllim, buyurun.

**Səməd Seyidov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, belə bir ciddi məsələnin müzakirəsində mənə çıxış etmək imkanı yaratdığınıza görə Sizə xüsusi təşəkkürümü bildirirəm.

Mən çox gözəl xatırlayıram ki, bu hadisələr necə baş vermişdir. Hörmətli Sahibə xanım, Siz öz çıxışınızda qeyd etdiniz. Doğrudan da, 2015-ci ildə Azərbaycana qarşı növbəti qərəzli, heç bir çərçivəyə sığmayan qətnamə qəbul olunmuşdu. Ən maraqlısı ondan ibarətdir ki, o qətnaməni qəbul etdirənlərdən biri – Yaqland bu yaxınlarda özü intihara cəhd edib.

Əxlaqsızlıqla ittiham olunur. Hələ də bilinmir, yaşayır, yoxsa yox. Ancaq nə edəsən?! 2015-ci ildə Azərbaycana qarşı belə bir münasibət mövcud idi. Azərbaycan parlamenti düzgün olaraq bu qurumla bütün əlaqələri kəsmişdir.

Ancaq yenə də Azərbaycanın genişürəkliliyi. Cənab Prezident Avropa istiqamətində inteqrasiya proseslərinin nə dərəcədə vacib olduğunu nəzərə alaraq konstruktiv və mən deyərdim, humanist addım atmışdır. Siz qeyd etdiniz, ona görə o qərardan dərhal sonra Avropa Parlamentindən emissarlar Azərbaycana gəlməyə başlamışdır. Onlar, – mən bu sözdən çəkinirəm, – xahiş deyil, yalvarırdılar. Onlar deyirdilər: Bəli, biz səhv etmişik. Biz nə edək? Biz lobbinin təsiri altındayıq. Ancaq biz bundan sonra bunu etməyəcəyik. Hətta rəsmi sənəd belə təqdim etdilər. Hətta altından imza çəkdilər ki, bir də belə şeylər etməyəcəyik. Mən bunun şahidiyəm. Təbii, 2016-cı ildə Azərbaycan parlamenti yenə də avrointeqrasiya məsələsini ən yüksək səviyyədə qiymətləndirdiyinə görə öz qərarını dəyişdirdi və əməkdaşlığa yenidən başladı.

Siz qeyd etdiniz. Ondan sonra Azərbaycana qarşı 13 qətnamə. Hamısı Azərbaycanın əleyhinə, Azərbaycanın gördüyü işlərə kölgə salmaq mahiyyətini daşıyırdı. Burada həmkarlarım çox gözəl və çox düzgün qeyd etdilər. Niyə? Nəyə görə? Hər bir uğur Avropa Parlamentindən bir qətnamə ilə müşahidə olunurdu.

Bilirsiniz, bir neçə gündən sonra Ermənistanda Avropa liderlərinin sammiti başlayacaq. Ancaq etiraf etmək lazımdır ki, bu sammit artıq başlayıb. İrəvanda deyil, Qəbələ şəhərində. Avropanın bütün siyasi liderləri öncə Azərbaycana gəlirlər. Azərbaycan Respublikasının Prezidenti ilə məsləhətləşirlər, Azərbaycan Respublikası Prezidentinin gördüyü işləri dünyaya təqdim edirlər və Azərbaycanın Avropa üçün nə dərəcədə

əhəmiyyətli olduğunu bir də vurğulayırlar. Səbəb budur ki, Azərbaycan artıq Avropanın özü üçün həm enerji, həm logistik, həm də təhlükəsizlik nöqteyi-nəzərindən həddindən artıq vacib, əhəmiyyətli ölkəyə çevrilmişdir. Ona görə də növbəti bir hiyləgər addım...

Hörmətli həmkarlar, əvvəllər bunlar Azərbaycana qarşı qətnamə qəbul edəndə birbaşa Azərbaycan məsələsini gündəmə gətirirdilər və səs verənlərin sayı getdikcə azalırdı. Bunlar görürdülər ki, özlərini ifşa edəcəklər. Ona görə ki, 720 deputatdan bəzi qətnamələrə 47 nəfər, 35 nəfər, 30 nəfər səs verirdi. Gördülər ki bu, mümkün olan bir yol deyil. İndi bu qətnamədə Azərbaycana aid olan məsələlər başqa bir qətnaməyə daxil edilib. Zahid müəllim burada qeyd etdi, Ermənistanla bağlı qətnaməyə daxil olunub. Bunu elə hiyləgərcəsinə daxil ediblər ki, heç bir aidiyyəti olmayan bir məsələdir. Siz Ermənistan haqqında söhbət edirsiniz, siz Ermənistanın məsələsini müdafiə etmək istəyirsiniz. Sizin Azərbaycanla işiniz niyə bu şəkildədir?

Hesab edirəm ki, Azərbaycan parlamentinin qəbul edəcəyi bəyanat həddindən artıq vacib və əhəmiyyətlidir. Biz müstəqil, güclü, suveren bir dövlətik. Biz Avropa Birliyinin üzvü deyilik, biz o təşkilatın qarşısında heç bir öhdəlik götürməmişik, qarşılıqlı hörmət əsasında əlaqələrimizi qurmağa həmişə hazırıq. Ancaq bu şəkildə deyil. Hesab edirəm ki, qəbul olunacaq qətnamə Azərbaycanın mövqeyini əks etdirəcək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Anar İsgəndərov. Buyurun.

**Anar İsgəndərov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri, hamınızı salamlayıram. Hörmətli xanım sədr, mən çıxışıma maraqlı bir tarixlə başlamaq istəyirəm. 1918-ci ilin noyabrında general Tomson Bakı şəhərinə daxil oldu, özünü Bakının general-qubernatoru elan

etdi. Həmçinin elan etdi ki, yazıq və məzlum erməniləri ayrıca dinləyəcək və Azərbaycanın müstəqilliyini də qəbul etmir.

Parlamentin təşkili məsələsi olanda Baş nazir Fətəli xan Xoyski general Tomsonla görüşdü. General Tomsonun tələblərinin heç birini qəbul etmədi. General Tomson Fətəli xan Xoyskiyə dedi: “Mən generalam, bəs sən kimsən?”. Fətəli xan tərcüməçiyə dedi: “Tərcümə et: Mən uzun illər boyu azadlıq uğrunda mübarizə aparan bir xalqın Baş naziriyəm”. Tomson: “Bəs ordunuz yoxdur”. Fətəli xan Xoyski dedi: “Generala izah edin ki, o, hərbiçidir, xalq hərəkatının nə olduğunu bilmir. Bu xalq min illər boyu öz qəhrəmanlığı ilə diqqəti cəlb edib. Siz 3 min nəfər sipahi ordusu ilə Bakı şəhərinə daxil olmusunuz. Xalqımın qonaqpərvərliyi olmasa idi, bu 3 min əsgəri Xəzər dənizinə tökmək adi bir şeydir”.

Son nəticədə Fətəli xan Xoyskinin hansı təklifləri var idisə, qəbul olundu. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti açıldı. Yəni dövlət, hökumət və hökumət başçısının təsiri, gücü özünü göstərdi.

1919-cu ildə Paris Sülh Konfransında da Amerikanın Prezidenti Vudro Vilson Əlimərdan bəy Topçubaşova nə təklif edirdi? “Bir Avropa dövləti tapın, onun himayəsi altında çalışın”. Amma Əlimərdan bəy Topçubaşov nə etdi? Mübarizəni sona qədər apardı və 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycanı tanıdı, de-fakto tanıdı və bu da həm xalqın, həm də xalqa rəhbərlik edənin gücünü göstərdi.

Mən bir tarixçi olaraq Avropa tarixi ilə bağlı bir neçə cümlə deyim. Bütün oxuduqlarımdan gəldiyim nəticə budur: Osmanlı dövləti olan dövrdə, Səfəvi dövləti olan dövrdə heç bir Avropa dövlətinin bu dövlətlərə münasibəti səmimi, ədalətli olmayıb və 1913–1918-ci illər ərzində Cənubi Qafqaz işğal olunanda belə bizə olan münasibət ədalətsiz olub. 1918–1920-ci illərdə olan dövlətə münasibət ədalətsiz olub. Ən nəhayət, Azərbaycan 1990-cı

illərin əvvəllərində öz müstəqilliyini elan edəndə də Ermənistan işğal edir, Avropa susur, Avropa Parlamenti bir cümlə demir. Amma son nəticə necə olur? 44 günlük Vətən müharibəsi ilə Azərbaycan öz gücünü göstərir. Ali Baş Komandan Azərbaycan xalqının nəyə qadir olduğunu üzə çıxarır və Avropa Parlamenti dərdə qərq olur.

Mənə qədər həmkarlarımın dediyi kimi, hər dəfə, 44 günlük Vətən müharibəsindən sonra da Avropa harada isə, nə isə fikirləşir. Mənə belə gəlir ki, erməni Avropa üçün həmişə səbəb deyil, bəhanə olub. Avropa və Avropa Parlamenti, Avropa rəsmilərinin heç biri Azərbaycanı qalib kimi görə bilməyiblər. Uzağa getməyək, İkinci Dünya müharibəsində qələbənin əldə olunmasında Azərbaycanın kifayət qədər uğurları oldu, amma bir "sağ ol" da əldə etmədi. Bu gün biz Avropanın 16 dövlətinə enerji veririksə, onun ən çətin günlərində yanındayıqsa, onun da bizə olan "sağ ol"u budur. Mənə də belə gəlir ki, bizim bəyanatımız sərt olmalıdır, gücümüzü göstərməliyik, qalib Azərbaycanın qalib gücü və qalib parlamenti bu istiqamətdə də öz haqq sözünü deməlidir.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Avropa Parlamenti tərəfindən Azərbaycana qarşı qəbul edilən qətnamə və yanaşmalar ciddi hüquqi və qərəzli yalnışlıqlarla zəngin olur. Biz bu münasibəti, sadəcə, tənqid deyil, eyni zamanda, selektiv və qeyri-obyektiv yanaşma kimi qiymətləndirməyə məcburuq. Azərbaycan müstəqil, suveren dövlətdir və öz daxili işlərini beynəlxalq hüquq çərçivəsində tənzimləmək hüququna malikdir. Lakin təəssüf ki, Avropa Parlamenti regionun reallıqlarını dərindən öyrənmədən, birtərəfli

məlumatlara əsaslanaraq qərarlar qəbul edir. Bu isə nə dialoqa, nə də qarşılıqlı etimada xidmət edir. Sual edirik: Niyə eyni həssaslıq digər regionlarda baş verən daha ciddi pozuntulara münasibətdə göstərilmir? İkili standartlar tətbiq olunur. Bu yanaşma nə ədalətlidir, nə də Avropanın öz dəyərlərinə uyğundur. Azərbaycan hər zaman konstruktiv əməkdaşlıq tərəfdarı olub. Biz Avropa İttifaqı ilə enerji təhlükəsizliyi, regional sabitlik və iqtisadi inkişaf sahələrində mühüm tərəfdaşıq. Xüsusi ilə son illərdə Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu açıq şəkildə görünməkdədir.

Belə bir tərəfdaşa qarşı bu cür yanaşma isə ən azı anlaşılmazdır. Biz tənqiddən qaçmırıq, əksinə, sağlam və əsaslandırılmış tənqid hər bir cəmiyyət üçün faydalıdır. Lakin bu tənqid obyektiv, balanslı və hörmət çərçivəsində olmalıdır. Təzyiq dili, siyasi sifariş təsiri bağışlayan qərarlar isə münasibətləri zədələyir. Azərbaycan regionda sülhün və əməkdaşlığın tərəfdarıdır. Biz qarşıdurma deyil, dialoq tərəfdarıyıq. Amma dialoq bərabərhüquqlu olmalı və qarşılıqlı hörmət əsasında qurulmalıdır. Bu baxımdan, Avropa Parlamentini daha məsuliyyətli, daha ədalətli və daha balanslı mövqe tutmağa çağırıram. Əks halda bu cür yanaşmalar nə münasibətlərimizi inkişaf etdirəcək, nə də regionda sabitliyə töhfə verəcək. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

İndi isə mən sözü hörmətli Musa müəllim Qasımlıya verirəm. Musa müəllim söz istəmişdi. Musa müəllim, buyurun.

**Musa Qasımlı**. Hörmətli xanım sədr, dəyərli həmkarlar, qartımış düşüncələri ilə və atdıqları hər addımla özlərini çıxılmaz bataqlığa salan Avropa Parlamenti deputatlarının qəbul etdiyi qətnamə başda-başa yalan, uydurma, saxta və qərəzli olduğu üçün Azərbaycan ictimaiyyəti tərəfindən

qətiyyən qəbuledilməzdir, cırılıb atılmış, istifadəyə yararsız kağız parçasıdır. Mən həmin qətnamədə yazılan uydurmaları burada səsləndirib, onun müəlliflərini şərəfləndirmək istəmirəm.

Bu qətnamə nəyi göstərir? Bu qətnamə Avropada təşkilatların, o cümlədən parlament təşkilatlarının böhranını göstərir. Avropa dövlətlərinin liderləri möhtərəm cənab Prezidentimizlə görüşə can atdıqları bir şəraitdə parlamentarilərin belə qətnamələri onları gözdən düşürür və rüsvayçı duruma salır. Sual olunur: Bu qətnamənin qəbul edilməsinin səbəbi və məqsədləri nədir? Başlıca bir səbəb var. Azərbaycanın qazandığı böyük Zəfər nə qədər vacib əhəmiyyət daşıyır, miqyasına görə nə qədər böyükdür, onlar bunu qəbul edə bilmirlər. Əgər axtarılsa, bu qətnaməyə səs verən deputatlar erməni milyonçularının cibindən çıxacaqlar və digər bir ölkənin xüsusi xidmət orqanlarının agentləri olacaqlar. Belə qətnamələrin perspektivləri varmı? Ötən illərin təcrübəsi göstərir ki, Azərbaycanla hədə-qorxu, qərəz və digər hədyanlarla danışmağın heç bir perspektivi yoxdur.

Azərbaycan belə qətnamələri həmişə sol əlinin arxası ilə geri çevirib. Bu qətnamə də belə olacaqdır. Bəs çıxış yolu nədir? Çıxış yolu Azərbaycanla yalnız bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əməkdaşlıqdadır. Başqa yolu tutanlar uğursuzluğa düçar olacaqlar. Bunu yaxın tariximizin təcrübəsi də göstərir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, dünən Avropa Parlamentinin məlum, bu bədnam qətnaməsini oxuyandan sonra mən bir neçə axtarış sistemində “korrupsiya, lobbiçilik” yazdım və bu ifadələr dərhal “Avropa Parlamenti” sözləri ilə birlikdə çıxdı. Yəni

Azərbaycan ictimai rəyində bu qətnamə korrupsiyalaşmış və lobbiçiliklə məşğul olan parlamentin qəbul etdiyi sənəd təsəvvürü yaradır.

İkinci nə çıxdı? Daha çox “Qatargate” sözü çıxdı və bəlli oldu ki, 2022-ci ildə Belçika polisinin Avropa parlamentarilərinə qarşı qaldırdığı cinayət işi sosial şəbəkələrdə hələ də ən çox axtarılan və Avropa Parlamentinin adının cinayətlə, korrupsiya ilə hallandığı trendlər siyahısındadır. Ona görə də, ilk növbədə, nəzərə almaq lazımdır ki, bizə qarşı bu qətnaməni kim qəbul edibdir. Daha sonra Avropa Parlamentinin vitse-prezidenti Eva Kaylinin adı çıxdı. O, Qətərdən və digər körfəz ölkələrindən, digər başqa ölkələrdən rüşvət almaqla onların lehinə Avropa Parlamentində lobbiçilik edibdir. Avropa Birliyinin sinonimi bizim mövqeyimiz olmadan belə, axtarış sistemlərində lobbiçilik və korrupsiya ilə ölçülür. Yəni Avropa Parlamenti bərabərdir – lobbiçilik və korrupsiya. Məsələnin bu ümumi ictimai rəydəki rezonansı bundan ibarətdir.

Bu günlərdə başqa bir hadisə də baş verdi. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsinin keçmiş prokuroru Luis Okamponun videosu yayılıb. Burada da bəlli oldu ki, bir zamanlar Avropa Parlamentinin simalarından biri olan Cozef Borrel bu adamın əlaltısıdır, belə demək mümkündürsə, ona lobbiçilik edir. Okampo iddia edir ki, mən Avropa Birliyində istənilən qətnaməni keçirə bilərəm və bu videoçarx bütün sosial şəbəkələrdə yayıldı. Belə olan halda, mənim öz parlamentimizin nüfuzuna heyifim gəlir ki, görün, hansı parlamentin hansı məsələsini müzakirə edirik. Amma mütləq bunu müzakirə etmək lazımdır, belə şeylər izsiz qalmamalıdır.

Digər məsələ. Bizim Azərbaycan parlamenti adından mövqeyimizi bildirəcəyimiz bəyanatı, mənə elə gəlir ki, 3 kontekstdə qiymətləndirməliyik.

1. Hüquqi kontekstdə;

2. Demokratiya kontekstində;

3. Siyasi kontekstdə.

Bu qətnaməni qəbul edənlərin hər biri, Avropa Parlamentinin üzvü olan, yaxud Avropa Parlamentinə üzv olan ölkələrin vətəndaşı olan parlamentarilərdir. Bu ölkələrin hər biri isə Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Belə olanda Avropa Parlamentinin mövqeyi Azərbaycana qarşı ərazi iddiası kimi qiymətləndirilməlidir və onların ölkələrinə rəsmi kanallarla məktublar göndərilməlidir ki, siz bizim ərazi bütövlüyümüzü tanıdığınız halda, nəyə görə sizin parlamentariləriniz Azərbaycanın ərazi bütövlüyünə qarşı, suveren hüquqlarına qarşı iddia etmiş olurlar. Bu da məsələnin başqa bir tərəfidir.

İkinci. Demokratiya və ədalət kontekstində də Avropa Parlametinin qətnaməsində bu məsələlərin heç biri nəzərə alınmır. Çünki nə Avropa dəyərlərinə, nə də demokratik dəyərlərə, – əgər Avropada hələ də demokratik dəyərlər qalıbsa, – bu mövqe uyğun gəlmir.

Üçüncü. Qətnaməni qəbul edildiyi tarix və siyasi baxımdan qiymətləndirməliyik. Nəyə görə bu qətnamə 2026-cı il aprelin 30-da qəbul edilib? Hamı bilir ki, regionda çox mühüm hadisələr baş verir. Hamı bilir ki, iki böyük imperiya Ermənistanı yenidən forpost etmək uğrunda mübarizə aparır. Ancaq hamı onu da bilir ki, bu imperiyalar arasında, nəhayət, öz mövqeyini gücləndirən, Cənubi Qafqazda real demokratik, hüquqi münasibətlər yaratmağa qadir olan güclü bir Azərbaycan var və bu Azərbaycan sülh yaradır. Əslində, siyasi baxımdan da Avropa Parlamentinin bu mövqeyi sülhə qarşı olan mövqedir. Mən düşünürəm ki, bu da öz əksini tapmalıdır.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, komissiyamız artıq işini bitirdi. Düşünürəm ki, biz bu məsələni kifayət qədər müzakirə etdik.

Hörmətli Ziyafət müəllim, qərarın mətni hazırdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hazırdır. Onda mən xahiş edirəm, Siz səsləndirin. Buyurun.

**Ziyafət Əsgərov,** *Milli Məclis sədrinin müavini.*

Hörmətli xanım sədr, hörmətli deputatlar!

Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Qərarı.

Azərbaycan Respublikasının Milli Məclisi xarici ölkə parlamentləri və beynəlxalq parlament təşkilatları ilə əlaqələrində sülh, təhlükəsizlik və davamlı inkişaf naminə birgə fəaliyyəti rəhbər tutur, parlament dəyərlərinə və ortaq maraqlara əsaslanaraq açıq, səmimi və konstruktiv dialoqu təşviq edir. Təəssüflər olsun ki, Avropa Parlamentinin qeyd olunan prinsipləri inkar edən destruktiv mövqeyi bu qurumla ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafı qarşısında başlıca maneəyə çevrilmişdir.

Avropa Parlamentinin fəaliyyətinin mahiyyətində beynəlxalq hüququn norma və prinsiplərinin, ədalət anlayışının qəti surətdə rədd edilməsi dayanır. Bu qurum torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına, yüzlərcə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına, etnik təmizləməyə, 1 milyondan çox qaçqın və məcburi köçkünün insan hüquqlarına davamlı şəkildə etinasız yanaşmışdır. Avropa Parlamenti ilə əməkdaşlıq üçün nəzərdə tutulmuş platformalar – Avropa İttifaqı – Azərbaycan Parlament Əməkdaşlıq Komitəsi və Avronest Parlament Assambleyası isə ölkəmizə qarşı təzyiq, şantaj və daxili işlərə kobud müdaxilə alətinə çevrilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin bu münasibəti səbəbindən onunla bütün əlaqələrini 2015-ci ildə dayandırsa da, qarşı tərəfin çoxsaylı müraciətlərini və vədlərini əsas götürərək əməkdaşlığı yenidən bərpa etmişdir. Buna baxmayaraq, Avropa Parlamenti öz vədlərinə əməl etməmiş, özünün anti-Azərbaycan siyasətini, böhtan və qarayaxma fəaliyyətini ardıcıl surətdə davam etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğalına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra isə Avropa Parlamentinin bu fəaliyyəti daha geniş vüsət almışdır. Prezident İlham Əliyevin özünün müəyyən etdiyi sülh gündəliyinin onun siyasi iradəsi və qətiyyəti sayəsində uğurla reallaşdırılması və tarixi Vaşinqton razılaşmaları ilə nəticələnməsi, dövlət başçısının sülhə, əməkdaşlığa və tərəqqiyə xidmət edən təşəbbüslərinin beynəlxalq səviyyədə dəstək qazanması bu qurumun anti-Azərbaycan ritorikasını daha da gücləndirmişdir. Təkcə onu demək kifayətdir ki, 44 günlük Vətən müharibəsindən sonra Avropa Parlamenti Azərbaycan əleyhinə saxta məlumatları, yalan iddiaları və absurd ittihamları əks etdirən 10-dan artıq qətnamə qəbul etmişdir. Avropa Parlamentinin COP29 ərəfəsində və keçirildiyi dövrdə Azərbaycana qarşı hücumlarda əsas alətlərdən biri kimi istifadə olunması da yaddan çıxarılmamalıdır.

Bu gün demokratik dəyərlərin iflasa uğradığı, korrupsiya və rüşvətxorluğun dərin kök saldığı, lobbi qruplarına və müxtəlif maraq dairələrinə xidmət edən Avropa Parlamenti Azərbaycanofob və islamofob düşüncənin ardıcıl surətdə ifadə olunduğu struktura çevrilmişdir. Əsas narahatlıq doğuran məqamlardan biri də budur ki, bu qurum yalnız Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına maneə törətmir, həm də regionumuzda uzunmüddətli sülh və sabitliyin bərqərar

edilməsi istiqamətində atılan addımlara qarşı çıxır, revanşist qüvvələri təhrik etməklə regionumuzu yenidən münaqişə ocağına çevirməyə cəhd göstərir. Bütün bunlar isə Avropa Parlamenti ilə əməkdaşlığın mahiyyətini heçə endirir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq qərara alır:

1. Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılsın.

2. Azərbaycan Respublikası Milli Məclisinin Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin fəaliyyətində iştirakına son qoyulsun.

3. Avronest Parlament Assambleyasının Nizamnaməsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılsın və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmasın.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim.

Hörmətli həmkarlar, necə bilirsiniz, biz qərarı səsə qoya bilərikmi? Heç kimin etirazı yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Xahiş edirəm, indi qərara münasibət bildirin. Buyurun, mən qərarı səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| --- | --- |
| Lehinə | 114 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Qərarı qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Qeyd edim ki, növbəti 3 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Hər 3 qanun layihəsi beynəlxalq sənədlərin təsdiq edilməsi ilə bağlıdır. Odur ki, bu layihələr "Nomativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Beləliklə, biz 2-ci məsələyə keçirik. Bu məsələ də "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumatı bu gün hörmətli Nizami Səfərov verəcək. Nizami müəllim, buyurun, sözü Sizə verirəm.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları, beynəlxalq əməkdaşlığın ən mühüm seqmentlərindən birini dövlətlərarası hüquqi yardım və ekstradisiya təşkil edir. Bu kontekstdə Azərbaycan Respublikası səmərəli fəaliyyət həyata keçirir və əməkdaşlığın etibarlı hüquqi bazasını ikitərəfli dövlətlərarası müqavilələr, universal və regional səviyyədə bağlanılan beynəlxalq konvensiyalar təşkil edir.

İlk növbədə, qeyd etmək istərdim ki, dövlətimiz Avropa qitəsində qəbul edilən bir neçə mühüm konvensiyada – “Ekstradisiya haqqında” 1957-ci il 13 dekabr tarixli Avropa Konvensiyasında və onun Əlavə protokollarında, 1959-cü il aprelin 20-də qəbul edilən “Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında” Konvensiyada və onun Əlavə protokollarında iştirak edir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələri haqqında statistik məlumatlara müraciət edəndə məlum olur ki, hazırda ölkəmiz hüquqi yardım haqqında 17 qüvvədə olan müqavilənin iştirakçısıdır, Çin Xalq Respublikası ilə hüquqi yardım haqqında müqavilə bizim tərəfimizdən ratifikasiya olunub, yaxın zamanda Çin tərəfindən müvafiq prosedurların tamamlanması gözlənilir. Eyni tipli müqavilə cari ilin aprel ayının 24-də Ukrayna Respublikası ilə imzalanıb. Həmçinin Azərbaycan Respublikasının sırf ekstradisiya haqqında 8 ikitərəfli müqaviləsi də mövcuddur.

Regional müstəvidə çoxtərəfli əməkdaşlığa xüsusi önəm verən Azərbaycan həmçinin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin “Mülki, ailə və cinayət işləri üzrə hüquq münasibətləri və hüquqi yardım haqqında” 1993-cü il yanvarın 22-də Minsk şəhərində imzalanmış Konvensiyasında da iştirak edir. Xatırlatmaq istərdim ki, Azərbaycan həmin konvensiyaya 1995-ci il sentyabrın 1-də qoşulmuşdur. Hazırda müzakirəyə təqdim olunan konvensiyaya dəyişikliklərin edilməsi haqqında protokol 2025-ci il iyunun 26-da imzalanmışdır. İştirakçı dövlətlərdə yetkinlik yaşına çatmayan uşaqlara görə alimentin tutulmasına dair məhkəmə əmrlərinin tanınmasının təşviq olunması məqsədinə xidmət edir. Hüquqi yardımın həcmini müəyyən edən Konvensiyanın 6-cı maddəsinə “yetkinlik yaşına çatmayan uşaqlara görə alimentin tutulmasına dair məhkəmə əmrləri” sözləri əlavə olunur. Həmçinin qərarların tanınmasında və icrasında imtinanı nəzərdə tutan konvensiyanın 55-ci maddəsinə yeni hüquqi əsas –

borcluya məhkəmə əmrinin, onun surətinin, məhkəmə əmrinin çıxarıldığı razılığa gələn tərəfin milli qanunvericiliyə uyğun olaraq, təqdim edilmədiyi və göndərilməməsi əlavə olunur.

Protokol konvensiyanın 83-cü maddəsinə əsasən iştirakçılar tərəfindən ratifikasiya olunmalıdır və 3 dövlət depozitariyə ratifikasiya fərmanları təqdim ediləndən sonra qüvvəyə minir.

Hörmətli deputatlar, "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Minsk Konvensiyasına dəyişikliklərin edilməsi barədə Protokolun təsdiq olunması haqqında qanun layihəsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Bu gün komitənin rəyini hörmətli Nigar xanım Məmmədova bildirəcək. Nigar xanım, buyurun.

**Nigar Məmmədova,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokolun təsdiq edilməsi haqqında qanun layihəsinin əsas məqsədi dövlətlər arasında hüquqi əməkdaşlığın gücləndirilməsidir. Vətəndaşların müxtəlif səbəblərdən fərqli ölkələrdə yaşadığını nəzərə alsaq, hüquqi məsələlərin beynəlxalq səviyyədə fiktiv həlli xüsusi əhəmiyyət kəsb edir.

Bu kontekstdə qeyd etmək lazımdır ki, qloballaşan dünyada hüquqi münasibətlərin milli sərhədlərlə məhdudlaşmaması dövlətlər arasında daha

sıx və koordinasiyalı əməkdaşlığı zəruri edir. Sözügedən protokol da məhz bu ehtiyaca cavab verən mühüm hüquqi mexanizmdir.

Qeyd etmək istərdim ki, təklif olunan dəyişikliklər uşaqların hüquqlarının qorunmasına yönəlib. Belə ki, aliment öhdəlikləri ilə bağlı məhkəmə qərarlarının digər dövlətlərdə tanınması və icrası sadələşdirilir. Bu isə o deməkdir ki, valideynlər müxtəlif ölkələrdə yaşasa belə, uşaqların maddi təminatı təmin olunacaq.

Bundan əlavə, qanun layihəsi məhkəmə qərarlarının və məhkəmə əmrlərinin tanınması və icrası prosedurlarını sadələşdirir. Bu da hüquqi prosesləri daha operativ və əlçatan edir. Bu sənəd yalnız regional deyil, daha geniş beynəlxalq əməkdaşlıq baxımından əhəmiyyətlidir və hüquqi yardım sahəsində müasir çağırışlara adekvat cavab kimi qiymətləndirilə bilər.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi adından qeyd etmək istərdim ki, sözügedən sənəd mühüm beynəlxalq əhəmiyyətə malikdir və dövlətlər arasında etimadı möhkəmləndirir, hüquqi yardımın səmərəliliyini artırır, vətəndaşların hüquqlarının beynəlxalq səviyyədə daha etibarlı qorunmasına xidmət edir.

Qanun layihəsini dəstəkləməyə çağırıram. Dərin təşəkkürümü bildirirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Biz müzakirəyə keçirik. Yazılanlar var. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Deputat həmkarlarım bu qanun layihəsi haqqında kifayət qədər əsaslı fikirlərini söylədilər. Onların fikirlərini tam dəstəkləyirəm. Şübhəsiz ki, biz bu qanun layihəsinə səs verəcəyik.

Azərbaycan hüquqi, demokratik dövlətdir. Azərbaycan bütün beynəlxalq öhdəliklərə həmişə əməl edibdir və cinayətkarlığa qarşı da daim mübarizə aparıbdır. Amma çox təəssüflər olsun ki, cinayətkarlığa qarşı mübarizədə bir çox ölkələr beynəlxalq hüquq normalarını yerinə yetirmirlər, əməkdaşlıq qaydalarını pozurlar. Buna parlaq misal da göstərmək olar ki, Azərbaycana, azərbaycanlılara qarşı soyqırımı törətmiş şəxslər, ağır cinayətlər törətmiş şəxslər bu gün Ermənistanda və digər dövlətlərdə gizlənirlər. Bəziləri heç gizlənmirlər, yenə də açıq anti-Azərbaycan fəaliyyəti ilə məşğuldurlar, yenə cinayət əməllərini davam etdirmək üçün çağırışlar edirlər. Azərbaycan hüquq mühafizə orqanlarında cinayət işlərinin istintaqı aparılmış, onların bir çoxu cinayət məsuliyyətinə cəlb edilmişdir. Hesab edirəm ki, bu konvensiyadan və bu öhdəliklərdən çıxış edərək Azərbaycan dövləti Ermənistana və digər dövlətlərə müraciət etməlidir və onların ədalət mühakiməsi qarşısında dayanması üçün lazımi tədbirlərin görülməsini tələb etməlidir.

Bu günədək bizim 5 minə qədər itkin düşmüş və girov götürülmüş azərbaycanlıların taleyi haqqında məlumat yoxdur. Azad edilmiş ərazilərimizdə Ermənistanın işğalı dövründə qətlə yetirilmiş insanların kütləvi məzarlıqları aşkar edilir. Məhkəmə tibbi ekspertizası nəticəsində onların şəxsiyyəti müəyyənləşdirilir və onlar 30 ildən sonra öz doğmalarına təhvil verilir, yüksək hörmətlə və ehtiramla dəfn edilirlər. Amma bu günə qədər də 3500 girov götürülmüş azərbaycanlı qadın və uşaqların taleyi haqqında Ermənistan heç bir məlumat vermir.

Eyni zamanda, mina qətliamı davam edir. 500-ə qədər dinc azərbaycanlı bu günədək Ermənistanın Azərbaycan ərazilərində basdırdığı minaların qurbanlarıdır. Ermənistan tərəfindən bu cinayəti törədən insanların məsuliyyətə cəlb edilməsi ilə bağlı heç bir addım atılmır. Amma

Azərbaycan humanist addımlarını atır və azərbaycanlıların qatili olan Vaqif Xaçaturyan kimi şəxsi, cinayətkarı humanist baxımdan azad edir. O isə Ermənistanda özü kimi cəllad olan digər şəxslə – Robert Köçəryanla qucaqlaşır, onun Ermənistanda keçiriləcək seçkilərdə qalib gəlməsini arzu edir, gələcək mübarizələrini davam etdirmək üçün ona söz verir. Hesab edirəm ki, bu qatillərin – Robert Köçəryan kimi, Serj Sarkisyan kimi, Seyran Ohanyan kimi cinayətkarların da haqqında aparılmış cinayət-istintaq materiallarını təqdim etməklə, onlar haqqında Ermənistanda və Azərbaycanda bu cinayət tədbirinin həyata keçirilməsi, bu konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı müraciətlər edilməlidir.

Hesab edirəm, bu qanun layihəsinin qəbul edilməsi ilə Azərbaycan ona nail olacaq ki, gələcəkdə bizim qədim İrəvan şəhərinin mərkəzində – bu günlərdə faşist məşəlləri ilə möhtəşəm "yürüş" keçirib, o meydanda Azərbaycan və türk bayraqlarını yandıranlara qarşı Ermənistan hökuməti də, beynəlxalq ictimaiyyət də öz qəti etirazlarını və səslərini yüksəldəcəklər. Çox təəssüf ki, bu işlər hər il davam edir, amma buna qiymət verənlər yoxdur.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Təqdim olunan qanun layihəsi uşaqların hüquqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 2002-ci il 7 oktyabr tarixli, həmçinin 1993-cü il 22 yanvar tarixli "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım haqqında Konvensiya və onun Protokolları" uşaq hüquqlarının və maraqlarının qorunmasında birbaşa effektiv mexanizmləri təmin edir.

Birincisi, MDB dövlətləri arasında uşaqlar üçün alimentin saxlanma xərclərinin bir ölkədən digər ölkəyə köçürülməsi və məcburi icra olunması prosedurlarını sadələşdirir.

İkincisi, valideynlərdən biri başqa dövlətdə yaşadıqda uşağın saxlanması, tərbiyəsi və valideynlərdən biri ilə ünsiyyət hüququnun təmin edilməsi məsələlərində dövlətlərin birgə hüquqi yardımını təmin edir.

Üçüncüsü, uşaqların qanunsuz olaraq xaricə aparılması və ya saxlanılması hallarında onların hüquqi statusunun müəyyən edilməsi və geri qaytarılması prosedurlarını tənzimləyir.

Dördüncüsü, uşaqlara qarşı cinayətlər və ya uşaqların törətdiyi cinayətlər üzrə proseslərdə dövlətlərarası məlumat mübadiləsini və hüquqi yardım göstərilməsini asanlaşdırır.

Xüsusi ilə 6-cı maddənin 1-ci abzasına edilən əlavə uşaqların maraqlarının maksimum dərəcədə nəzərə alınmasını və hüquqi yardımın sürətli icrasını hədəfləyir. Burada əsas məqsəd konvensiyanın iştirakçı dövlətlərində uşaqlara görə alimentin tutulmasına dair məhkəmə əmrlərinin tanınması və onların icrasıdır.

Olduqca vacib məsələdir. Bizə çoxlu müraciətlər olur. Biz görürük ki, belə vəziyyətlərdə uşaqlar  təkcə sosial  cəhətdən deyil, həm də mənəvi-psixoloji cəhətdən çətinlik çəkirlər. Valideynlər bütün hallarda uşaqların layiqli həyat yaşaması üçün öz vəzifə və öhdəliklərini yerinə yetirməlidirlər. Ona görə də mən bu qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, çox vacib qanun layihəsidir. Hesab edirəm ki, qarşılıqlı hüquqi

yardımın əldə olunması və dövlətlər arasında bu hüquqi yardımdan istifadə vacib olan elementlərdən biridir. Çünki insanların bir ölkədən başqa ölkəyə getməsi, orada işləməsi, fəaliyyət göstərməsi, yaşaması, ailə qurması və mülkiyyət əldə etməsi – bunların hər biri qanunlarla tənzimlənən sistemdir.

Nizami müəllim də, Nigar xanım da burada bu qanunların mahiyyəti ilə bağlı əhatəli şəkildə qeyd etdilər. Nizami müəllim ekstradisiya haqqında qeyd etdi. Bizim MDB dövlətlərinin müəyyən hissəsi ilə ekstradisiya ilə bağlı bizim qarşılıqlı müqavilələrimiz var. Mən hesab edirəm ki, Avropa dövlətlərində, xüsusi ilə Şərqi Avropa dövlətlərində bunun sayını artırmaq lazımdır. Bayaq qeyd olundu, Avropa dövlətlərinin dövlət başçıları Azərbaycana üz tutur, Azərbaycanda görüşlər keçirir, Azərbaycan Prezidentinin apardığı siyasəti dəstəklədiklərini bilavasitə açıq şəkildə bəyan edirlər. Mən hesab edirəm ki, orada imzalanan müqavilələrdə ekstradisiya haqqında da müxtəlif qanunların öz əksini tapması yerində olardı. Həm Şərqi Avropada, həm də Qərbi Avropada müəyyən cinayət törətmiş şəxslərin, oradan sığınacaq alan şəxslərin, bu gün dövlətimizin əleyhinə iş aparan şəxslərin, dövlətə, dövlət başçısına, onun ailə üzvlərinə, ümumiyyətlə, Azərbaycan Ordusuna, Azərbaycan milli mentalitetinə qarşı iş görən insanların qanun qarşısında, hüququn gücü qarşısında cavab vermələri və ekstradisiya olunaraq törətdiyi əməlin məsuliyyətinə cəlb olunmaları vacib olan elementlərdən biridir.

İkinci məsələ. Burada qeyd olundu ki, qarşılıqlı yardımla əlaqədar bir neçə MDB ölkələrində, xüsusi ilə Rusiyada azərbaycanlılara qarşı bəzi dairələr tərəfindən... Mən demirəm ki, bu, hökumətlərarasıdır, çünki hökumətlərarası gözəl münasibətlər var, qarşılıqlı anlaşma var. Amma Azərbaycanla bu münasibətlərin yaxşı olmasını istəməyən qüvvələr orada yaşayan azərbaycanlılara, yaxud da Rusiya vətəndaşı olub, milliyyətcə

azərbaycanlı olanlara qarşı müxtəlif bəhanələrlə bu və ya digər şəkildə təzyiqlər göstərirlər, onların mülkiyyətlərinə, işlərinə, ticarətlərinə müdaxilə edirlər. Təbii ki, bizim qəbul etdiyimiz bu qanunla o insanların öz dövlətindən, – bütün azərbaycanlıların bir vətəni var, o da Azərbaycan Respublikasıdır, – hər hansı hüquqi yardım almasına, doğrudan da, yardımçı olacaqdır.

Burada bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Alimentlə bağlı olan məsələlər. Ola bilsin ki, burada müəyyən məsələlərdə bir balaca anlaşılmazlıq olsun. Aliment verən tərəfin böyük əksəriyyəti, çox güman ki, Azərbaycan tərəfi olacaqdır. Çünki bizim həmvətənlərimiz Rusiyada, Ukraynada, Belarusiyada, Moldovada, açıq danışaq, nikaha giriblər, evləniblər və dünyaya uşaq gətiriblər. Bir neçə ildən sonra vətənə qayıdıblar. İndi məhkəmə qaydasında o uşaqların saxlanılması üçün aliment tələb olunanda vətəndaş bu alimenti verməlidir. Biz də fikirləşirik ki, gələcəkdə ölkəmizdə aliment fondu yaradaq. Belə olsa, aliment fondunun böyük əksəriyyəti onlara gedəcək. O baxımdan, mən hesab edirəm ki, burada hansısa bir forma düşünməliyik. Konvensiyaya qoşulmaqla biz insan hüquqlarına olan diqqətimizi göstəririk. Amma ölkəmizin vəsaitlərinin sərf olunmasına da nəzarət etməliyik.

Diqqətinizə görə sağ olun. Səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 3-cü məsələyə keçirik. “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol”un təsdiq edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Yenə də məsələyə dair məlumatı hörmətli Nizami Səfərov verəcək. Nizami müəllim, buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları, gündəliyimizin 3-cü məsələsi Mülki, ailə və cinayət işləri üzrə hüquq münasibətləri və hüquqi yardım haqqında 2002-ci il oktyabrın 7-də Kişinyov şəhərində Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasında imzalanan Konvensiyaya dəyişikliklərin edilməsi haqqında Protokolun təsdiq edilməsi haqqında qanun layihəsidir. Azərbaycan Respublikası qeyd olunan Konvensiyaya 2004-cü il yanvarın 13-də qoşulmuşdur.

Kişinyov Konvensiyasına təklif edilən dəyişikliklər Minsk Konvensiyasına təklif olunan dəyişikliklərlə eynilik təşkil edir. Fərq yalnız maddələrin sıralanmasına aiddir, hətta hər iki hüquqi sənəddə 6-cı maddəyə eyni dəyişiklik olunur. Yəni “yetkinlik yaşına çatmayan uşaqlara görə alimentin tutulmasına dair məhkəmə əmrləri” sözləri əlavə olunur.

Həmçinin qərarların tanınmasından və icrasından imtina nəzərdə tutulan müvafiq maddəyə məhkəmə əmri çıxarıldığı halda – “borcluya məhkəmə əmrinin (onun surətinin) həmin məhkəmə əmrinin çıxarıldığı

razılığa gələn tərəfin milli qanunvericiliyinə uyğun olaraq təqdim edilmədiyi və ya göndərilmədiyi hallarda” abzası əlavə olunur.

Hörmətli deputatlar, bir mühüm hüquqi məqamı da sizin nəzərinizə çatdırmaq istərdim. Kişinyov Konvensiyasının 120-ci maddəsinin 3-cü bəndinə görə, “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” 1993-cü il 22 yanvar tarixli Minsk Konvensiyası və ona əlavə edilmiş 1997-ci il 28 mart tarixli Protokol bu konvensiyanın, yəni Kişinyov Konvensiyasının iştirakçısı olan dövlətlərin arasında öz qüvvəsini itirir. Bu qaydada mühüm istisna 120-ci maddənin 4-cü bəndində nəzərdə tutulub və burada göstərilir ki, Minsk Konvensiyasının və ona əlavə edilmiş Protokolun Kişinyov Konvensiyasının iştirakçısı olan dövlətlər və onların iştirakçısı olan, barələrində bu konvensiya qüvvəyə minənədək dövlətlər arasındakı münasibətlərə tətbiqi davam edir.

Qeyd edilən müddəaları nəzərə alaraq, diqqətinizə çatdırmaq istərdim ki, Azərbaycan Respublikası Gürcüstan, Moldova və Türkmənistanla münasibətdə Minsk Konvensiyasını tətbiq etməkdə davam edəcək, Müstəqil Dövlətlər Birliyinin digər iştirakçıları olan Belarusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya Federasiyası, Tacikistan ilə Kişinyov Konvensiyası rəhbər tutulacaq.

Hörmətli deputatlar, “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” Kişinyov Konvensiyasına dəyişikliklərin edilməsi barədə Protokolun təsdiq olunması haqqında qanun layihəsinə səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Mən yenə də sözü Nigar xanım Məmmədovaya verirəm. Nigar xanım, buyurun, məlumat verin.

**Nigar Məmmədova.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol”un təsdiq edilməsi haqqında qanun layihəsi beynəlxalq hüquqi əməkdaşlığın inkişafının daha müasir mərhələsini əks etdirir və dövlətlər arasında qarşılıqlı fəaliyyət mexanizmlərinin daha da təkmilləşdirilməsinə xidmət edir. Qeyd etmək lazımdır ki, müasir beynəlxalq münasibətlər sistemində hüquqi əməkdaşlığın institusional əsaslarının gücləndirilməsi dövlətlər arasında etibarlı və davamlı tərəfdaşlığın formalaşmasının vacib şərtlərindən biridir. Bu qanunun qəbul edilməsi hüquqi məlumat mübadiləsinin effektivliyini artıracaq, məhkəmə qərarlarının tanınması və icrası prosedurlarını sadələşdirəcək, həmçinin səlahiyyətli orqanlar arasında daha koordinasiyalı əməkdaşlığı təmin edəcək.

Bu cür sənədlər vacib beynəlxalq əhəmiyyət daşıyır. Onlar dövlətlər arasında hüquqi əməkdaşlığın dərinləşməsinə, qarşılıqlı etimadın güclənməsinə və beynəlxalq hüquqi mexanizmlərin effektiv tətbiqinə xidmət edir. Bu baxımdan, təqdim olunan protokol beynəlxalq hüququn əsas prinsipləri – qarşılıqlı hörmət, əməkdaşlıq və öhdəliklərin vicdanla icrası prinsiplərinə uyğun olaraq, dövlətlərarası münasibətlərin daha da inkişafına töhfə verir. Bu protokolun həyata keçirilməsi Azərbaycanın beynəlxalq hüquqi məkana inteqrasiyasını daha da gücləndirir. Eyni zamanda, bu addım ölkəmizin beynəlxalq hüquqi təşəbbüslərdə fəal iştirakını və çoxtərəfli əməkdaşlığa verdiyi önəmi bir daha nümayiş etdirir.

Eyni zamanda, qeyd etmək vacibdir ki, bu sənədlər öncə müzakirə etdiyimiz qanun layihəsi və cari qanun layihəsi bir-birini təkrarlamır. Söhbət konvensiyanın 1993-cü və 2002-ci illərə aid müxtəlif redaksiyalarının ardıcıl şəkildə tətbiqindən gedir. Belə ki, bu, beynəlxalq öhdəkliklərin ardıcıl tətbiqidir. Çünki sözügedən sənədlər konvensiyanın 1993-cü və 2002-ci illərə aid müxtəlif redaksiyalarına aiddir və onun inkişaf mərhələlərini əks etdirir. Eyni zamanda, qeyd etmək vacibdir ki, bu sənədlər müxtəlif mərhələlərdə formalaşmış hüquqi yanaşmaları əks etdirir və dövlətlər onlara müxtəlif vaxtlarda, müxtəlif tərkibdə qoşulduqları üçün onların ratifikasiyası ayrı-ayrılıqda həyata keçirilir.

Qanun layihəsini dəstəkləməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nigar xanım.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Ancaq heç kim yazılmayıb. Ona görə də mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ “Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət

quruculuğu komitəsində baxılmışdır. Nizami müəllim, mən sözü yenə də Sizə verirəm. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları, Azərbaycan Respublikası tərəfindən 2025-ci il iyunun 26-da imzalanmış "Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim olunmuşdur.

Sazişin əsas məqsədi onun adında qeyd edilən subyektlərin aktlarının icrası zamanı insan hüquqlarının və əsas azadlıqlarının, dövlət və digər orqanların və təşkilatların qanuni mənafelərini təmin etmək üçün əməkdaşlığın dərinləşdirilməsindən, Müstəqil Dövlətlər Birliyi iştirakçılarının müvafiq aktların məcburi icrası üzrə funksiyaları yerinə yetirən subyektlərin qarşılıqlı fəaliyyətinin təmin olunmasından ibarətdir.

Saziş 25 maddəni əhatə edir və MBD iştirakçılarının ərazilərində məhkəmələrin qərarlarının sürətli və səmərəli formada icrasına yönəlmişdir. Sazişdə təsbit olunan hüquqi mexanizm borclunun başqa Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkənin ərazisində əmlakının olub-olmaması, iş yeri gəlirlərinin rəsmi mənbəyi, miqdarı, barəsində qərar icra edilməli olan şəxsin öhdəliklərinin mövcudluğu haqqında məlumatların erkən alınmasını təmin edərək dövlət orqanlarının təşkilati resurslarına qənaət olunmasına xidmət edir.

Nəzərə almaq lazımdır ki, hazırda insanların miqrasiya prosesləri sürətlə inkişaf edir, iqtisadi fəaliyyət əhəmiyyətli dərəcədə trans-sərhəd xarakteri daşıyır və mövcud şəraitdə səlahiyyətli orqanların qərarlarının icrası əhəmiyyətli dərəcədə mürəkkəb xarakter daşıyır.

Sazişə əsasən sorğunun müddəti 30 gün təşkil edir və sorğu edilən tərəfin suverenliyinə, təhlükəsizliyinə zərər vura biləcəyi halda və onun qanunvericiliyinə, yaxud beynəlxalq öhdəliklərinə ziddirsə, sorğudan imtina oluna bilər. Sazişdə, həmçinin sorğunun müəyyən şərtlərə riayət edilməklə icrası nəzərdə tutulur. Saziş ratifikasiya edilməlidir və üçüncü təsdiqetmə sənədi depozitariyə təqdim edildikdən 30 gün sonra saziş qüvvəyə minir.

Hörmətli deputatlar, “Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş”in təsdiq olunması barədə qanun layihəsinin qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. İndi mən sözü komitənin sədri hörmətli Səməd Seyidova verirəm. Səməd müəllim, buyurun, rəyi bu gün özünüz təqdim edəcəksiniz.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, komitəmizin rəyi müsbətdir. Xahiş edirəm, səsverməyə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun.

Müzakirəyə yazılanlar yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul olundu.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi 5-ci məsələyə keçirik. Bu məsələ Əmək Məcəlləsində və “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Musa müəllim Quliyevə söz verirəm. Musa müəllim, buyurun, üçüncü oxunuşda məlumat verin.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qanun layihəsi barədə birinci və ikinci oxunuşlar zamanı Məclisə ətraflı məlumat verilmişdir. Üçüncü oxunuşda komitəyə sual və təklif daxil olmamışdır. Layihənin mətnində dəyişiklik yoxdur. Üçüncü oxunuşda olduğu kimi səsə qoymağınızı və qəbul etməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun.

Qanun layihəsinə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılmışdır. Komitənin sədri hörmətli Hicran xanıma söz verirəm. Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Qanun layihəsi ilə bağlı komitəyə əlavə rəy və təklif daxil olmayıb. Cari il aprelin 28-də komitə iclasında üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım.

Sözü, sualı olan, görürəm, yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 6-cı məsələ "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, məlumat verin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, birinci və ikinci oxunuşlarda tərəfimdən geniş məlumat verilmişdir. Layihənin mahiyyəti ilə bağlı hər hansı bir təklif olmamışdır. Üçüncü oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 3 məsələ qalır və bu məsələlər birinci oxunuşda olan qanun layihələridir. Nəyə görə mən bunu vurğulayıram? Xahiş edirəm, çıxışlarda birinci oxunuşun tələblərinə riayət edəsiniz.

Biz indi gündəliyin 7-ci məsələsinə keçirik. Bu məsələ Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Hörmətli həmkarlar, onu da nəzərinizə çatdırım ki, məsələ ilə əlaqədar dəvət olunan şəxslər var. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri hörmətli Şahin müəllim Bağırov, sədr müavini hörmətli Natiq müəllim Şirinov, baş idarə rəisi hörmətli Rövşən müəllim Namazov və idarə rəisi hörmətli Tural müəllim Həsənli bizim iclasımızda iştirak edirlər. Mən bir daha qonaqlarımızı salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən indi komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, söz Sizindir.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, möhtərəm cənab Prezident tərəfindən Milli Məclisə daxil olmuş Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birinci oxunuş üçün təqdim olunur. Layihə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunmuş və plenar iclasa tövsiyə edilmişdir.

Təqdim olunan qanun layihəsi, sadəcə, normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı deyil. O, bütövlükdə, gömrük siyasətinin və tənzimlənməsinin keyfiyyətcə yeni mərhələyə keçidini əks etdirən, bunun üçün zəruri hüquqi reqlamentləri müəyyənləşdirən sistemli və konseptual sənəddir. Layihə mövcud məcəllənin ümumi əsaslarını qorumaqla yanaşı, onu beynəlxalq ticarət münasibətlərinin müasir tələblərinə uyğunlaşdırır və nəticə etibarı ilə gömrük sistemində yeni bir səhifə açır.

Bəs gömrük qanunvericiliyinin yenilənməsi zərurəti nə ilə bağlıdır? Hər şeydən əvvəl xüsusi vurğulamaq istərdim ki, gömrük sistemində nəzərdə tutulan köklü dəyişikliklər öz-özlüyündə bir məqsəd deyil. O, həyata keçirilən institusional islahatların tərkib hissəsi olmaqla, səmərəli iqtisadi idarəetmənin, müasir gömrük inzibatçılığının, dayanıqlı iqtisadi inkişafa və sosial rifaha nail olmanın mühüm vasitəsidir.

Xatırlatmaq istərdim ki, hələ ötən ilin dekabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Etibarlı tərəfdaş konsepsiyası" təsdiq edilmişdir. Bu konsepsiya gömrük-biznes əməkdaşlığı çərçivəsində idarəetmənin təkmilləşdirilməsini, xarici fəaliyyətdə beynəlxalq ticarət-təchizat zəncirinin yeni tələblərinin nəzərə alınmasını, ticarətin asanlaşdırılmasını və ən əsası, sahibkarlara dövlət dəstəyinin daha səmərəli təşkil edilməsini hədəfləyir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, "Etibarlı tərəfdaş konsepsiyası" çərçivəsində Dövlət Gömrük Komitəsi tərəfindən artıq köklü institusional dəyişikliklər həyata keçirilməkdədir. Təqdim olunan yeni layihə bu dəyişikliklər üçün müvafiq hüquqi baza yaradır.

Layihəni həm də son illərdə qlobal iqtisadi münasibətlərdə və ticarət sistemində baş verən ciddi transformasiyalar da şərtləndirir. Belə ki, hətta ticarət müharibələri və məhdudiyyətləri fonunda beynəlxalq ticarət

genişlənir və rəqəmsallaşır, təchizat zəncirləri daha mürəkkəb və həssas xarakter daşıyır, logistika və nəqliyyat infrastrukturu rəqabət qabiliyyətinin əsas faktorlarından birinə çevrilir.

Bu reallıqda gömrük orqanları artıq yalnız nəzarət qurumu deyil, əsasən, iqtisadi artımı dəstəkləyən, ticarəti asanlaşdıran, logistik sistemin səmərəli fəaliyyətini təşkil edən tənzimləyici təsisat kimi çıxış etməlidir. Yeni çağırışlar artıq daha çevik, daha rəqəmsal və daha inteqrasiya olunmuş gömrük tənzimlənməsini tələb edir. Gömrük qanunvericiliyi həm də beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak edən, aparıcı tranzit ölkəsinə və logistik mərkəzə çevrilməyi hədəfləyən Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyasını təmin etməlidir. Müzakirə üçün təqdim etdiyimiz layihənin hazırlanması zərurətini məhz bu kimi amillər şərtləndirmişdir.

Təklif edilən dəyişikliklərin əsas fəlsəfəsi gömrük prosedurlarının liberallaşdırılmasından ibarətdir. Bu, həm də biznes üçün daha əlverişli mühitin yaradılması deməkdir. Belə ki, elektron bəyannamə mexanizmlərinin genişlənməsi, sadələşdirilmiş prosedurların tətbiqi, gömrük təmsilçiliyi institutunun modernləşdirilməsi sahibkarın inzibati yükünü azaldır.

Hörmətli həmkarlar, konseptual olaraq bu layihə dövlətimiz tərəfindən həyata keçirilən institusional islahatları, şəffaflıq təşəbbüslərini, beynəlxalq logistika və tranzit sistemlərində iştirakla bağlı hədəflərimizi, rəqəmsallaşma strategiyasını tamamlayır.

Yeni gömrük tənzimlənməsi həm də iqtisadiyyatın şaxələndirilməsi siyasətini dəstəkləyir. Belə ki, sadələşdirilmiş prosedurlar ixracın stimullaşdırılmasına, qeyri-neft sektorunun inkişafına, yeni bazarlara çıxışın genişlənməsinə və nəticədə iqtisadi fəallığın artmasına şərait yaradır. Bir sözlə, təqdim etdiyimiz qanun layihəsini iqtisadi siyasətin,

beynəlxalq ticarət münasibətlərinin və milli inkişaf prioritetlərinin kəsişmə nöqtəsində formalaşan, iqtisadi strategiyanın və institusional islahatların məntiqi davamı olan mühüm sənəd kimi dəyərləndiririk.

Təqdim etdiyimiz layihə gömrük sistemində hansı yenilikləri nəzərdə tutur? Hər şeydən əvvəl, gömrük tənzimlənməsinin fəlsəfəsi və konsepsiyası dəyişir. Əvvəlki model daha çox sərhəddə nəzarətə əsaslanırdı. Yeni model isə ticarətin asanlaşdırılmasına hədəflənməklə effektiv idarəetmə, tənzimləmə və nəzarət arasında balansın yaradılmasına yönəlib. Bu modeldə nəzarət zəiflədilmir, əksinə, daha hədəfli aparılır. Risk əsaslı yanaşma, post-audit mexanizmləri və elektron məlumat mübadiləsi vasitəsi ilə sərhəddə fiziki yoxlamalar azalır və ləngimələr aradan qalxır. Eyni zamanda, qanunvericiliyə riayət daha effektiv təmin olunur. Bu isə müasir gömrük idarəçiliyinin əsas prinsipidir.

Həmçinin gömrük sistemi üzrə anlayışlar yenilənir, onun dairəsi genişləndirilir və beynəlxalq standartlara uyğunlaşdırılır. Gömrük terminologiyasının dəqiq və sistemli verilməsi hüquqi boşluqları aradan qaldırır, şərh müxtəlifliyini azaldır, tətbiqetməni vahidləşdirir, sahibkar üçün qaydaları daha anlaşılan edir.

Əsas yeniliklərdən biri gömrük təmsilçiliyi institutunun modernləşdirilməsidir. Klassik broker modelindən fərqli olaraq layihə birbaşa və dolayı gömrük təmsilçiliyi mexanizmlərini müəyyən edir. Bu, xidmət bazarında rəqabətin artmasına, sahibkarların seçim imkanlarının genişlənməsinə, xidmət keyfiyyətinin yüksəlməsinə, xərclərin azalmasına səbəb olacaqdır.

Elektron prosedurların genişləndirilməsi təşəbbüslərini gömrük sistemində mütərəqqi innovativ dəyişikliklər kimi dəyərləndiririk. Layihədə rəqəmsallaşma yalnız texniki məsələ kimi deyil, idarəetmə fəlsəfəsinin əsas

elementi kimi çıxış edir. Elektron sənəd dövriyyəsi, məlumat mübadiləsi və avtomatlaşdırılmış proseslər, xüsusi ilə də elektron bəyannamələrin tətbiqinin genişləndirilməsi gömrük rəsmiləşdirilməsi prosesini sürətləndirir, şəffaflığı artırır, insan faktorunu və korrupsiya risklərini azaldır, inzibati xərcləri minimuma endirir.

Təqdim edilən layihənin başlıca hədəflərindən biri logistika və tranzit imkanlarının genişləndirilməsidir. Bugünkü reallıqda Azərbaycanın coğrafi mövqeyi böyük strateji üstünlük yaradır. Lakin bu üstünlük yalnız infrastrukturla deyil, hüquqi və institusional mexanizmlərlə dəstəklənməlidir. Bu səbəbdən layihə tranzit prosedurlarını sadələşdirir, logistika zəncirinin fasiləsizliyini təmin edir, Ticarətin Asanlaşdırılması Mərkəzi kimi mexanizmlərlə xidmətlərin koordinasiyasını gücləndirir. Bu, xüsusi ilə Orta Dəhlizin inkişafı, Şimal–Qərb və Şimal–Cənub marşrutlarının effektiv fəaliyyəti üçün mühüm hüquqi baza yaradır və ölkəmizin tranzit potensialının artırılmasına xidmət edir. Eyni zamanda, səlahiyyətli iqtisadi operator institutunun rolu gücləndirilir. Etibarlı xarici ticarət iştirakçıları üçün sadələşdirilmiş prosedurların tətbiqi könüllü uyğunluq səviyyəsini artırır.

Hər hansı bir mütərəqqi modelin və ya konsepsiyanın uğurla reallaşdırılması effektiv idarəetmə sisteminin və təşkilati mexanizmin qurulmasını tələb edir. Bu səbəbdən də layihədə gömrük orqanlarının institusional strukturu daha aydın müəyyən edilir. Aparat, struktur bölmələri və tabeli qurumların statusu daha dəqiq göstərilir ki, bu da gömrük idarəçiliyində hüquqi müəyyənliyi artırır.

Sahibkarların hüquqları üzrə təminatların konkretləşdirilməsini layihənin əsas cəhətlərindən biri kimi qeyd etmək istərdim. Belə ki, audit prosedurları dəqiqləşdirilir, müddətlər konkret müəyyən olunur.

Gömrük borclarının icrası mexanizmlərinin gücləndirilməsi fiskal intizamı artırmaqla yanaşı, dövlət büdcəsi qarşısında öhdəliklərin yerinə yetirilməsinə xidmət edir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, Gömrük Məcəlləsinə təklif edilən dəyişikliklərin gömrük sisteminin modernləşməsinə şərait yaratdığını, mövcud prosedurları sadələşdirdiyini, biznes mühitini yaxşılaşdırdığını, ölkəmizin tranzit potensialını və qlobal ticarət sistemində mövqelərini möhkəmləndirdiyini nəzərə alaraq, layihənin birinci oxunuşda müzakirəsini və qəbul edilməsini məqsədəuyğun hesab edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim, ətraflı  məlumat verdiniz.

Hörmətli həmkarlar, biz indi müzakirəyə keçirik. Yazılanlara söz verəcəyəm. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri və qonaqlar. Gömrük Məcəlləsinə təklif edilən çoxsaylı dəyişikliklər ölkəmizin iqtisadi inkişafı, biznes mühitinin şəffaflığı və beynəlxalq ticarət sisteminə inteqrasiyası baxımından vacib əhəmiyyət daşıyır.

Dövlət büdcəsinin formalaşmasında vacib paya malik olan gömrük sisteminin rolu son illər  önəmli səviyyəyə çatıb. Müqayisəli yanaşsaq, cəmi 5 il əvvəl dövlət büdcəsinə gömrük daxilolmaları 3-3,5 milyard manat civarında olduğu halda, hazırda göstərici 6-7 milyard manata yaxınlaşıb.

Regional kontekstdə baxsaq, Ermənistanda illik gömrük daxilolmaları xeyli aşağıdır, yəni 1-1,2 milyard ABŞ dolları, Gürcüstanda isə 2,5-3 milyard ABŞ dolları səviyyəsindədir. Eyni zamanda, Azərbaycanın xarici ticarət coğrafiyası da genişlənib. Əgər bir neçə il əvvəl aktiv ticarət tərəfdaşlarımızın sayı 120 ölkə miyqasında idisə, hazırda göstərici 150-dən artıqdır. İxrac istiqamətlərinin sayı da 100-dən çoxdur. Rəqəmlər göstərir

ki, ölkəmizin beynəlxalq ticarətdə mövqeyi güclənib və gömrük orqanları prosesin əsas dayaqlarından biri olub.

Digər tərəfdən, hazırkı mürəkkəb qlobal şərait gömrük siyasətində daha çevik və tənzimləyici yanaşmanı zəruri edir. Xüsusi ilə İranla savaşın transmilli logistik kompaniyaları və təchizat zəncirlərini əhatə etməsi, Rusiya–Ukrayna müharibəsinin alternativ ticarət yollarına ehtiyacı artırması gömrük orqanlarının fəaliyyətini yalnız nəzarət funksiyası ilə məhdudlaşdırmır, iqtisadi qərarlar, tarif siyasəti ilə çevik tənzimləmə aləti kimi yanaşmağı tələb edir.

Nəhayət, regionda yeni iqtisadi imkanlar formalaşır. Azərbaycan hazırda kommunikasiya xətlərinin açılması və Ermənistanla ticarət məhdudiyyətlərinin aradan qaldırılması ərəfəsindədir. Ağbənd keçid məntəqəsi gələcəkdə mühüm ticarət qovşaqlarından birinə çevriləcək. Yaxın gələcəkdə ölkəmizin milli məhsulları İrəvanda xüsusi mövqe qazanacaq. Belə şəraitdə gömrük siyasəti sülh müqaviləsini yaxından izləyən iqtisadi sinir sisteminə çevrilə bilər.

Məcəllədə dəyişikliklərin mahiyyətinə gəldikdə isə, ilk olaraq, institusional və inzibati islahatlar qrupunda qərarvermə mexanizmləri sadələşdirilir, məsuliyyət bölgüsü və elektron idarəetmə alətləri artırılır. Nəticədə, həm vətəndaşların, həm də sahibkarların gömrük orqanları ilə təmasında vaxt itkisi azalır, subyektiv yanaşma riskləri minimuma enir.

İkinci mühüm istiqamət ticarətin asanlaşması və biznes mühitinin yaxşılaşmasıdır. Gömrük prosedurlarının sadələşməsi, bəzi sənədləşmə tələblərinin azalması və yalnız risk əsaslı yoxlamaların tətbiqi sahibkarlar üçün daha əlverişli şərait yaradır.

Dəyişikliklər, xüsusi ilə kiçik və orta biznes subyektləri üçün əhəmiyyətlidir. Çünki onların resursları məhduddur və uzunmüddətli

bürokratik prosedurlar fəaliyyətlərinə ciddi maneə yaradır. Yeni yanaşma isə daha çox etimadı və nəzarəti balanslı tətbiq edir.

Üçüncü qrup dəyişikliklər rəqəmsallaşma və elektron xidmətlərlə bağlıdır. Layihədə "səlahiyyətli iqtisadi operator", "qısa idxal bəyannaməsi", "qısa ixrac bəyannaməsi", "ekspres daşınma", "təkrar ixrac bildirişi" kimi anlayışlar sürətli logistika, elektron ticarət və qlobal təchizat dilinə uyğunlaşdırılır.

Malların gömrük ərazisinə gətirilməsi və təqdim edilməsi qaydalarına dair yeni redaksiyaya əsasən mallar gömrük ərazisinə daxil olduqdan dərhal sonra məsul şəxslər tərəfindən gömrük orqanlarına məlumat verilməsi tələb olunur. Bundan əlavə, malların qısa müddət ərzində – 1 saatdan gec olmayaraq, gömrük orqanlarına təqdim edilməsi öhdəliyi qoyulur. Bu da, təbii ki, operativliyə təsir edəcək.

Hörmətli sədr, 5 dəqiqəlik reqlamentdir? Üzr istəyirəm...

**Sədrlik edən.** Bəli.

**Zahid Oruc.** Onda icazə verin, mən sürətləndirim.

Bəyannamələrin təqdim olunma müddətinin 15 iş günü keçməməsi istənilir.

Qanun layihəsində maliyyə və ödəniş mexanizmləri təkmilləşdirilir, ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi maliyyə şəffaflığını artırır, kölgə iqtisadiyyatının qarşısını alır.

Yekunda xüsusi vurğulayaq, sənəd üzərində ideal görünən hər bir normanın real həyatda gözlənilən effekti verməsi üçün daim sahibkarlar, xaricə gedən-gələn vətəndaşlar və digər gömrük subyektlərinin rəyinin öyrənilməsi və nəzərə alınması vacibdir.

İkincisi, maarifləndirmə işi. Vətəndaşların yeni qaydalar barədə dolğun məlumat əldə etməsi vacibdir. Əks halda, ən yaxşı islahat belə anlaşılmazlıq səbəbindən effekt verməyə bilər.

Üçüncüsü, institusional potensialın gücləndirilməsidir. Yəni rəqəmsallaşma və yeni idarəetmə yalnız o zaman uğurlu olur ki, onları tətbiq edən kadrlar dəyişikliklərə hazır olsunlar. Təlimlərə, peşəkar inkişafa çox ehtiyac var.

Bir daha məcəlləyə təklif olunan dəyişiklikləri iqtisadi inkişafımıza xidmət etdiyinə görə müdafiə edirik. Səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, biz iclasın əvvəlində 5 dəqiqə ilə başladıq. Ona görə də xahiş edirəm, bunu yadda saxlayın.

Rövşən Muradov. Buyurun.

**Rövşən Muradov.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputatlar, media nümayəndələri və iclas iştirakçıları. Plenar iclasda müzakirəyə çıxarılan Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsi ölkəmizin gömrük sisteminin yeni çağırışlara uyğunlaşdırılması məqsədi ilə hazırlanmışdır. Qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm.

Hörmətli deputatlar, indi isə birinci oxunuşun tələblərinə uyğun olaraq, konseptual baxımdan layihədə əks olunan bəzi dəyişikliklərin mahiyyəti barədə mülahizələrimi diqqətinizə çatdırmaq istəyirəm.

Əvvəla, gömrük qanunvericiliyi anlayışlarının beynəlxalq standartlara uyğunlaşdırılmasına dair olan dəyişiklik beynəlxalq təcrübə və layihələr çərçivəsində formalaşmış təkliflərin gömrük qanunvericiliyinə implementasiyasını, gömrük prosedurlarının hüquqi terminologiyasını

beynəlxalq praktikaya uyğunlaşdırmağı və normativ tənzimləmənin tətbiq olunması imkanlarının artırılması məqsədini daşıyır.

İkinci. Gömrük prosedurları dairəsinin dəqiqləşdirilməsi və əməliyyatlarının daha aydın tənzimlənməsi, idarəetmə sisteminin optimallaşdırılması və gömrük rəsmiləşdirilməsi üzrə güzəşt və sadələşdirmə tədbirləri ilə bağlı dəyişiklik isə, fikrimcə, gömrük nəzarətinin və rəsmiləşdirilməsinin sadə və güzəştli tətbiqini, risk idarəetmə sistemi əsasında gömrük nəzarəti formalarının təkmilləşdirilməsini, gələcəkdə logistika və beynəlxalq ticarətdə istifadə olunan müasir mexanizmlərin hüquqi əsasının formalaşdırılmasına və idarəetmə mexanizmlərinin daha səmərəli təşkilinə xidmət edəcəkdir.

Üçüncü. Gömrük təmsilçiliyi institutunun yenidən qurulması, inzibati prosedurların sadələşdirilməsi, inzibati icraat proseslərinin təşviqi və səlahiyyətli iqtisadi operator institutunun yenilənməsi kimi layihədə əks olunan dəyişiklik isə lisenziyalaşdırmanın və inzibati yükün azaldılmasını**,** gömrük xidmətləri bazarında rəqabətin genişlənməsini və prosedurların sadələşdirilməsini, eyni zamanda, inzibati proseslərin legitimliyinin təmin olunmasını və biznes subyektləri ilə, həm də səlahiyyətli iqtisadi operatorlarla tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün daha əlverişli hüquqi mühitin yaradılmasını nəzərdə tutur.

Dördüncü. Ticarətin asanlaşdırılması, rəqəmsallaşmanın genişləndirilməsi, gömrük nəzarəti və audit, tranzit və beynəlxalq daşımalar üzrə nəzarət mexanizmlərini dəqiqləşdirməklə təkmilləşdirilməsi, gömrük informasiya sistemləri və məlumatların qorunmasının tənzimlənməsi məsələləri ilə bağlı dəyişiklik isə Ticarətin Asanlaşdırılması mərkəzləri konsepsiyasının tətbiqini, xarici ticarət və logistik əməliyyatların sürətləndirilməsini, rəqəmsal və elektron gömrük mexanizmlərinin

genişləndirilməsini, həmçinin beynəlxalq nəqliyyat və tranzit əməliyyatlarının, habelə logistika zəncirinin daha təhlükəsiz və effektiv təşkilini nəzərdə tutmaqla yanaşı, həm də gömrük informasiya sistemlərinin fəaliyyətinin hüquqi əsaslarını gücləndirməyə, məlumat təhlükəsizliyini təmin etməyə və rəqəmsal gömrük xidmətlərinin inkişafını dəstəkləməyə yönəlmişdir.

Beləliklə, Gömrük Məcəlləsinə təklif olunan bu dəyişikliklər gələcəkdə gömrük tənzimlənməsinin daha çevik, şəffaf və biznes yönümlü modelə keçirilməsinə**,** xarici ticarət əməliyyatlarının daha operativ və səmərəli təşkilinə hüquqi zəmin yaratmaqla bərabər, eyni zamanda, məmur–sahibkar–vətəndaş münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsinə, ölkənin iqtisadi, milli təhlükəsizliyinin möhkəmləndirilməsinə və sosial-iqtisadi inkişafında gömrük sisteminin rolunun artırılmasına mühüm töhfə verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media mənsubları. Müzakirəyə təqdim olunan qanun layihəsi ölkəmizin gömrük sisteminin modernləşdirilməsi, beynəlxalq ticarət proseslərinə daha effektiv inteqrasiya və dövlət nəzarət mexanizmlərinin təkmilləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Layihədə mütərəqqi yanaşmalar olsa da, bir sıra müddəaların dəqiqləşdirilməsinə və balanslaşdırılmasına ehtiyac var.

İlk növbədə, qeyd etmək lazımdır ki, layihədə gömrük anlayışlarının yenidən işlənməsi və sistemləşdirilməsi müsbət haldır. Anlayışların

genişləndirilməsi hüquqi müəyyənlik baxımından da əhəmiyyətlidir və tətbiq zamanı subyektiv qiymətləndirmə risklərini azaldır. Bununla yanaşı, sadəcə, bir terminin Azərbaycan dilinin normalarına və beynəlxalq terminologiyaya uyğunlaşdırılmasının zəruri olduğunu düşünürəm. Məsələn, “adi işləmə formaları” anlayışının izahında qeyd olunur ki, adi işləmə formaları malların qablaşdırılması, markalanması, habelə xarici görünüşünün və keyfiyyətinin yaxşılaşdırılması, satış və daşınma üçün hazırlanması məqsədi ilə onların yenidən qablaşdırılması, qablaşdırma yerlərinin qruplaşdırılması və çeşidlənməsidir. İzahdan da göründüyü kimi, Azərbaycan dilinə uyğun olaraq, nəzərdə tutulan proses sadə, yəni adi emal əməliyyatlarıdır və bu, həm də beynəlxalq terminologiyada faktiki olaraq oxşar izahla yer almaqdadır. Düşünürəm ki, əgər bu məqama diqqət yetirilərsə, yaxşı olar.

Layihənin mühüm istiqamətlərindən biri də gömrük auditinin institusional çərçivəsinin genişləndirilməsidir. Kameral və səyyar audit mexanizmlərinin ayrılması, müddətlərin konkret müəyyən edilməsi və audit prosesinin mərhələli tətbiqinə imkan yaradılması müsbət addım kimi qiymətləndirilməlidir. Bu yanaşma sahibkarlar üçün daha proqnozlaşdırıla bilən mühit yaradır. Eyni zamanda, düşünürəm ki, səyyar gömrük auditinə verilən geniş səlahiyyətlər müəyyən risklər doğura bilər. Xüsusi ilə də audit müddətinin uzadılması imkanları, təkrar yoxlamaların aparılması və sahibkarın fəaliyyət məkanına daxilolma prosedurlarının geniş çərçivədə tənzimlənməsi inzibati müdaxilənin arta biləcəyi ehtimalını yaradır. Bu baxımdan, yaxşı olar ki, səyyar auditin aparılması üçün əsaslı şübhə meyarları normativ qaydada konkretləşdirilsin, auditlərin ümumi sayı və müddəti üzrə əlavə məhdudiyyətlər müəyyən edilsin. Eyni zamanda, audit

prosesində video qeydiyyatın aparılmasının və bunun norma kimi müəyyənləşdirilməsinin zəruri olduğu qənaətindəyəm.

Müsbət yeniliklər sırasında gömrük təmsilçiliyi institutunun yenidən qurulması da qeyd olunmalıdır. Burada bu barədə də danışıldı. Eyni zamanda, dolayı və birbaşa təmsilçilik modellərinin tətbiqi də beynəlxalq təcrübəyə uyğundur. Lakin bu sahədə tam liberallaşma keyfiyyətcə nəzarətin zəifləməsinə də səbəb ola bilər. Buna görə də gələcəkdə qanunvericilik çərçivəsində olmasa da, Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalarla dolayı gömrük təmsilçiləri üçün minimum peşə hazırlığı, məsuliyyət sığortası və etik standartların müəyyən edilməsi vacibdir.

Bütövlükdə, layihə gömrük sisteminin rəqəmsallaşdırılması prosedurlarının sadələşdirilməsi, nəzarət mexanizmlərinin gücləndirilməsi istiqamətində mühüm addım ola bilər. Lakin qənaətimə görə, burada əsas hədəf asanlaşdırma və nəzarət arasındakı balansın qorunması olmalıdır. Layihəni konseptual olaraq dəstəkləyirəm, səs verirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, əslində, fasilə olmalıdır. Əgər etirazınız yoxdursa, fasiləsiz işləyək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Növbəti çıxış edən Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Müzakirə etdiyimiz bu qanun layihəsi mahiyyət etibarı ilə gömrük sisteminin daha müasir, daha çevik və daha rəqəmsal əsaslarla işləməsinə yönəlib. Prinsip etibarı ilə müsbət istiqamətdir, xüsusi ilə elektron bəyanetmə, bir pəncərə prinsipi, səyyar gömrük auditi kimi

yanaşmalar müasir ticarətin tələblərinə cavab verir və şəffaflığı artırmaq potensialına malikdir. Eyni zamanda, anlayışların yenilənməsi və beynəlxalq terminologiyaya uyğunlaşdırılması da ölkəmizin qlobal ticarət sisteminə intreqrasiyası baxımından vacib addımdır.

İndi isə gəlin, məsələyə bir az da real həyat prizmasından yanaşaq. Problem ondadır ki, biz çox vaxt qanunları müasirləşdiririk, amma praktik mexanizmlər eyni qalır. Bu layihədə də risk budur. Kağız üzərində sadələşdirmə var, amma sahibkarın gündəlik təcrübəsində prosedurlar, həqiqətən, sadələşəcəkmi? Elektron sistemlər sürəti artıracaqmı, yoxsa yeni texniki və inzibati baryerlər yaradacaq?

Təəssüflər olsun ki, optimist deyiləm, heç buna yaxın da deyiləm. Məsələn, səyyar gömrük audit institutu nəzərdə tutulur. Bu, prinsipcə yaxşı alətdir. Amma aydın mexanizmlər olmasa, bu alət çevik nəzarət deyil, əlavə təzyiq vasitəsinə də çevrilə bilər. Sahibkar üçün əsas sual budur: Bu audit şəffaf və proqnozlaşdırılan olacaq, yoxsa subyektiv qərarlara açıq qala bilər?

Digər mühüm məsələ isə rəqəmsallaşma və insan faktoru arasındakı balansdır. Elektron sistemlərin tətbiqi müsbətdir, amma əgər qərarvermə yenə də insan faktorundan asılı qalırsa, sadəcə, kağızı ekrana köçürmüş oluruq, problemi həll etmirik.

Çox vacib məqam. Bu dəyişikliklər biznes mühitinə necə təsir edəcək? Qanun layihəsində ticarətin asanlaşdırılması məqsədi qeyd olunur, amma reallıqda sahibkar üçün əsas olan sürət, aydınlıq və proqnozlaşdırıla bilən yanaşmadır. Əgər qaydalar tez-tez dəyişirsə, izahı çətindirsə və tətbiqi qeyri-bərabərdirsə, bu, artıq risk yaradır və investoru çəkindirir. Mən hesab edirəm ki, bu qanun layihəsini dəstəkləməklə yanaşı, 3 prinsip üzərində xüsusi dayanmalıyıq.

1. Hər bir yeni mexanizmin konkret tətbiq qaydası və məsuliyyət çərçivəsi aydın olmalıdır.

2. Rəqəmsallaşma real sadələşdirməyə gətirməlidir, formal dəyişikliklərlə kifayətlənməməlidir.

3. Sahibkarın hüquqları və müdafiə mexanizmləri paralel şəkildə gücləndirilməlidir.

Sonda məsələ çox sadədir. Gömrük sistemi dövlət üçün nəzarət aləti olmaqla yanaşı, iqtisadiyyat üçün də dəstək mexanizmdir. Əgər bu balansı qoruya bilsək, bu dəyişikliklər real nəticə verəcək. Əks halda isə biz yenə də yaxşı yazılmış, amma zəif və subyektiv tətbiq olunan qanunla üz-üzə qalacağıq.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun, Razi müəllim. Siz, doğrudan da, heç optimist deyilsiniz, onu gördük. Eyni zamanda, deyirsiniz, sahibkarlar şübhə edəcəklər ki, obyektivdir, ya da subyektivdir. Nəyə görə onlar apriori gərək subyektiv fikirləşsinlər ki, bu, subyektiv olacaq? Nə üçün? Bu Sizin öz fikrinizdir və fikrinizə də hörmətlə yanaşırıq.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, mən isə çox optimistəm və düşünürəm ki, elə qəbul edəcəyimiz qanun layihəsində də hörmətli millət vəkilimizi narahat edən məsələlərin böyük bir qismi öz əksini tapıbdır.

Gömrük elə bir sahədir ki, hər bir vətəndaşın, hər bir hüquqi şəxsin, yaxud digər hüquqi subyektlərin münasibətdə olduğu və mütləq bir şəkildə təmas qurduğu bir sahədir. Ona görə də son illərdə gömrük sahəsində aparılan islahatlar, tətbiq olan yeniliklər, gömrük fəaliyyətinin səmərəli təşkil olunması hər birimizi sevindirir. Hələ, üstəlik, bəzi hallarda gömrük qanunvericiliyini pozmuş olan ayrı-ayrı məmurların cəzalandırılmasını da

buna qatsaq, görəcəyik ki, bu, daim Azərbaycan dövlətinin diqqət mərkəzində olan bir məsələdir.

Eyni zamanda, gömrük çox strateji bir sahədir, iqtisadi təhlükəsizliyimizi təmin edir, büdcə gəlirlərimizi müəyyənləşdirir, xarici siyasəti təmin edir, qaçaqmalçılığa qarşı mübarizə aparır. Yəni çox genişşaxəli bir fəaliyyətlə məşğuldur. Ona görə mən düşünürəm, elə son illərdə gömrük sahəsində aparılan islahatlar nəticəsində tətbiq olunan yeniliklərə diqqət etsək, görəcəyik ki, burda elektron bəyannamələrin tətbiqi tamamilə yeni bir keyfiyyət mərhələsi yaratdı.

Yaşıl dəhlizin yaradılması gömrükdə xüsusi bir haldır və mən düşünürəm ki, bütövlükdə, gömrük sisteminin əldə etdiyi nailiyyətlərdən biridir. Bu da təqdir olunmalı, mühüm bir hadisədir.

Bizə təqdim olunan qanun layihəsi "Gömrük Məcəlləsinə dəyişikliklər" adlandırılıb. Ancaq mənə elə gəlir ki, bu, yeni bir qanun qədər tamamilə əhəmiyyətlidir. Burada çox mühüm müddəalar nəzərə çarpır. Mən təklif olunan dəyişiklikləri çox diqqətlə oxudum. Bəlli oldu ki, bu təkmilləşdirmə, bu dəyişikliklər təklif olunarkən, ilk növbədə, gömrük–vətəndaş və gömrük–hüquqi subyekt münasibətlərinin xarakteri öyrənilibdir, harada dəyişiklik etmək zərurəti analiz edilibdir və müasir texnologiyaların imkan verdiyi hansı səmərəli metodları tətbiq etməyin mümkünlüyü də bugünkü texnoloji münasibətlərimiz kontekstində öyrənilibdir. Ona görə mən düşünürəm ki, qəbul edəcəyimiz qanun bəri başdan funksional olacaqdır. Yəni vətəndaşlarımızın, biznes adamlarının gözləntisini yerinə gətirə biləcək keyfiyyətdə olan bir qanun olacaqdır. Ona görə də mən bu qanun layihəsinə səs verəcəyəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Əli Hüseynli. Buyurun, Əli müəllim.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Hörmətli Azər müəllim Gömrük Məcəlləsinə təqdim edilən, həqiqətən də, fundamental dəyişikliklərin mahiyyəti haqqında çox yaxşı bir təqdimat etdi. Biz təxminən 1 il bundan əvvəl Gömrük Komitəsinin yeni inzibati binasının açılışı zamanı cənab Prezidentin söylədiyi fikirləri dinlədik. Onun qarşıya qoyduğu vəzifələrin tətbiqi ilə bağlı qanunvericilik dəyişikliklərini bu gün qəbul edirik. Yəni faktiki olaraq 1 il ərzində görülən praktiki işlərin daha da gücləndirilməsi məqsədi ilə belə bir qanun layihəsi təqdim olunub. Məqsəd beynəlxalq ticarətin asan və sürətli həyata keçirilməsidir. Bunun səbəbləri barədə təqdimatda da deyildi. Bu, ilk növbədə, Azərbaycanın regionda artan rolu ilə, ölkəmizin tranzit ölkə kimi əhəmiyyəti ilə və dövlət başçısının siyasi iradəsinin gömrük orqanları tərəfindən necə peşəkarcasına həyata keçirilməsi ilə bağlıdır.

Hörmətli sədr, mənim çıxış etməkdə niyyətim məcəlləyə təklif olunan dəyişiklikərin bir neçə hüquqi aspektini xüsusi vurğulamaqdır. Gömrük Məcəlləsi uzun illər bundan əvvəl qəbul edilib. Sonra zaman-zaman dəyişikliklər də etmişdik. Amma “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanunu və onun tələbləri bir daha buna baxmağa bizi vadar edib. Bu baxımdan, hesab edirəm ki, təklif olunan əlavə və dəyişikliklərin çox mühüm bir hissəsi bir sıra digər qanunlarla uyğunlaşdırma xarakterlidir. Amma eyni zamanda, Gömrük Məcəlləsinin də “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə uğunlaşdırılmasıdır ki, biz bunu çox yüksək qiymətləndiririk.

İkinci aspekt “İnzibati icraat haqqında” Qanunun tələbləri ilə bağlıdır. Mən düşünürəm ki, hörmətli həmkarlarım da, Razi müəllim də narahat qalmamalıdır. Çünki səyyar gömrük auditinin nəticələri haqqında aktlar və

müvafiq qərar barədə 3 iş günü ərzində gömrük auditini aparan şəxsə məlumatın təqdim edilməsi öhdəliyi qoyulur. Bu vəzifənin müəyyən olunması gömrük orqanlarının inzibati icraat çərçivəsində hərəkətlərinin qanuni və əsaslı aparılmasında məsuliyyətini artırır. Yəni əslində, bu layihənin məqsədi gömrük orqanı əməkdaşının məsuliyyətini artırmaqdır, sahibkara daha çox şərait yaratmaqdır, şəxslərin həmin hərəkətlərə qarşı mümkün hüquqi müdafiə vasitələrindən istifadə etməsinin imkanını artırmaqdır.

Bütövlükdə, gömrük orqanlarının fəaliyyətinin və görülən tədbirlərin nəticəsi akt formasındadır. Çünki indiyə qədər protokol idi. "İnzibati icraat haqqında" Qanunumuz tələb edir. Yeni layihə akt formasında təsbit olunmasını və bu barədə şəxsə məlumatın təqdim edilməsini təmin edir. Bu o deməkdir ki, bu cür aktlar sahibkar tərəfindən, fiziki şəxs tərəfindən həm yuxarı orqanla, həm də məhkəmədə mübahisələndirilə bilər. Yəni hesab edirəm ki, faktiki olaraq Gömrük Məcəlləsinin "İnzibati icraat haqqında" Qanunun tələbləri ilə uyğunlaşdırılması sahibkar–dövlət hakimiyyəti orqanı nümayəndəsi arasında çox müasir münasibətlərə gətirib çıxaracaqdır.

Nəhayət, vacib aspektlərdən biri də bizim Vergi Məcəlləsində olan bir sıra müddəalarla analogiyanın aparılmasıdır. Bu, ilk növbədə, ticarət iştirakçısı olan fiziki və hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət hüququnun verilməsidir. Bu, çox vacibdir, bu, Vergi Məcəlləsində var və Gömrük Məcəlləsində də olması vacibdir ki, məhz gömrük borcu ödənildikdən sonra ölkəni tərk etmək olar.

Bütövlükdə, hesab edirik ki, Gömrük Məcəlləsinə təklif olunan əlavə və dəyişikliklər "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa

uyğundur, mahiyyəti isə gömrük münasibətlərinin ən müasir standartlara uyğun təşkilindən gəlir. Layihəni dəstəkləyəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Azər müəllim çıxış etmək istəyir. Buyurun.

**Azər Əmiraslanov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Çıxış etməkdə məqsəd hörmətli həmkarlarımıza təşəkkür etməkdir. Onlar təqdim olunmuş qanun layihəsini qiymətləndirdilər, onun mahiyyətini dəyərləndirdilər. Bəzi qeydlər də oldu. Sadəcə, qısa olaraq münasibət bildirmək istərdim. Bəli, istər Vergi Məcəlləsinə, istərsə də Gömrük Məcəlləsinə biz mütəmadi olaraq dəyişikliklər edirik. Amma nəzərə alınmalıdır ki, bu dəyişikliklər mütərəqqi, yəni proqressiv xarakter daşıyır. Biznes mühiti daha da yaxşılaşır, şərtlər daha münbit məcrada qəbul edilir. Yəni bu baxımdan, bu dəyişikliklər heç kimi narahat etməməlidir.

Əgər biznes mühitinə ümumi təsirdən söhbət gedirsə, biz nəzərə almalıyıq ki, qanunvericilik təşəbbüsü subyekti tərəfindən Milli Məclisə ünvanlanan bütün qanunvericilik aktları layihələrinin hər birində sahibkarlıq dəstəklənir, biznes mühiti üçün daha yaxşı şəraitin yaradılması bir prinsip kimi müəyyən olunur, şəffaflıq əsas hədəflərdən biridir, institusional islahatlar dəstəklənir. Bu baxımdan, bizim həmkarlarımız da buna görə narahat olmasınlar. Biz hesab edirik ki, təqdim edilmiş bu layihə həm də ölkəmizin yeni bir mərhələyə hazırlığı üçün hüquqi baza yaradır. Çünki Azərbaycan beynəlxalq tranzit sistemində, beynəlxalq ticarət sistemində iştirak üçün indiyə kimi çox böyük işlər görüb, infrastruktur yaradılıb və bu gün qəbul etdiyimiz məcəllə, dəyişikliklər bunun üçün hüquqi baza yaratmış olur.

Hörmətli xanım sədr, bu gün Azərbaycan dünya ticarət sisteminə inteqrasiya səviyyəsinə görə dünyada çox öncül yerlərdən birini tutur. Bəli,

deyilə bilər ki, iri dövlətlər var, xarici ticarət dövriyyəsi trilyonlarla, milyardlarla ölçülür. Amma bunun əsas meyarı xarici ticarət dövriyyəsinin ümumi daxili məhsulda payı ilə müəyyənləşir. Azərbaycanda bu göstərici 65 faizə gəlib çıxır. Əgər biz bəzi ölkələri müqayisə etsək, Qazaxıstanda bu, 47 faiz, Türkiyədə 38 faiz, Rusiyada 25 faizdir. Bu onu göstərir ki, ölkəmiz dünya ticarət sisteminə inteqrasiya olunduqca bunun üçün uyğun adekvat reqlamentlər də müəyyənləşməlidir. Bir daha qeyd etmək istərdik ki, sənədin də əsas fəlsəfəsi ticarətin asanlaşdırılmasıdır.

Cənab Prezident qeyd etmişdir ki, Azərbaycanın daxil bazarı məhduddur və daxili bazar məhdud olduğu şəraitdə biznesin uzunmüddətli inkişafı mümkün deyil. Buna görə də yalnız və yalnız xarici bazarlara çıxış imkanlarımız olmalıdır. Bunun üçün də bu gün təqdim olunan layihə bizim sahibkarlar üçün, ixracatçılar üçün xarici bazarlara çıxış imkanı yaradır. Təşəkkür edirəm, çox sağ olun, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Bildiyimə görə, hörmətli Şahin müəllim Bağırov, sözünüz var. Şahin müəllim, buyurun.

**Şahin Bağırov**, *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.*

Çox sağ olun. İlk növbədə, hörmətli xanım sədr və hörmətli deputatlar, biz sizə minnətdarlığımızı bildirmək istəyirik. Burada səsləndirilən fikirlərin hamısına hörmətlə yanaşaraq bir neçə məqamı hörmətli deputatların diqqətinə çatdırmaq istəyirik. Çünki vacib məsələlərə toxunuldu.

Ümumiyyətlə, Gömrük Məcəlləsinə ediləcək dəyişikliklər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunmuşdur. Biz ediləcək dəyişikliklərin mahiyyəti haqqında ətraflı məlumat verdik. Komitəyə təşəkkür edirik ki, bizim üçün bu imkanlar yaradılır. Bu məsələ ilə bağlı

layihənin təqdimatında hörmətli Azər müəllim mahiyyəti üzrə ediləcək dəyişikliklər haqqında fikirlərini ətraflı bildirdi. Həqiqətən, dəyişikliklər məhz iqtisadi artıma dəstək göstərilməsinə, beynəlxalq ticarət siyasətinin ölkəmizdə həyata keçirilən hissəsində inkişaf etdirilməsinə hədəflənibdir. Bununla yanaşı, bir neçə məsələyə də toxunmaq istəyirəm.

Hörmətli Əli müəllim Hüseynli qeyd etdi. Gömrük Məcəlləsi bir neçə il bundan əvvəl qəbul edilmişdir. Dünya dəyişdikcə, beynəlxalq ticarətdə və iqtisadi mühitdə yeni proseslər tətbiq olunduqca bu və digər qanunlarda müəyyən dəyişikliklərin və təkmilləşmələrin edilməsi zərurəti yaranır. Bu aspektdən Gömrük Məcəlləsində də dəyişikliklərin edilməsi zərurəti artıq mövcuddur. Eyni zamanda, qeyd etmək istəyirik ki, məcəllənin əsas hədəfi məhz biznesə dəstək göstərmək və sahibkarlıq sahəsini genişləndirmək, gömrük orqanlarının fəaliyyətini tənzimləməkdir.

Emal əməliyyatlarında ifadələrin təkrarlanması ilə bağlı səsləndirilən fikirlərlə əlaqədar bildirmək istəyirəm ki, müxtəlif prosedurlarda biznes tərəfindən ölkəmizə idxal edilən və müxtəlif anbarlarda, gömrük zonalarında, sərbəst iqtisadi zonada saxlanılan yüklər üzərində müxtəlif dövrdə müəyyən əməliyyatların həyata keçirilməsi zərurəti yaranır. Bu nöqteyi-nəzərdən yeni layihədə hansı əməliyyatların keçirilməsi, qablaşdırma, çeşidləmə, digər imkanlar daha dəqiq təsvir olunur.

Həmçinin burada səsləndirilən fikirlərlə əlaqədar bildirmək istəyirəm ki, rəqəmsallaşma və onun nəticəsində subyektivizmin olub-olmaması məsələsinə toxunduqda qeyd etmək istəyirəm ki, məhz subyektivizmin olmaması üçün rəqəmsallaşma geniş surətdə tətbiq olunur. Yəni rəqəmsallaşma öz-özlüyündə subyektivizmin aradan qaldırılmasına xidmət edir. Ona görə ölkəmizdə bütün sahələrdə rəqəmsallaşma həyata keçirilir. Beynəlxalq ticarətdə və gömrük orqanları tərəfindən həyata keçirilən

rəqəmsallaşmaya açıq yanaşma və bunun geniş, israrlı surətdə tətbiqi nəticəsində məhz bu subyektivizmin gələcəkdə tam minimuma endirilməsi nəzərdə tutulur.

Eyni zamanda, səyyar yoxlamaların aparılması və bunun biznesə təsiri nöqteyi-nəzərindən məsələyə toxunmaq istəyirəm. Mövcud Gömrük Məcəlləsində gömrük auditinin aparılması normaları təsbit olunubdur və illər boyu bu norma bizdə istifadədir. Bizim yeni yanaşmamız ondan ibarətdir ki, yəni layihədə nəzərdə tutulan gömrük auditinə "kameral və səyyar yoxlama" ifadələrinin gətirilməsi, əslində, gömrük auditinin daha dəqiq təsvir olunması, ifadə olunması və burada səyyar yoxlama ilə kameral yoxlamanın ayrılmasıdır. Məntiq nöqteyi-nəzərindən kameral yoxlama uzaqdan yoxlamaların, yəni hər hansı elektron məlumatlar əsasında yoxlamaların həyata keçirilməsini nəzərdə tutur. Bununla da səyyar yoxlamaların, yəni mövcud normalarda gömrük auditinin səyyar formada aparılması halları kifayət qədər azalır. Çox nadir hallarda səyyar yoxlamalar aparıla bilər. Eyni zamanda, ölkəmizdə müəyyən olunmuş yoxlamaların aparılması qaydalarına uyğun olaraq, səyyar yoxlamaların da vergi xidməti ilə bərabər surətdə eyni vaxtda keçirilməsi də nəzərdə tutulur.

Audit prosesində isə müəyyən videoçəkilişlərin və bu sahədə digər qeydiyyatın aparılması nəzərdə tutulur. Audit nəticələri və qərarlarının əsasında həm məhkəmə qaydasında şikayətvermə, eyni zamanda, inzibati qaydada auditin qərarının ləğv edilməsi normaları da müəyyən olunur. Bu nöqteyi-nəzərdən biz hesab edirik ki, auditin kameral və səyyar yoxlamaları öz-özlüyündə keyfiyyətcə inkişaf edir və biznesə, ilk növbədə, hər hansı bir baryer yaratmaq deyil, daha çox məsafədən kameral yoxlama əsasında həyata keçirilir.

Yeni layihədə nəzərdə tutulan risk meyarları əsasında gömrük nəzarətinin həyata keçirilməsi beynəlxalq praktikada çox geniş surətdə tətbiq olunur. Bizim son illərdə əldə etdiyimiz nailiyyətlər məhz risk idarəetməsi əsasında həyata keçirilir. Qeyd etmək istərdim ki, gömrük orqanları tərəfindən son illərdə toplanılan gömrük xətti ilə dövlət büdcəsinə daxilolmaların həcmi kifayət qədər artıbdır. Bunun 3 milyard manatdan artaraq 6 milyarddan artıq məbləğdə olması məhz risk sisteminin tətbiqində öz təsirini göstərir. Beləliklə, rəqəmsallaşma, gömrük orqanlarının məsuliyyətinin artırılması və dövlətimiz tərəfindən gömrük orqanlarında müəyyən olunan tapşırıqların vaxtlı-vaxtında icra edilməsi, eyni zamanda, rəqabət mühitinin inkişafı üçün bütün biznes subyektləri ilə eyni münasibətlərin yaradılmasına dair dövlət rəhbərimizin tapşırığı gündəlik həyata keçirilir. Layihənin yeni dəyişikliklər formatı məhz bu tapşırıqların daha səlis, daha dəqiq və şəffaf formada həyata keçirilməsinə imkan yaradır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Şahin müəllim, məlumatınıza görə sağ olun. Eyni zamanda, mən bir məqamı vurğulamaq istəyərdim. Şahin müəllim, Milli Məclis həmişə müzakirələrə hazırdır. Biz bir çox dinləmə, dəyirmi masalar keçiririk.

Azər müəllim, yadınızdadırsa, biz bir neçə komitənin üzvləri ilə bir neçə təşkilatlara getmişdik, səfər etmişdik, yerində də işlə tanış olmuşduq.

Hörmətli Şahin müəllim, deputatlar burada qaldırılan bəzi məsələləri, onlara göndərilən məktublarda olan mövzuları həmişə qaldırırlar. Mən düşünürəm ki, sizin komitənizdə çox böyük və geniş iclas keçirildi. Düşünürəm ki, bu gün də kifayət qədər müzakirə olundu. Sizin dediklərinizə görə biz minnətdarıq.

Azər müəllim, gələcəkdə isə belə bir şey təşkil etmək olar. Düzdür? Yəni gedib elə yerində də baxmaq olar. Eyni zamanda, əgər burada hansısa məsələlər qaldırılırsa, gələcəkdə biz bu dinləmələri keçirməyə hazırıq.

Məlumatınıza görə bir daha çox sağ olun.

Hörmətli həmkarlar, indi isə mən məsələni birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz isə 8-ci məsələyə keçirik. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Təklif edilən qanun layihəsi “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununun təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Məlum olduğu kimi, hərbi qulluqçular xidməti vəzifələrini yerinə yetirərkən müxtəlif risklərlə üzləşirlər. Xidməti fəaliyyəti ilə əlaqədar olaraq döyüş əməliyyatları və digər fövqəladə hallarda xəsarətalma, yaralanma, kontuziya, travma və sair hallar baş verə bilir. Belə vəziyyətdə hərbi qulluqçuların şəxsiyyətinin operativ qaydada müəyyən edilməsi və onlara tibbi yardımın vaxtında və düzgün göstərilməsi, xüsusi ilə qan qrupu barədə məlumatların mövcudluğu baxımından həyati əhəmiyyət daşıyır. Bu baxımdan, hərbi qulluqçuların beynəlxalq təcrübədə geniş tətbiq edilən və effektivliyini sübut etmiş mexanizmdən, fərdi identifikasiya ilə təminolunma üsulundan istifadəsinə zərurət vardır. Bu məsələnin həlli üçün qanunvericiliyə "şəxsi jeton" anlayışı və istifadə qaydalarının əlavə edilməsi təklif edilir.

Hörmətli həmkarlar, jeton şəxsiyyəti müəyyənləşdirmək üçün hərbi qulluqçular tərəfindən boyuna taxılan xüsusi metal lövhədir. Jeton qan qrupunu, Ph qrupunu, bəzən vacib tibbi məlumatları, məsələn, allergiyanı göstərə bilər. Əgər əsgər sənədlərini itiribsə, jeton onun adını, nömrəsini və digər məlumatları tapmağa imkan verir.

Jetonun görüntüləri tipik olaraq boyun ətrafında bir zəncirlə geyilən və şəxsi məlumatlarla həkk olunmuş metal bir lövhədir. Bəzən iki metal lövhə olur. Bəzi ordularda çox vaxt bir əsgər iki jeton taxır. Biri bədəndə qalır, digəri isə hesabat üçün götürülür.

Bir neçə faktı qeyd etmək istərdim. Məzmunlar ölkəyə görə dəyişir, lakin adətən bunlara daxildir: soyadı və adı, şəxsi identifikasiya nömrəsi, əsgərin şəxsiyyəti, doğum tarixi, tibbi məlumatlar. Yuxarıda da qeyd edildiyi kimi, qan növü, rezus faktoru, bəzən qida mənsubiyyəti və suyadavamlılıq və yanmazlıq nəzərə alınır. Bəzi ölkələrdə çox vaxt içərisində bir kağız parçası olan kapsul şəklində də olur. İstər döyüş şəraitində, istərsə də dinc

vaxtı layihə çox vacib əhəmiyyət kəsb edir. Düşünürəm ki, həmkarlarım buna müsbət səs verəcəklər.

Hörmətli həmkarlar, digər məsələmiz “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa çağırışaqədərki hazırlıq sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi məqsədi ilə 9.4-cü maddənin əlavə edilməsidir. Bu sahədə vahid və sistemli qaydaların müəyyən edilməsi, həmçinin həmin qaydaların təsdiq mexanizminin dəqiq tənzimlənməsinə ehtiyac vardır. Layihədə gənclərin çağırışaqədərki hazırlığının təşkili və həyata keçirilməsi ilə bağlı əsasnamənin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməsi nəzərdə tutulur. Bu yanaşma idarəetmədə çevikliyin və operativliyin artırılmasına xidmət etməklə yanaşı, aidiyyəti dövlət orqanları arasında səlahiyyət bölgüsünün daha aydın müəyyən edilməsinə, məsuliyyət mexanizmlərinin gücləndirilməsinə və çağırışaqədərki hazırlığın keyfiyyətinin yüksəldilməsi üçün əlverişli şəraitin yaradılmasına imkan verəcəkdir.

Hörmətli həmkarlar, Azərbaycan Respublikasında gənclər hərbi xidmətə əvvəlcədən hazırlanırlar. Bu hazırlıq dövlət tərəfindən təşkil olunur. Ümumtəhsil məktəblərində, orta ixtisas və digər təhsil müəssisələrində belə tədbirlər keçirilir. Burada hərbi biliklər, fiziki hazırlıq, vətənpərvərlik tərbiyəsi və ilkin tibbi biliklər öyrədilir. Çağırışaqədərki hazırlıq gənclərin hərbi xidmətə getməzdən əvvəl aldıqları ilkin hərbi və vətənpərvərlik hazırlığıdır. Bu hazırlıq onların fiziki, mənəvi və nəzəri cəhətdən orduya hazır olmasına kömək edir. Bu məsələlər, əsasən, məktəblərdə 10-cu, 11-ci siniflərdə oxuyan oğlanlar, bəzi hallarda kolleclərdə və digər təhsil müəssisələrində də keçirilir. Fiziki hazırlıq deyəndə, əsasən, qaçış, turnik, güc hərəkətləri, dözümlülüyün artırılması kimi məsələlərdən söhbət gedir. Tibbi və ilkin yardım, yaralıya ilk yardım, fövqəladə hallarda davranış, vətənpərvərlik

tərbiyəsi, dövlətə bağlılıq, tarix və milli dəyərlər də aşılanır. Nizam-intizam və davranış qaydalarına, komandaya tabe olmaq məsələsi kollektivdə davranışı öyrədir. Burada əsas məqsəd gəncləri hərbi xidmətə psixoloji və fiziki hazırlamaq, onlara əsas hərbi biliklər vermək, vətənpərvərlik ruhunu gücləndirməkdir, gənc orduya gedəndə tam sıfırdan başlamasın, artıq ilkin anlayış və hazırlığa sahib olsun.

Hörmətli həmkarlar, təqdim olunan layihədə həm də bir sıra texniki xarakterli dəyişikliklər təklif edilir. Sizə təqdim olunub. Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə edilib və birinci oxunuş üçün plenar iclasa tövsiyə edilib. Səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim.

Çıxış etmək istəyən var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, təklif olunan qanun layihəsi çox vacibdir. İndiyə qədər müəyyən sahələrdə kustar üsuldan istifadə edirdilər. İndi isə artıq normativə uyğun şəkildə belə jetonların hazırlanması və tətbiq olunması vacib olan elementlərdən biridir. Bu, dünyanın bir çox ölkələrində tətbiq olunur. Xüsusi ilə qeyd edim ki, NATO-ya daxil olan ordu hissələrində də buna fərqli yanaşılır. Elə ölkələr var ki, ordularının bir hissəsinə, eləsi var ki, hamısına müxtəlif tətbiqlər mövcuddur. Məsələn, bəzilərində xüsusi təyinatlılara, dəniz piyadalarına, kəşfiyyat və əks-kəşfiyyatda qulluq göstərənlərə tətbiq edilir, bəzilərində isə bütövlükdə, ordu sıralarına çağırışlarda iştirak edən bütün əsgər və zabit heyətinə tətbiq olunur.

Bizdə də bu, əsasən, hərbiçilər üçün nəzərdə tutulur. Mən hesab edirəm ki, gələcəkdə biz bunu başqa sahələrə də tətbiq etməliyik. Tutaq ki,

fövqəladə hallarda yanğınsöndürənlərlə əlaqədar belə bir jeton sistemi tətbiq oluna bilər. Yaxud da mina axtaranlarla əlaqədar olaraq. Söhbət vətəndaşın təkcə həlak olan zaman kimliyinin müəyyənləşməsindən getmir. Arzu müəllim qeyd etdi. Qan qrupu, hansı isə dərmanlara olan allergiya və digər məsələlər var. Onların orada əks olunmasına qanunla icazə verilir. Həmçinin gələcəkdə də bunlardan sui-istifadə olunmasın. O baxımdan, hesab edirəm ki, bunun bəzi qüvvələrə tətbiq olunması, məsələn, yaralanmış zabitlərə tibbi yardımın göstərilməsində, yaxud da onların müəyyən xəstəliklərinin operativ şəkildə aradan qaldırılmasında köməklik edə bilər.

İkinci çox vacib bir məsələ. Tədris müəssisələrində, orta məktəblərdə digər sahələrə, informasiya kommunikasiya texnologiyalarına, ali məktəbə qəbul olmaq üçün lazım olan elmlərə, dərslərə o qədər vaxt ayrılır ki, insan üçün zəruri olan hərbi hazırlıqla, fiziki hazırlıqla əlaqədar təlimlərə az zaman qalır. Məsələn, bəzi məktəblərdə həftə ərzində 1 saat bədən tərbiyəsi dərsləri var. 1 saat da hərbi hazırlıq dərsi keçirilir. Amma keçmişdə poliqonlar, döyüş məntəqələri var idi. Orada silahlardan istifadə, atıcılıq və digər məsələlər aktual idi. Hərbi xidmətə gedəcək 10-cu sinif oğlan şagirdləri artıq bunları bilirdilər. Yaxud da idmanla bağlı müəyyən normativlər var idi ki, şagirdlər o normativləri tam şəkildə yerinə yetirməli idilər. Mən hesab edirəm, bunu tətbiq etmək lazımdır ki, hər bir gəncimiz artıq orduya çatanda 6 ay bu cür təlimləri keçərək vaxt sərf olunmasın deyə, artıq hazır olmalıdır.

Qanun layihəsi vacibdir, səs verəcəyəm. Həmkarlarımı da səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu məsələsinə çatdıq. “Vətəndaşların müraciətləri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İnsan hüquqları komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, dövlət–vətəndaş münasibətləri Konstitusiyanın 1-ci maddəsində təsbit olunan “hakimiyyətin mənbəyi xalqdır” prinsipi ilə başlayır və ana qanun hər bir vətəndaşın hüquq və azadlıqlarının, eləcə də rifahının təmin edilməsi üçün dövlət orqanlarının üzərinə mühüm vəzifələr qoyur.

Konstitusion öhdəliklərin yerinə yetirilməsində vətəndaş müraciətləri xüsusi yer tutur, çünki bu müraciətlər cəmiyyətin yaşadığı real vəziyyəti və dövlətin sosial, iqtisadi və idarəetmə siyasətinin nəticələrini özündə əks etdirir. Yəni vətəndaş müraciətləri dövlət siyasətinə ictimai münasibətin barometridir. Onun forması, təqdimolunma üsulları, baxılma müddətləri və nəticələri dövlət idarəçiliyinin effektivliyini ölçən əsas indikatordur. Yəni

yalnız fərdi problemlərin həlli vasitəsi deyil, eyni zamanda, dövlət üçün vacib əhəmiyyət daşıyan məlumatların mənbəyidir.

Dövlət orqanları və cəmiyyət arasında əlaqələrin yeni keyfiyyət mərhələsinə keçidi dövlət xidmətlərinin təkmilləşdirilməsini, vətəndaşların dövlət qurumlarının kommunikasiya xətlərinə əlçatanlığını tələb edir.

Ali icra hakimiyyətinin başçısı kimi cənab Prezidentə, Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanlarına edilən müraciətlər, ümumilikdə, ölkəmizdə illik milli müraciət yükünü formalaşdırır. Hər il dövlət başçısına ünvanlanan yüz minlərcə müraciət, daxili işlər orqanlarına edilən çağrı mərkəzləri və elektron sorğuların 3 milyona yaxın olduğunu, eləcə də müxtəlif hökumət qurumlarına yönələn çoxmilyonlu vətəndaş ərizələri dövlətin ictimai yükünü real görməyə imkan verir. Azərbaycan Respublikasının Milli Məclisinə il ərzində daxil olan müraciətlərin sayı və xarakteri göstərir ki, parlament institutuna müraciət edən vətəndaşların spektri kifayət qədər genişdir.

Analitik məlumatlara əsasən, – hörmətli sədr, Siz bir sıra hallarda komitə sədrləri ilə qapalı müzakirələrdə bu məsələnin üzərində dəfələrlə geniş dayanmısınız, – il ərzində Milli Məclisə on minlərcə müraciət daxil olur. Təkcə fərdi şikayətlər deyil, eyni zamanda, sosial-iqtisadi təşəbbüslər, qanunvericilik təklifləri, hüquqi məsələlər və ictimai əhəmiyyətli problemlər də burada yer alır.

Azərbaycanın yeni rəqəmsal arxitekturasına həsr olunan müşavirədə dövlət başçısı İlham Əliyev bəyan etdi ki, bütün dövlət qurumlarının vahid elektron hökumət platformasında fəaliyyət göstərməsi vacibdir. Doğrudan da, bir-birindən ayrı parçalanmış sistemlərin aradan qaldırılması məlumatların inteqrasiyasına və dövlət siyasətinin effektivliyinə təsir göstərir.

Müzakirəyə çıxarılan “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsindəki dəyişikliklər dövlət–vətəndaş münasibətlərini əlçatan, şəffaf və nəticə yönümlü edir. Elektron Hökumət İnformasiya Sistemi üzərindən müraciətlərin hüquqi bazaya daxil edilməsi artıq uzun müddətdir, tətbiq olunan rəqəmsal idarəetmənin normativ çərçivələrini daha da genişləndirir.

Komitədə müzakirələr zamanı vətəndaşların elektron resurslara çıxış imkanlarının qeyri-bərabər olması və inklüzivlik problemləri, ASAN xidmət və ya DOST mərkəzlərinə insanlara müraciətlərin göndərilməsi üçün şəraitin yaradılması, hər bir nazirin və ya yerli hakimiyyət orqanlarına bölgələrdə vətəndaş qəbullarının xüsusi qrafiklə davam etdirilməsi zərurəti və sair təkliflər də yer almışdır. Lakin layihənin mahiyyətini bir cümlə ilə ifadə etməli olsaq, deməliyik: Sənəd əyani vətəndaş qəbullarını nəinki istisna etmir, tam əksinə, fiziki görüşün və ünsiyyətin operativ təşkilinə kömək edir.

3-cü maddədə “elektron müraciət” anlayışı genişləndirilir və EHM üzərindən təqdim olunan müraciətlərin daxil edilməsi burada yer alır. Dəyişiklik faktiki olaraq dövlət orqanlarına edilən müraciətlərin vahid platforma üzərindən idarə olunmasına hüquqi zəmin yaradır. Vətəndaş ayrı-ayrı qurumların saytlarını axtarmağa məcbur qalmır, bunu vahid sistem vasitəsi ilə edir. Bu, əslində, vaxt itkisini azaldır və dövlət xidmətlərinə əlçatanlığı artırır.

6-cı maddədə edilən dəyişikliklər də genişdir. Burada vətəndaşın cavablandırma üsulunu seçmək hüququ tanınır və onu, təbii ki, FİN və VÖEN, əgər o, hüquqi şəxsdirsə, identifikasiya məlumatlarını daxil etməklə əldə edə bilər.

Xüsusi ilə elektron sənədlərin təkmil sertifikatı, – məncə, mütləq əksəriyyət 4,3 milyon ümumi rəqəmlərdə deyilirsə, – elektron imza vasitəsi ilə də həyata keçirilir. Bu da, təbii ki, saxtakarlıq risklərinin də qarşısını alır. Təbii ki, burada sadəlik prinsipinin əsas götürülməsi də mühümdür.

6.7-ci və 7.6-cı maddələrdə cavablandırma mexanizmləri, dediyimiz kimi, əksini tapıb.

11.4-cü maddə vətəndaşların qəbula yazılması ilə əlaqədardır. Əvvəlki qaydalardan fərqli olaraq, artıq yalnız fiziki şəkildə deyil, həm də müraciətə baxan subyektin rəsmi internet-informasiya ehtiyatı və EHİS üzərindən, yəni elektron hökumət üzərindən elektron imza vasitəsi ilə qeydiyyatdan keçərək bu qəbulu qazanmaq mümkündür. Bu da, dediyimiz kimi, yenə də vaxt itkisinin qarşısını alır.

Nəticə etibarı ilə təqdim olunan dəyişikliklər dövlət idarəçiliyində məsuliyyətin və vətəndaş mənafelərinin qorunmasına, onların müraciətlərinin vahid platforma üzərindən idarə olunmasına və xidmətin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Ümidvarıq ki, millət vəkilləri ona müsbət səs verəcəklər.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim.

Hörmətli həmkarlar, müzakirələrə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Müzakirə etdiyimiz dəyişikliklər vətəndaşların müraciətləri ilə bağlı sistemin elektronlaşmasını nəzərdə tutur və biz bu məsələni yalnız texniki yenilik kimi deyil, dövlət–vətəndaş münasibətlərinin keyfiyyətini köklü şəkildə dəyişdirəcək bir fürsət kimi dəyərləndirməliyik.

Söhbət Elektron Hökumət İnformasiya Sistemi üzərindən daxil olan müraciətlərin, sadəcə, qəbulundan getməməlidir. Əsas məsələ ondan

ibarətdir ki, bu müraciətlər vahid platformada toplanmalı, onların bütün hərəkət trayektoriyası izlənəbilən olmalıdır. Vətəndaşın hansı quruma müraciət etdiyi, həmin müraciətin hansı mərhələlərdən keçdiyi, kim tərəfindən necə cavablandırıldığı və nəhayət, hansı nəticə ilə yekunlaşdığı açıq və şəffaf şəkildə görünməlidir.

Bu gün biz daha çox rəqəmlərlə danışırıq. Dövlət orqanları daxil olan məktubların sayını təqdim edir, statistik göstəricilər önə çəkilir. Amma vətəndaşı maraqlandıran əsas məsələ məktubun sayı deyil, onun taleyidir. Neçə müraciət real həllini tapıb? Neçə vətəndaşın problemi müsbət nəticələnib? Hansı hallarda məsuliyyət bir qurumdan digərinə ötürülərək uzadılıb? Məhz bu suallar cavabını tapmalıdır. Əgər biz bütün prosesi vahid sistem üzərindən izləyə bilsək, artıq söhbət formal hesabatdan deyil, real nəticədən gedəcək. Bu zaman hər bir dövlət orqanının fəaliyyəti konkret ölçülə biləcək, məsuliyyət dəqiq müəyyən olunacaq və heç kim müraciətin taleyindən kənarda qala bilməyəcək. Bu yanaşma həm də vətəndaş məmnunluğunu ölçmək üçün bizə real alət verəcəkdir.

Əslində, burada əsas dəyişiklik idarəetmə fəlsəfəsindədir. Biz sayın deyil, keyfiyyətin, prosesin deyil, nəticənin üstün olduğu bir sistem qurmalıyıq. Vahid platforma vasitəsi ilə müraciətlərin tam izlənməsi təmin olunsa, bu, həm şəffaflığı artıracaq, həm məsuliyyəti güclədirəcək, həm də vətəndaşların dövlətə olan inamını daha da möhkəmləndirəcəkdir. Hesab edirəm ki, bu istiqamətdə atılacaq addımlar yalnız texnoloji yenilik olmayacaq, eyni zamanda, daha ədalətli, daha cavabdeh və daha effektiv idarəetməyə keçidin əsasını qoyacaqdır.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, vətəndaşların müraciətlərinin elektron qaydada daha da sistemli təkmilləşdirilməsi olduqca faydalı bir istiqamətdir və biz də bu qanun layihəsini dəstəkləyəcəyik. Bütövlükdə, bu məsələdə əsas mahiyyət nəyin üzərində qurulmalıdır? Biz vətəndaşın qəbul prosedurunun asanlaşdırılması məsələsinə diqqət yetirməliyik. Elə formalar tapılmalıdır ki, vətəndaş rahatlıqla istənilən – həm icra, həm də qanunverici orqanı təmsil edən səlahiyyətli şəxslərin qəbuluna düşə bilsin və öz problemini diqqətə çatdıra bilsin. Bir çox hallarda vətəndaşın müraciətlərinin haqlı olduğu bəlli olsa da, onun həlli yolu barədə hətta bir hüquqşünas kimi konkret bir fikir formalaşdırmaq çətin olur. Çünki  ayrı-ayrı dövlət qurumları arasında olan müəyyən yazışmaların həm intensivliyi, həm də uzun müddət davam etməsi problemin həll olunmamasının əsas səbəblərindən birinə çevrilməkdədir. Ona görə də bu qəbul prosedurunun asanlaşdırılması üçün ayrı-ayrı icra hakimiyyəti orqanlarının təmsilçilərinin bölgələrdə qəbul mexanizmi müəyyən olunubdur. Amma bunun qaydalarının da müəyyən dərəcədə dəyişilməsinə tədricən keçilməlidir. Çünki bir çox hallarda daha çox əhalinin yaşadığı məhz Bakı şəhərində bu cür qəbullara düşə bilməyən insanlar, hətta buradan bilet alıb, Naxçıvanda hansı isə icra orqanı rəhbərinin qəbuluna düşürlər. Gəncədə qəbula düşürlər. Vətəndaş bu qəbullara düşmək üçün Bakıdan bölgələrə gedir, həm maddi, həm də müəyyən fiziki sıxıntılar çəkməli olur. Ona görə də biz Bakı şəhərində də bu qəbul posedurunun hansı isə formada tətbiq olunmasına artıq müəyyən qərar verməliyik. Çünki bu istiqamətdə daha çox icra orqanları ilə konkret problemin həlli məsələsi müəyyən oluna bilər. Qanunvericilik orqanı təmsilçilərinə, millət vəkillərinə müraciət edilәndə biz məsələləri daha çox həmin orqanlara yönləndiririk. Biz bir çox hallada, sadəcə, vasitəçi rolunu

oynayırıq, problemin konkret həllinə özümüz sərəncam vermək imkanına sahib olmadığımıza görə onların hansı isə məsələləri dinamik həlletmə imkanlarına ümidimiz qalır. O baxımdan da, bu məsələyə ciddi diqqət yetirməliyik. Vətəndaşın məmnunluğunu artırmaq üçün də bu yola gedilməsi vacibdir.

İkinci məsələ. Vətəndaş qəbula gələndə şəxsiyyət vəsiqəsi olmadan qəbula düşə bilmir. Məncə, burada bir az elastiklik yaratmaq daha yerində olar. Vətəndaş şəxsiyyət vəsiqəsi ilə və şəxsiyyət vəsiqəsini təsdiq edən istənilən sənədlə qəbula gələ bilər. Onsuz da müraciət edib. Kimin isə yadından çıxıb və ya kiminsə şəxsiyyət vəsiqəsi yoxdursa, məncə, bu halı bir az elastik etsək, daha doğrudur. Çünki konkret vətəndaşın qəbula gəlməsi hələ onun probleminin həll olunması mənasına gəlmir. Gəlib, şikayət edib gedəcək, yaxud da məktubunu verib gedəcək. O baxımdan da, məncə, tələbləri bir qədər elastik etməyimiz ümumi işimizin də xeyrinə olar.

Biz bir çox qanunları qəbul edəndə ölkə Prezidentinin son vaxt atdığı addımları da bir nümunə olaraq götürməliyik. Diqqət edirsinizsə, 85 milyon su-sel hadisəsi nəticəsində, yağış sularının törətdiyi fəsaddan sonra vəsait ayrıldı və o vəsaitin xərci üçün də prioritet olaraq vətəndaşın problemi götürüldü. 61 evin təmir olunması, evi sökülmüş insanlara birdəfəlik maddi yardımın edilməsi, eyni zamanda, onlara 3 aylıq kirayə pulunun verilməsi məsələsi onu göstərdi ki, ayrı-ayrı qurumlara ayrılan vəsaitlə yanaşı, ilk növbədə, vətəndaşın məmnunluğunu təmin etmək vacibdir. Məncə, bu qanunun da əsas fəlsəfəsi, əsas hədəfi buna yönəlsə, daha çox vətəndaş məmnunluğuna nail olmaq mümkün olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Nigar Məmmədova. Buyurun.

**Nigar Məmmədova.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Mən də qanun layihəsinə öz münasibətimi bildirmək istərdim. Qanuna təklif olunan dəyişikliklər yalnız texniki yenilik deyil, dövlət–vətəndaş münasibətlərində keyfiyyətcə yeni mərhələyə keçidin əsası qoyulur. Bu layihə müraciətlərin, sadəcə, qəbulu və cavablandırılması deyil, onların sistemli şəkildə idarə olunmasını hədəfləyir. Vahid elektron sistemin qurulması müraciətlərin gecikməsi, onların yalnış istiqamətləndirilməsi kimi neqativ halların qarşısını almağa xidmət edir. Bu, eyni zamanda, qərarvermə prosesində operativliyi artırır və dövlət qurumlarının məsuliyyətini daha da gücləndirir. Hesab edirəm ki, burada əsas məsələ yalnız elektronlaşma deyil, bu sistemin ağıllı və nəticə yönümlü idarə olunmasıdır. Bu baxımdan, qanun layihəsi gələcəkdə süni intellekt texnologiyalarının da tətbiq olunması üçün ciddi hüquqi zəmin yaradır.

Biz burada operativlikdən, şəffaflıqdan, əlçatanlıqdan danışdıq. Mən isə elektronlaşma, texnologiyaların tətbiqi, bunların gələcəkdə hansı imkanları açacağı ilə bağlı bu məsələlərə daha detallı varmaq istərdim. Müraciətlərin avtomatik təsnifatı, düzgün yönləndirilməsi – bu, əlbəttə ki, prosesləri sürətləndirə bilər. Lakin sistem daxilində toplanan məlumatların analizi gələcəkdə bizə təkrarlanan problemləri üzə çıxarmağa imkan yarada bilər. Bu isə artıq tək-tək müraciətlərə reaksiya vermək deyil, problemlərin köklü həllinə yönəlmiş bir yanaşmadır. Eyni zamanda, qeyri-standart qərarlar, şübhəli hallar üzrə erkən xəbərdarlıq mexanizmlərinin də formalaşmasına şərait yarada bilər. Bu isə korrupsiya risklərinin qarşısının alınmasında mühüm rol oynaya bilər.

Bundan əlavə, müraciətlərin dinamikasının təhlili gələcək yüklənmənin də proqnozlaşmasına imkan verəcək. Bu da dövlət qurumlarında resursların daha düzgün və səmərəli bölüşməsini təmin edə bilər.

Biz görürük ki, elektronlaşma bir məqsəd deyil, bu, bir vasitədir. Lakin burada əsas məqsəd səmərəli, şəffaf və vətəndaşa yönəlmiş idarəetmə modelinin qurulmasıdır. Bütün bu proseslər şəffaf, məlumat təhlükəsizliyi və insan nəzarəti prinsipi çərçivəsində həyata keçirilməlidir. Çünki bizim əsas məqsədimiz vətəndaş müraciəti mexanizmini aktiv və strateji bir alətə çevirməkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” müəyyənləşərkən açıq mətnlə ifadə olunub ki, perspektiv həyat dərin rəqəmsallaşma və yeni texnologiyaların aktiv tətbiqi ilə səciyyəvi olacaq. Təbii ki, inkişaf və rifah yalnız maddi nemətlərdə ifadə olunmur. Bir sıra hallada bir sıra hüquq və azadlıqlar, o cümlədən Konstitusiyamızın 57-ci maddəsində təsbit edilmiş müraciət hüququ insan rifahı üçün, əslində, maddi nemətlərdən az önəm daşımır. Ona görə də müraciət hüququnun səmərəli təmini hər bir vətəndaşın inkişafdan bəhrələnməsi üçün çox vacibdir. Möhtərəm Prezidentin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olmuş “Vətəndaşların müraciətləri haqqında” Qanunda dəyişiklik layihəsi müraciətlər üçün rəqəmsal normativ və praktik bazisin inkişafını nəzərdə tutmaqla, həmçinin müraciət imkanlarını genişləndirməklə, mahiyyətcə məhz bu hüququn daha da səmərəli təmininə xidmət edir.

Qanun layihəsi ilə bağlı məruzədə vətəndaşın müraciətlərinə dair tələblər, müraciətlərin qəbulu, qeydiyyatı, onlara baxılması və baxılmamış saxlanması ifadəsi qeyd olundu. Bu layihə bizə imkan verəcək ki, vətəndaş qəbulu prosedurlarının elektronlaşması prosesi təkmilləşsin, habelə təkrar xarakterli müddəalar ləğv edilsin.

Bilirsiniz ki, bu il fevralın 27-də Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında möhtərəm Prezidentin fərmanı ilə rəqəmsal inkişafın prioritet istiqamətlərinin müəyyənləşməsi, bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin sədrliyi ilə Rəqəmsal İnkişaf Şurası yaradılıb. Cənab Prezidentin fərmanına müvafiq olaraq, Mehriban xanım Əliyevanın bu istiqaməti nəzarətə götürməsinin ardınca elektron hökumət sahələrində fəaliyyətin daha səmərəli təşkili dövlət idarəetməsinin optimallaşdırılması, xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eləcə də müvafiq sahələr üzrə təhlil aparılması, proqnoz və hesabatların hazırlanması və onların əsasında dövlət tənzimlənməsinin həyata keçirilməsi işində daha çevik fəaliyyət istiqamətində müəyyən, önəmli irəliləyişlər var. O cümlədən də idarəçiliyin bütün istiqamətlərində rəqəmsallaşmanın təmini üçün müvafiq normativ hüquqi aktlarda dəyişikliklər aparılır. Təqdim olunan qanun layihəsində nəzərdə tutulan dəyişikliklər də bu məqsədə xidmət etməklə, əslində, həm də müvafiq olaraq, Rəqəmsal İnkişaf Şurasının bu istiqamətdə ilkin fəaliyyətinin çox uğurlu nəticəsi kimi qiymətləndirilə bilər. Təbii ki, çox əhəmiyyətli layihədir. Konstitusion müddəanın daha səmərəli təmininə yönəlib. Ona görə də, təbii ki, müsbət münasibətimi ifadə edəcəyəm. Həmkarlarımı da dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hesab edirəm ki, biz olduqca vacib, əhəmiyyətli bir qanun layihəsinin düzəlişinə baxırıq, müzakirə edirik. Artıq seçicilərimiz bu istiqamətdə suallar ünvanlamağa başlayıblar. Çünki onlar bu prosesləri diqqətlə mətbuatdan izləyirlər. Məsələn, mənə belə bir sual veriblər: Bu təzə qanuna yeni düzəlişlərdən sonra daha deputatların rayonda seçicilərlə görüşləri olmayacaq? Daha bundan sonra yalnız elektron vasitə ilə sizə müraciət edəcəyik? Deyirəm: Qətiyyən yox, siz düzgün anlamamısınız. Əksinə, biz deputatlar olaraq ayda minimum iki dəfə sizinlə görüşə gəlirik. Bundan sonra sizin imkanlarınız var ki, bütün dövlət qurumlarına ayrı-ayrılıqda müraciət etmək deyil, vahid bir platformaya çıxıb öz müraciətinizi edəsiniz. Burada proseslərə sürətli yanaşma olacaq, aşkarlılıq olacaq və burada sizi narahat edə biləcək heç bir şey yoxdur.

Hesab edirəm ki, indi insanların bunun izahına daha böyük ehtiyac var ki, bu, fiziki ünsiyyəti qətiyyən istisna etmir. Siz istənilən deputatla, istənilən nazirlə, dövlət qurumunun digər təmsilçiləri ilə görüşə bilərsiniz, onlar sizinlə görüşür, fikirlərinizi, problemlərinizi qaldıra bilərsiniz. Sadəcə, bu, bir dövlət siyasətidir, həm də bir ictimai sifarişdir ki, yol bu yoldur. Yəni rəqəmsallaşma yoludur və biz də o yolla gedirik. Mən onu da anlayıram ki, istənilən yeni ideyanın bəzən əleyhdarları da olur. Kimlərsə onu qəbul etmək istəmir.

Mən keçən dəfə komitə iclasında da dedim. 7-8 il bundan öncə Cəlilabadda bir kəndə seçicilərlə görüşdə gördüm ki, bankomatın yanında xeyli adam yığışıb. Sual verəndə ki, nədən bu qədər insan birdən-birə bankomatın yanına yığışıb. Dedilər ki, orada 1 nəfər dayanıb, onlardan kartı

alır, bankomatdan pullarını çıxarıb özlərinə verir. Dedim ki, bəs özləri niyə bunu etmirlər? Dedilər ki, hələ o vərdişləri yoxdur, qorxurlar ki, birdən səhv edərlər.

İndi isə, ümumiyyətlə, belə bir problem yoxdur, hətta indi gülməli çıxar ki, kimsə başqasının maaşını alsın, ona təqdim etsin. Yəni insanlar artıq hər şeyi öyrənirlər. İlk baxışdan kimin üçün isə çətin görünə bilər. Lakin "yeni sistemdir, mən necə bunu elektron qaydada edim" kimi düşüncələrdən uzaq olmaq lazımdır. Çox qısa zaman ərzində bunları mənimsəmək mümkündür. Burada çətin heç nə yoxdur. Əsas niyyət nədir? Niyyət ondan ibarətdir ki, vətəndaş məmnunluğu təmin edilsin, vətəndaşın problemləri öz ünvanına sürətlə çatsın, ona sürətlə reaksiya verilsin, bunun monitorinqi, izlənilməsi baş versin. Nəticədə, vətəndaşımız, seçicimiz görsün ki, "Vətəndaşların müraciəti haqqında" Qanuna düzəliş edildikdən sonra işlər daha yaxşı gedir və onların problemi daha sürətlə öz həllini tapır.

Rəqəmsallaşma artıq zamanın tələbidir və dünyanın getdiyi, dünyanın seçim etdiyi bu yolla biz də gedirik. Niyyətimiz bu istiqamətdə daha ciddi addımlar atmaqdır. Dövlət başçısının siyasətinin fəlsəfəsi bundan ibarətdir. Biz müasir dövlət olaraq bu istiqamətdə addımlarımızı atırıq. İnanırıq ki, "Vətəndaşların müraciəti haqqında" Azərbaycan Respublikasının Qanununa edilən müvafiq dəyişikliklər nəticə etibarı ilə vətəndaş məmnunluğunun daha da təkmilləşdirilməsinə xidmət edəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Mən düşünürəm ki, belə bir çaşqınlıq yaranmaması üçün hər bir deputat seçiciləri ilə iş apara bilər, eyni zamanda, media vasitəsi ilə açıqlamalar vermək olar. Bu da hansı isə istiqamətdə maarifləndirmə kimi də qiymələndirilə bilər. Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsinə səs verməyinizi xahiş edəcəyəm. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Bu qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

***EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ***

***1 may 2026-cı il***

**Anar Məmmədov.** Son günlər beynəlxalq arenada baş verən proseslər, xüsusi ilə də bəzi nüfuzlu beynəlxalq təsisatların keçmiş təmsilçilərinin ifşası müasir dünyanın ən ciddi problemini – mənəvi və hüquqi dəyərlər böhranını bütün çılpaqlığı ilə ortaya qoyur. Uzun illər demokratiya, insan haqları və qanunun aliliyi kimi ali prinsipləri özlərinə qalxan edənlərin, bu gün şəxsi mənfəət və lobbi maraqlarının əsirinə çevrilməsi təkcə təəssüf deyil, həm də beynəlxalq ədalət sisteminə qarşı bir xəyanətdir.

Beynəlxalq mediada və sosial şəbəkələrdə yayılan, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun siyasi korrupsiyaya bulaşmasını təsdiq edən videogörüntülər və faktlar, əslində, çoxdan bəlli olan bir həqiqəti – bəzi Qərb dairələrinin ikiüzlü simasını nümayiş etdirdi. Okampo illərdir ki, erməni lobbisinin və ANCA (Amerika Erməni Milli Komitəsi) kimi qurumların maliyyə resursları hesabına Azərbaycan əleyhinə qurulan qarayaxma kampaniyalarının “baş memarı” rolunu oynayır. Onun fəaliyyəti hüquq prinsiplərinə deyil, birbaşa erməni diasporunun siyasi sifarişlərinə söykənir. Bu, sadəcə, hüquqi cinayət deyil, beynəlxalq ədalət hissinə vurulan ağır zərbədir.

Xaricdən idarə olunan bütün bu təxribatlara, “hesabat” adı altında yayılan saxta sənədlərə və qarayaxma kampaniyalarına rəğmən, Azərbaycan öz prinsipial yolundan bir addım da geri çəkilməmişdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalan qətnamələrini icra etdi, regionda sülh, əməkdaşlıq və inkişaf üçün tamamilə yeni bir mühit yaratdı, erməni lobbisinin maliyyələşdirdiyi “insan haqları carçıları”nın əsl simasını öz qətiyyəti ilə ifşa etdi.

Təbii ki, regionda sülhün bərqərar olması, sərhədlərin müəyyənləşməsi və qarşıdurmanın sona çatması Okampo kimi "bulanıq su ovçularını" narahat etməyə bilməz. Çünki sülh olan yerdə korrupsiya mexanizmləri, münaqişədən bəhrələnən "lobbi biznesi" iflasa uğrayır. Lakin hər kəs bilməlidir ki, tarixin çarxını geri döndərmək mümkün deyil. Korrupsiya və rüşvət üzərində qurulan heç bir plan Azərbaycanın suverenliyinə və bölgədə yaratdığı yeni ədalətli nizamına kölgə sala bilməz. Bizim yolumuz haqq yoludur və bu yolda beynəlxalq riyakarlığın hər bir təzahürünə qarşı mübarizəmiz qətiyyətlə davam edəcəkdir. Ədalət gec-tez yerini tapır, saxta qəhrəmanların maskası isə həmişə düşməyə məhkumdur.

**Asif Əsgərov.** Təbiət hadisələri öz miqyası və qəfildən baş verməsi ilə hər zaman dövlətlər üçün böyük sınaq olur. Bu gün qlobal iqlim dəyişikliyi fonunda dünyanın ən inkişaf etmiş ölkələrinin belə güclü yağışlar, daşqınlar qarşısında aciz qaldığını, şəhərlərin su altında qaldığını və günlərlə infrastrukturun bərpa oluna bilmədiyini müşahidə edirik. Bu, hər bir ölkənin üzləşə biləcəyi bir reallıqdır. Lakin Azərbaycanın bu məsələdə fərqi ondadır ki, ölkəmizdə vətəndaşın qarşılaşdığı hər bir çətinlik birbaşa ölkə rəhbərinin şəxsi diqqətindədir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin imzaladığı son sərəncam Azərbaycan dövlətinin öz vətəndaşının yanında olmasının növbəti əyani sübutudur. Son aylardakı sel fəsadlarının aradan qaldırılması üçün dövlət büdcəsindən, xüsusi ilə Prezidentin Ehtiyat Fondundan, ümumilikdə, 86 milyon manata yaxın (85.869.260 manat) vəsaitin ayrılması çox böyük və əhəmiyyətli bir addımdır. Bu vəsait, sadəcə, rəqəm deyil, bu, dağılmış yolların bərpası, sıradan çıxmış elektrik xətlərinin yenilənməsi və vətəndaşlarımızın normal həyata qayıtması deməkdir. Bu, hər bir zərərçəkmiş ailənin, hər bir evin və hər bir kəndin probleminin

operativ şəkildə həll olunması deməkdir. Cənab Prezidentin bu humanist addımı bir daha sübut edir ki, Azərbaycan dövləti üçün ən böyük dəyər insandır.

Eyni zamanda, xatırlatmaq istərdim ki, ölkəmizdə Ağsu aşırımlarında baş vermiş torpaq sürüşmələri, eləcə də Zaqatala rayonunda qeydə alınmış zəlzələ zamanı da dövlətimizin başçısı tərəfindən zərər çəkmiş vətəndaşların sosial müdafiəsi, yaşayış şəraitinin bərpası və təhlükəsizliyinin təmin olunması istiqamətində operativ və məqsədyönlü addımlar atılmışdır. Bu, bir daha sübut edir ki, Prezident İlham Əliyevin siyasətində vətəndaşın rifahı, təhlükəsizliyi və sosial təminatı daim xüsusi önəm daşıyır və dövlət hər bir çətin məqamda xalqının yanındadır. Ölkə rəhbərliyinin bu qayğıkeş siyasətində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən humanitar missiyalar və sosial həssaslıq fəlsəfəsi də zərərçəkmiş insanlara mühüm mənəvi və praktiki dayaq rolunu oynayır.

Sərəncamda vəsaitin paylanma coğrafiyası və strukturu göstərir ki, dövlət zərərin hər bir detalını dərindən təhlil edib. Bu ayırmalar imkan verəcək ki, həm cari fəsadlar tam aradan qaldırılsın, həm də gələcəkdə bənzər halların təkrarlanmaması üçün qabaqlayıcı infrastruktur layihələri icra olunsun. Aidiyyəti qurumlar artıq su basmış ərazilərdə əməli işlər görüb, əhalinin təhlükəsizliyini təmin ediblər.

Dövlətimiz ən çətin məqamda öz gücünü göstərdi. Bu sərəncam Azərbaycanın həm iqtisadi qüdrətini, həm də sosial dövlət modelinin sarsılmazlığını bir daha təsdiq edir. Azərbaycan dövlətinin gücü onun xalqına olan sevgisində, xalqın gücü isə öz rəhbərinə olan sarsılmaz etimadındadır. İnanırıq ki, bu sərəncamdan irəli gələn tədbirlər gələcəkdə analoji halların təkrarlanmaması üçün ciddi preventiv baza yaradacaqdır.

**Azər Kərimli.** Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti, növbəti anti-Azərbaycan qətnaməsi ilə bağlı həmkarlarımın dediklərini dəstəkləyirəm. Hesab edirəm ki, Milli Məclisin reaksiyası və atılacaq addımlar çox sərt və adekvat olmalıdır.

Mən isə digər bir məqama toxunmaq istəyirəm və hesab edirəm ki, Avropa Parlamentinin bu qətnaməsi ilə Luis Moreno Okamponun son açıqlamalarının eyni zaman kəsiyində baş verməsi təsadüfi deyil. Həm Okampo, həm də vaxtı ilə Avropa Parlamentinin prezidenti, 2019–2024-cü illərdə Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cosep Borrell hörmətli xanım sədrin də çıxışında qeyd etdiyi həmin anti-Azərbaycan lobbi qruplarından birinin üzvləridir. Luis Moreno Okamponun son açıqlamaları və yayılan videomateriallar onun fəaliyyətinin artıq hüquqi çərçivədən çıxaraq açıq siyasi manipulyasiya müstəvisinə keçdiyini göstərir. Uzun müddət Beynəlxalq Ədalət Məhkəmsi sistemində çalışmış bir şəxsin bu gün bu qədər açıq şəkildə geosiyasi proseslərə müdaxilə etməsi və bunu "hüquq" pərdəsi altında təqdim etməsi təsadüfi deyil və ciddi suallar doğurur.

Videoda səsləndirilən fikirlərin mahiyyətinə baxdıqda burada konkret siyasi hədəflərə, regionda sülh prosesinin pozulmasına, Avropa Komissiyası ilə Azərbaycan arasında əməkdaşlığın zədələnməsinə və Ermənistan daxilində siyasi sabitliyin pozulmasına yönəlmiş çağırışların olduğu açıq-aşkar görünür. Bu isə Okamponun siyasi texnoloq və dələduz yanaşmasından xəbər verir.

Ən narahatedici məqam isə bu fəaliyyətin mümkün motivasiyasıdır. Okamponun adı əvvəllər də müxtəlif qalmaqallarda, o cümlədən etik və maliyyə şəffaflığı ilə bağlı suallar doğuran proseslərdə hallanıb. Bu baxımdan, onun indiki fəallığınının ortaya çıxardığı mənzərə göstərir ki,

burada müəyyən maraq qrupları ilə bağlılıq və bu bağlılıqdan doğan siyasi öhdəliklər ehtimalı kifayət qədər realdır.

Erməni lobbi şəbəkələrinin Qərb institutlarında təsir imkanları nəzərə alındıqda Okamponun ritorikasının bu xəttlə üst-üstə düşməsi də təsadüfi görünmür. Onun Azərbaycana qarşı ardıcıl və selektiv ittihamları, regiondakı reallıqları görməzdən gəlməsi və birtərəfli yanaşması bu fəaliyyətin koordinasiyalı xarakter daşıdığını deməyə əsas verir. Burada artıq fərdi təşəbbüsdən deyil, müəyyən dairələrin maraqlarına xidmət edən istiqamətləndirilmiş fəaliyyət modelindən danışmaq daha doğru olar.

Digər diqqətçəkən məqam Cosep Borrell kimi fiqurların adının bu kontekstdə hallandırılmasıdır. Bu, Avropa institutlarının neytrallığı və obyektivliyi ilə bağlı ciddi suallar yaradır. Çünki bu halda söhbət artıq ayrı-ayrı şəxslərin mövqeyindən deyil, institusional reputasiyanın zədələnməsindən gedir.

Okamponun fəaliyyəti istisnasız olaraq hüquqi qiymətləndirmədən daha çox siyasi korrupsiya və təsir alətləri kontekstində dəyərləndirilməlidir. Onun və əlaltısı kimi təqdim etdiyi Borrellin Azərbaycana qarşı sərgilədikləri aqressiv ritorikanın arxasında maraqlar, sifarişlər və öhdəliklər dayanır.

**Ceyhun Məmmədov.** Sənədin təhlili göstərir ki, Avropa Parlamentinin Azərbaycan əleyhinə qərəzli və təxribat xarakteri daşıyan fəaliyyəti artıq sistemli və ardıcıl xarakter alıb.

Görünən odur ki onların bu təxribatlardan əl çəkmək niyyətləri yoxdur. Bu da aydın görünür ki, bütün cəhd və təxribatlara baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın torpaqlarını azad etməsi, müstəqil siyasət həyata keçirməsi onları ciddi narahat edir.

Məgər bizə “Siz işğalla barışmalısınız”, “Siz müharibə edə bilməzsiniz” deyən onlar deyildimi? Görünür, onlar bu arzularının ürəklərində qalması,

xəyallarının puç olması ilə heç cür barışa bilmir, bu yolla qisas almağa çalışırlar. Ancaq onlar bilməlidirlər ki, bu da əbəsdir, yanlış yol seçiblər. Bu təxribatlar, bu cür kağız parçaları Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi prinsipial və qətiyyətli siyasətə təsir göstərə bilməz.

Çox ziddiyyətli bir vəziyyət yaranıb. Artıq Azərbaycanla Ermənistan münasibətlərinin normallaşması isitqamətində ciddi addımlar atırlar. Artıq qarşılıqlı səfərlər var. Bir müddət bundan əvvəl Baş nazirin hörmətli müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Ermənistana səfər etdi. Hesab edirəm, bu kağız parçasının qəbul edilməsinin bu səfərlə üst-üstə düşməsi heç də təsadüfi deyil. Bu məqamda Azərbaycan xalqının çox məşhur bir atalar sözü ağıla gəlir.

Sənəddə çox absurd məqamlar əksini tapıb. Məgər onlar bilmirlər ki, erməniləri heç kim oradan çıxarmayıb, əksinə, Azərbaycan Qarabağda yaşayan ermənilərə reinteqrasiya ilə bağlı dəfələrlə müraciət ünvanladı. Ancaq onları təxribatlara uyaraq Qarabağı tərk etdilər. Bu məsələ ilə bağlı çox ciddi ortada faktlar var.

Burada belə bir sual yaranır: 30 ilə yaxın müddətdə ermənilər 10 min kvadrat kilometr ərazini vəhşicəsinə dağıtdılar. Dini ibadət yerlərimizdə donuz və inək saxladılar. Qarabağda olan yeganə pravoslav kilsəsini, alban abidələrini dağıtdılar. Qəbirlərimizi dağıdıb yerində məqsədli şəkildə səngərlər qazdılar, istehkam qurdular, əkin işləri həyata keçirdilər. Bu gün də hələ insanlarımız öz doğmalarının qəbirlərini, onların sümüklərini tapmaqda çətinlik çəkirlər. Onlar bu günə kimi bu məsələlərlə bağlı qətnamə qəbul etdilərmi? Ancaq Azərbaycan nə etdi? İşğaldan azad olunmuş ərazilərdə məscidlərlə yanaşı, erməni və alban kilsələrini də bərpa və təmir etdi.

Bu saxta sənədi qəbul edənlər bilməlidirlər ki, onların yalnız təxribat və keçmiş münaqişəni yenidən alovlandırmaq məqsədi daşıyan bu sənədin dövlətimiz üçün heç bir əhəmiyyəti yoxdur. Azərbaycan xalqı Prezident İlham Əliyev ətrafında sıx birləşib. Bu cür cəhdlər Azərbaycan xalqının iradəsinə, müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi prinsipial və qətiyyətli siyasətə mənfi təsir göstərə bilməz. Əbəs yerə əziyyət çəkməsinlər.

**Əminə Ağazadə.** Son günlərdə Avropa Parlamenti tərəfindən qəbul edilmiş “Ermənistanda demokratik dayanıqlılığın dəstəklənməsi” adlı qətnamə regionumuzda diqqətlə izlənilən və ciddi müzakirələr doğuran sənədlərdən biridir. İlk baxışda bu qətnamə demokratiyanın təşviqi, institusional sabitliyin gücləndirilməsi kimi müsbət niyyətlərə əsaslanır. Lakin onun məzmununa və qəbul edildiyi siyasi kontekstə diqqətlə yanaşdıqda bu sənədin regionda yeni formalaşmaqda olan sülh və etimad mühitinə müəyyən mənfi təsirlər göstərə biləcəyi qənaətinə gəlmək mümkündür.

Cənubi Qafqaz regionu uzun illər davam edən münaqişələrdən sonra, nəhayət ki, yeni bir mərhələyə qədəm qoymuşdur. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlar, sərhədlərin delimitasiya və demarkasiya prosesi, nəqliyyat-kommunikasiya xətlərinin açılması kimi mühüm addımlar regionda davamlı sülhün bərqərar olması üçün real zəmin yaratmaqdadır. Bu həssas mərhələdə tərəflər arasında qarşılıqlı etimadın gücləndirilməsi, balanslı və obyektiv yanaşmaların nümayiş etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Təəssüf ki, qeyd olunan qətnamədə birtərəfli yanaşmanın elementləri açıq şəkildə hiss olunur. Ermənistanın daxili siyasi proseslərinə və

demokratik inkişafına dəstək adı altında qəbul edilən bu sənəd dolayısı ilə regiondakı digər tərəfin – Azərbaycanın maraqlarını və legitim mövqeyini yetərincə nəzərə almır. Bu isə istər-istəməz balansın pozulmasına və tərəflər arasında etimadın zəifləməsinə səbəb ola bilər.

Diqqət yetirməli olduğumuz digər mühüm məqam ondan ibarətdir ki, beynəlxalq qurumların qəbul etdiyi sənədlər yalnız hüquqi və ya siyasi bəyanat xarakteri daşımır, eyni zamanda, psixoloji və siyasi mesaj rolunu oynayır. Belə qətnamələr region ölkələrində ictimai rəyə təsir göstərir, siyasi dairələrdə müəyyən gözləntilər formalaşdırır. Əgər bu mesajlar balanslı və obyektiv olmazsa, bu, danışıqlar prosesinə mənfi təsir göstərərək tərəflərdən birində əsassız üstünlük hissi yarada bilər.

Sülh prosesi son dərəcə incə və mürəkkəb bir mexanizmdir. Bu proses yalnız siyasi sənədlərlə deyil, qarşılıqlı etimad, konstruktiv dialoq və real addımlarla möhkəmləndirilir. Xarici aktorların bu prosesə müdaxiləsi isə yalnız o halda müsbət nəticə verə bilər ki, onlar tam neytral və ədalətli mövqe nümayiş etdirsinlər. Əks halda, belə müdaxilələr tərəflər arasında balansı pozaraq mövcud gərginliyi daha da artıra bilər.

Avropa Parlamenti regionda davamlı sülhün və sabitliyin təmin olunmasına töhfə vermək istəyirsə, yanaşmasında daha həssas, inklüziv və obyektiv olmalıdır. Qəbul edilən sənədlər tərəflərdən birini təşviq edən deyil, hər iki tərəfi sülhə, əməkdaşlığa və qarşılıqlı anlayışa çağıran mahiyyət daşımalıdır.

Eyni zamanda, qeyd etmək istərdim ki, regionda sülhün təmin olunması, ilk növbədə, məhz region ölkələrinin öz iradəsinə və məsuliyyətinə əsaslanmalıdır. Xarici aktorların rolu isə bu prosesi dəstəkləməkdən ibarət olmalı, onu istiqamətləndirmək və ya birtərəfli təsir altına almaqdan yayındırmalıdır. Bizim əsas məqsədimiz regionda davamlı

sülhün təmin olunması, sabitliyin möhkəmləndirilməsi və gələcək nəsillər üçün təhlükəsiz mühitin yaradılmasıdır. Bu məqsədə çatmaq üçün isə beynəlxalq münasibətlərdə ədalət, balans və qarşılıqlı hörmət prinsipləri əsas götürülməlidir.

**Xanlar Fətiyev.** Geridə qoyduğumuz aprel ayı Azərbaycanın xarici siyasəti baxımından məhsuldar və əlamətdar bir dövr kimi yadda qaldı. Ötən ay Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Gürcüstanda dövlət səfərində olması, Türkiyədə Antalya Diplomatiya Forumunda iştirakı, Latviya və Ukrayna prezidentlərinin, Litva və Çexiya baş nazirlərinin ölkəmizə səfər etmələri respublikamızın yürütdüyü çoxvektorlu xarici siyasət kursunun aydın təzahürü oldu. Bu səfərlərin hər biri Azərbaycanın beynəlxalq arenada güclü mövqelərinin olduğunu nümayiş etdirən mühüm geosiyasi faktorlardır. Bu kontekstdə diqqəti çəkən əsas məsələlərdən biri budur ki, aprel ayında Azərbaycana Avropa İttifaqının üzvü olan üç dövlətin rəhbərləri səfər ediblər. Litva Baş naziri və Latviya Prezidentindən sonra Çexiyanın Baş naziri Andrey Babişin ölkəmizə səfəri, ilk növbədə, belə bir reallığı təsdiq edir ki, Avropa İttifaqının siyasi dairələrində Azərbaycanla münasibətlərə və tərəfdaşlığa böyük önəm verilir.

Azərbaycanın həm Baltik dövlətləri, həm də Ukrayna ilə olduğu kimi, Çex Respublikası ilə də sıx siyasi münasibətləri var. Çexiya həm də Azərbaycanın Avropa İttifaqındakı strateji tərəfdaşlarından biridir. 2015-ci ildə Azərbaycanla Çex Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb. İndiyədək iki dövlətin rəhbərləri arasında bir neçə dəfə qarşılıqlı səfərlər olub. Bu səfərlərin hər biri ikitərəfli əlaqələrin inkişafına təkan verib, əməkdaşlığın gücləndirilməsi ilə yadda qalıb.

Qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyev və Çex Respublikasının Baş naziri Andrey Babiş yanvar ayında Davos İqtisadi Forumunda da görüşmüş və söhbət zamanı iki ölkə arasında siyasi, iqtisadi, enerji, maşınqayırma, nəqliyyat və digər sahələri əhatə edən əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanmışdı. O cümlədən münasibətlərimizin dərinləşdirilməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunulmuşdu. Çexiya Baş nazirinin Azərbaycana bu günlərdə reallaşan rəsmi səfəri isə göstərdi ki, əlaqələrin daha da inkişafında maraqlı olan və siyasi iradə nümayiş etdirən hər iki dövlətin rəhbərliyi arasında fəal dialoq formalaşıb. Eyni zamanda, Çexiya Baş nazirini səfər zamanı bu ölkənin 50 şirkətinin nümayəndələrinin təmsil olunduğu geniş biznes heyətinin müşayiət etməsi və Qəbələdə Azərbaycan–Çexiya biznes forumunun keçirilməsi hər iki dövlətin, xüsusən iqtisadi əlaqələri dərinləşdirməkdə maraqlı olduğunu nümayiş etdirdi.

Prezident İlham Əliyevlə Andrey Babişin Qəbələdə keçirilən görüşündə həm ikitərəfli, həm regional, həm də qlobal məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Məlumdur ki, Çexiya Azərbaycan neftinin Avropadakı əsas alıcılarından biridir. Hazırda bu ölkənin idxal etdiyi neftin 42 faizi Azərbaycandan daxil olur. İki dövlət arasındakı ticarət dövriyyəsinin strukturunda da əsas yeri Azərbaycanın neft ixracı tutur. Lakin Qəbələdə keçirilən görüşdə müzakirə olunan məsələlər və biznes forumunda əldə olunan razılaşmalar yaxın gələcəkdə ticarət dövriyyəsinin strukturunun dəyişəcəyini proqnozlaşdırır. Bildiyimiz kimi, son illərdə Avropada enerji təhlükəsizliyi daha da aktuallaşıb. Çex Respublikasının Azərbaycandan həm də təbii qaz idxal etmək istəyi məhz bundan irəli gəlir. Andrey Babişin səfəri zamanı bu məsələ də müzakirə olunub və beləliklə, Çexiya yaxın

gələcəkdə Azərbaycanda təbii qaz alan növbəti Avropa İttifaqı dövləti olacaq. Lakin Azərbaycanın Çexiyaya təbii qaz satışı Prezident İlham Əliyevin qeyd etdiyi kimi, sadəcə, enerji resurslarının ixracı əməliyyatları olmayacaq. Çünki Azərbaycan Çexiyaya təbii qaz ixracına daha geniş miqyaslı və uzunmüddətli əməkdaşlıq kimi yanaşır.

Azərbaycanla Çexiya arasında indiyədək uğurlu əməkdaşlığın həyata keçirildiyi sahələrdən biri müdafiə sənayesidir. Respublikamız indiyədək Çexiyadan bir çox hərbi təyinatlı məhsullar alıb. Lakin hər iki dövlət qarşıdakı dövrdə müdafiə sənayesində həm də birgə istehsalata başlamağı planlaşdırır və bu, Azərbaycan–Çexiya əməkdaşlığında yeni mərhələ açacaq.

Çexiyada nəqliyyat sənayesi sferasında da qabaqcıl təcrübə var. Təsadüfi deyil ki, səfər zamanı Çexiya Baş nazirini bu ölkənin tanınmış nəqliyyat şirkətlərinin təmsilçiləri də müşayiət edirdilər. Bu sahədə də əməkdaşlığın inkişafı hər iki dövlətə böyük ölçüdə iqtisadi fayda gətirəcək.

Baş nazir Andrey Babişin ölkəmizə rəsmi səfəri göstərdi ki, Azərbaycan–Çexiya münasibətləri yalnız siyasi sfera ilə məhdudlaşmayaraq, iqtisadi əməkdaşlığın, müdafiə sənayesinin, enerji təhlükəsizliyinin və digər sahələrin əhatə olunduğu çoxşaxəli tərəfdaşlıq müstəvisindən ibarətdir. Bir daha göründü ki, Avropa İttifaqı üzvü olan dövlətlər ölkəmizlə əlaqələri yüksək dəyərləndirir, bütün sahələrdə əməkdaşlığın qurulmasına və inkişafına maraq göstərirlər. Bu, həm də Azərbaycanın yüksək qlobal nüfuza malik olmasından, ölkəmizin beynəlxalq səviyyədə ehtiramla qarşılanmasından xəbər verir. Bütün bunlar isə Azərbaycanın uğurlarına qarşı qarayaxma kampaniyası həyata keçirməklə məşğul olan antimilli qrupların bütün planlarını fiaskoya uğradır. Milli təəssübkeşlikdən və etik-əxlaqi dəyərlərdən tamamilə uzaq olan həmin

ünsürlər Azərbaycan xalqının əbədi nifrətini qazanıblar. Özlərini müxalifətçi obrazında qələmə verməyə çalışsalar da, respublikamızın ictimaiyyəti tərəfindən onlar Qərbdəki antiazərbaycançı siyasi dairələrin sifarişlərini yerinə yetirən manqurtlar kimi qəbul olunurlar. Bütün məkrli fəaliyyətlərini Azərbaycan dövlətinə və onun maraqlarına ləkə vurmağa həsr edən, Ermənistan üzərindəki tarixi Zəfərimizi sosial şəbəkələrdə gözdən salmağa cəhdlər göstərən bu ünsürlər üçün vətən və xalq anlayışlarının heç bir mənası və əhəmiyyəti yoxdur. Ümumiyyətlə, bu adamlar üçün həyatda müqəddəs heç nə yoxdur. Onların bütün riyakarlıqları isə Azərbaycanın yüksəlişi və uğurları qarşısında iflasa uğrayır. Bu gün Azərbaycanın ABŞ-dan Avropaya və Çinə qədər söz sahibi olan siyasi mərkəzlərlə əməkdaşlığının yeni mərhələyə qədəm qoyması, Prezident İlham Əliyevin bütün nüfuzlu və aparıcı siyasi dairələrdə ehtiramla qarşılanması göstərir ki, antiazərbaycançı şəbəkə heç vaxt öz niyyətinə çatmayacaq.

**Jalə Əliyeva.** Aprelin 30-da Avropa Parlamenti tərəfindən qəbul edilmiş qətnamə bir daha göstərir ki, bəzi beynəlxalq institutlar regionumuzda baş verən proseslərə obyektiv və balanslı yanaşma nümayiş etdirməkdə çətinlik çəkirlər. Təəssüf ki, sözügedən sənəd də bu baxımdan istisna deyil. Bu qətnamə, əslində, hüquqi baxımdan heç bir məcburedici qüvvəyə malik olmadığı kimi, ədalətsiz və qərəzli yanaşmanın nümunəsi, siyasi motivlərin, ikili standartların və birtərəfli yanaşmanın təzahürü kimi çıxış edir.

Əvvəla, qeyd etmək lazımdır ki, bu qətnamədə regionda formalaşmış yeni reallıqlar ya tam şəkildə nəzərə alınmayıb, ya da məqsədli şəkildə təhrif olunub. Halbuki beynəlxalq münasibətlər sistemində əsas prinsip obyektivlik, ədalət və beynəlxalq hüquqa hörmətdir. Bu prinsiplərdən kənara çıxmaq, hadisələrə selektiv yanaşmaq isə istənilən qurumun

nüfuzuna ciddi zərbə vurur. Təəssüf ki, bu sənəddə məhz belə yanaşmanın şahidi oluruq.

Bu gün Cənubi Qafqaz regionunda tamamilə yeni bir mərhələ formalaşmaqdadır. Azərbaycan öz ərazi bütövlüyünü təmin etdikdən sonra bölgədə sülh, əməkdaşlıq və inkişaf üçün real zəmin yaradıb. Bu, təkcə region ölkələri üçün deyil, bütövlükdə, daha geniş coğrafiya üçün vacib əhəmiyyət kəsb edir. Belə bir şəraitdə kənardan edilən qərəzli müdaxilələr, əsassız ittihamlar və reallıqdan uzaq sənədlər yalnız mövcud müsbət dinamikanı zədələyir.

Qətnamənin məzmununa diqqət yetirdikdə görürük ki, burada konkret faktlara əsaslanmaq əvəzinə, daha çox subyektiv yanaşmalar üstünlük təşkil edir. Bu isə onu göstərir ki, bəzi siyasi dairələr regionda baş verən prosesləri olduğu kimi qəbul etmək istəmir, onları öz maraqlarına uyğun şəkildə təqdim etməyə çalışırlar. Bu cür yanaşma isə nə sülhə xidmət edir, nə də beynəlxalq əməkdaşlığa töhfə verir.

Digər mühüm məqam ondan ibarətdir ki, belə sənədlər beynəlxalq institutların obyektiv vasitəçi roluna xələl gətirir. Əgər bir qurum tərəflər arasında balanslı mövqe sərgiləmək əvəzinə, açıq şəkildə birtərəfli yanaşma nümayiş etdirirsə, bu zaman onun vasitəçilik potensialı ciddi şəkildə sual altına düşür. Bu isə regionda davam edən həssas proseslər baxımından arzuolunan hal deyil.

Azərbaycan isə hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini nümayiş etdirib. Ölkəmiz qarşılıqlı hörmət, suverenlik və ərazi bütövlüyü prinsiplərini əsas götürərək siyasət yürüdür. Biz dialoqu, əməkdaşlığı və davamlı sülhü dəstəkləyirik. Lakin eyni zamanda, qərəzli yanaşmalara, əsassız ittihamlara və ikili standartlara qarşı prinsipial mövqe sərgiləməkdə də qətiyyətliyik.

Unutmaq olmaz ki, regionda dayanıqlı sülhün təmin olunması yalnız ədalətli və balanslı yanaşma ilə mümkündür. Əgər beynəlxalq qurumlar, həqiqətən də, bu prosesə töhfə vermək istəyirlərsə, o zaman onlar reallıqları qəbul etməli, tərəfsiz mövqe nümayiş etdirməli və siyasi təsirlərdən kənar qərarlar qəbul etməlidirlər.

Sonda bir daha vurğulamaq istəyirəm ki, dünən, aprelin 30-da Avropa Parlamentinin qəbul etdiyi bu qətnamə nə regiondakı reallıqları dəyişmək gücünə malikdir, nə də Azərbaycanın prinsipial mövqeyinə təsir göstərə bilər. Əksinə, bu kimi sənədlər beynəlxalq institutlara olan etimadı sarsıdır, onların obyektivliyini şübhə altına alır və uzunmüddətli perspektivdə əməkdaşlıq imkanlarını zəiflədir.

Biz isə öz yolumuzda – sülh, inkişaf və əməkdaşlıq yolunda inamla irəliləməyə davam edəcəyik.

**Kamal Cəfərov.** Müzakirə etdiyimiz saziş məhkəmə sistemimizin ən yaralı yeri olan icra məsələsini birbaşa əhatə edir. Hamıya aydındır ki, vətəndaş məhkəmə tərəfindən haqlı hesab oluna bilər, lakin məhkəmə qərarının aidiyyəti üzrə icra olunmaması onu əhəmiyyətsiz edir. Xüsusən də söhbət MDB ölkələrindən gedirsə, borclu tərəf çox vaxt sərhədi keçib digər respublikada gizlənir və ya əmlakını orada yerləşdirirdi. İndiyə qədər həmin məlumatları əldə etmək üçün aylarla, bəzən illərlə yazışmalar aparılırdı və bu da vətəndaşın hüquqlarının bərpasını mümkünsüz edirdi.

Sazişin mətnini incələdikdə aydın olan bir neçə praktiki məqamı vurğulamaq vacibdir. Məsələn, 6-cı və 7-ci maddələr konkret imkan yaradır ki, borclunun hansı ölkədə bank hesabı olması, haradan maaş alması, adına hansı torpaq sahəsi və ya nəqliyyat vasitəsinin qeydiyyatda olması haqqında məlumat sorğu ilə operativ öyrənilsin. Bu da məhkəmə qərarının icrası ilə bağlı müvafiq yayınma hallarının qarşısını bilavasitə alacaq.

Digər mühüm məqam isə 30 iş gününü əhatə edən sorğunun icra müddətidir. Bu tələb icra orqanlarını çevik işləməyə məcbur edəcək və pozulmuş hüquqların bərpasını real mühitə uyğunlaşdıracaq. Məlumatların gizliliyi ilə bağlı maddədə qeyd edilənlər isə insanların fərdi məlumatlarının qorunmasını sığortalayan bir tələb kimi mühüm rola malikdir.

Yekun olaraq qeyd etmək istərdim ki, saziş vətəndaşın hüquqlarını bərpa etmək üçün məhkəmə qərarlarının icrasını sürətləndirən alətdir. Bu sazişin təsdiqlənməsi həm vətəndaşın dövlətə etimadını artıracaq, həm də hüquqi sistemimizi daha işlək vəziyyətə gətirəcək.

***

Təqdim olunan qanun layihəsi hərbi qulluqçularımızın sosial müdafiəsi və təhlükəsizliyi baxımından çox mühüm yenilikləri nəzərdə tutur. İlk növbədə, sənəddə əks olunan "şəxsi jeton" anlayışı ilə əlaqədar qeyd etmək istərdim ki, döyüş əməliyyatları və ya fövqəladə hallar zamanı hərbi qulluqçunun şəxsiyyətinin operativ müəyyən edilməsi, yaralanma hallarında ona təcili tibbi yardımın göstərilməsi üçün qan qrupu kimi məlumatların dərhal əlçatan olması həyati əhəmiyyət kəsb edir.

Beynəlxalq təcrübədə özünü doğrultmuş bu identifikasiya üsulunun qanunvericiliyimizə daxil edilməsi ordumuzun peşəkarlığını artıracaq və hər bir əsgərə verilən dəyərin göstəricisi olacaqdır. 1949-cu ildə qəbul olunan Cenevrə Konvensiyalarının tələblərinə uyğun olaraq da, bu jetonlar hərbi münaqişələr zamanı hərbi qulluqçuların şəxsiyyətinin müəyyən edilməsi üçün beynəlxalq humanitar hüquq səviyyəsində tanınan əsas vasitədir.

Digər bir vacib məqam isə gənclərin çağırışaqədərki hazırlığı ilə bağlı edilən təklif bu sahədəki hüquqi boşluqları aradan qaldırır. Hazırlıq prosesinin vahid və sistemli qaydalar əsasında müvafiq icra hakimiyyəti

orqanı tərəfindən təsdiq olunmuş Əsasnamə ilə tənzimlənməsi idarəetmədə çevikliyi təmin edəcək.

Sadalanan dəyişikliklər vətən qarşısında konstitusion vəzifəsini yerinə yetirən hər bir şəxsin təhlükəsizliyini və hazırlığını ön plana çəkməsi baxımından zəruridir.

***

"Vətəndaşların müraciətləri haqqında" Qanuna təklif edilən dəyişikliklər dövlət–vətəndaş münasibətlərinin rəqəmsallaşması istiqamətində atılan növbəti mühüm addımdır. Bu dəyişikliklərin əsas məqsədi vətəndaşın dövlət qurumları ilə ünsiyyətini daha çevik və əlçatan etməkdir. Layihədə diqqətçəkən məqam Elektron Hökumət İnformasiya Sisteminin (EHİS) müraciət prosesinə tam inteqrasiya edilməsidir. İndiyə qədər vətəndaş müraciət edərkən cavabı ya poçtla, ya da elektron ünvanına gözləyirdi. İndi isə vətəndaşın seçimdən asılı olaraq cavabı həm də EHİS platforması üzərindən rəqəmsal formada əldə etmək mümkün olacaq.

Müraciət zamanı vətəndaşın cavabalma üsulunu özünün seçməsi, EHİS üzərindən cavab istədiyi halda, FİN kodunu və ya VÖEN-i qeyd etməsi prosesi fərdiləşdirir və təhlükəsizliyi artırır. Həmçinin elektron müraciətlər zamanı "təkmil sertifikatlı gücləndirilmiş" elektron imzanın tələb olunması müraciətin hüquqi etibarlılığını təmin edir.

Layihəni dəstəkləyərək bildirirəm ki, dəyişikliklərin müasir idarəetmə standartlarına verməsi vətəndaşın dövlət orqanına çatımlılığını daha da asanlaşdıracaq və müraciət mexanizmini dövrün tələblərinə uyğunlaşdıracaq.

**Kamran Bayramov.** Aprelin 29-da Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Ermənistana səfəri iki ölkə arasındakı münasibətlər tarixində keyfiyyətcə yeni və mühüm bir

mərhələ oldu. Bu səfəri unikal edən amil ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycanın yüksək səviyyəli rəsmi heyəti sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasında iştirak etmək üçün İrəvanda olub. Bu prosesin təməli ötən ilin noyabrında Ermənistan Baş naziri müavininin Bakıya səfəri ilə qoyulmuşdu. Qarşılıqlı xarakter daşıyan bu addımlar artıq bəyanatlardan praktiki müstəviyə keçdiyinin bariz göstəricisidir.

Bu kontekstdə dövlət rəsmiləri ilə yanaşı, vətəndaş cəmiyyətlərinin də dialoqu vacib əhəmiyyət kəsb edir. “Sülh körpüsü” təşəbbüsü çərçivəsində reallaşan təmaslar xalqlar arasında etimad mühitinin formalaşmasına xidmət edən humanitar bir platformaya çevrilib. Əgər “Sülh körpüsü” gələcəyə hesablanmış mənəvi-sosial layihədirsə, hökumət nümayəndələrinin görüşləri birbaşa tətbiqi və strateji xarakter daşıyır.

Bu gün biz yalnız sərhədlərin müəyyənləşməsini deyil, həm də regionun iqtisadi simasını dəyişəcək layihələri, o cümlədən regional nəqliyyat qovşaqlarının bərpasını, TRIPP layihəsinin reallaşdırılmasını, elektrik enerjisi xətlərinin sinxronlaşdırılmasını, perspektiv qaz marşrutları və enerji təhlükəsizliyi məsələlərini müzakirə edirik. Burada qeyd etmək yerinə düşər ki, ənənəvi tədarükçülər olan İran və Rusiya xəttində yaranan çətinliklər fonunda Azərbaycan Ermənistanın enerji təhlükəsizliyinə real töhfə vermək potensialına malikdir. Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, ölkələrimizin onilliklər boyu davam edən münaqişənin fəsadlarını aradan qaldırmağa çalışdığı bir vaxtda Avropadakı bəzi siyasi dairələr sülh gündəliyinə kölgə salmağa cəhd edirlər. Son iki həftə ərzində “Qoca qitə”də şahidi olduğumuz anti-Azərbaycan kampaniyası, Belçika və Niderland parlamentlərinin ölkəmizin suverenliyini hədəf alan qərəzli qətnamələri buna misaldır.

Bunun ardınca Avropa Parlamentinə çıxarılan "Ermənistanın demokratik dayanıqlılığının dəstəklənməsi" adlı sənəd isə, əslində, sülh prosesinə qarşı yönəlmiş növbəti çirkin addımdır. Bu cür təşəbbüslər Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq yolunu seçmiş Ermənistanın milli maraqlarına birbaşa xələl gətirir. Belə görünür ki, həmin dairələr Ermənistanın gələcəyini deyil, bu ölkədən öz geosiyasi ambisiyaları üçün bir sipər kimi istifadə etməyi hədəfləyirlər.

Bəli, biz fərqindəyik ki, erməni cəmiyyətində revanşist meyillər hələ də mövcuddur. Lakin eyni zamanda, Paşinyan hökumətinin ərazi iddialarından imtina edərək qonşularla dinc, birgə yaşayış siyasətinə cəmiyyətdə real bir tələbatın formalaşdığını da görürük. Bizim məqsədimiz həm Ermənistan hökuməti, həm də sağlam düşüncəli erməni cəmiyyəti ilə işləyərək sübut etməkdir ki, Azərbaycanla sülh hər bir müharibədən daha perspektivli və daha faydalıdır.

**Könül Nurullayeva.** Bu gün burada müzakirə etdiyimiz məsələ ölkəmizin xarici siyasət kursunun prinsipial və ardıcıl mahiyyətini bir daha nümayiş etdirir. Milli Məclis tərəfindən Avropa Parlamenti ilə əlaqələrin bütün istiqamətlər üzrə dayandırılması barədə qəbul edilmiş qərar təsadüfi deyil, bu, uzun müddət yığılan narazılıqların məntiqi nəticəsidir.

Son illər Avropa Parlamenti çərçivəsində Azərbaycana qarşı qəbul edilən qətnamələrdə obyektivlik prinsipi kobud şəkildə pozulmuş, ölkəmizin suverenliyi və daxili işlərinə selektiv və qərəzli yanaşmalar sərgilənmişdir. Təəssüf doğuran hal ondan ibarətdir ki, bəzi antimilli ünsürlər də bu prosesdə alətə çevrilərək xarici dairələrin maraqlarına xidmət etmişdir. Bu cür addımlar nəinki qəbuledilməzdir, həm də milli maraqlara açıq şəkildə ziddir.

Azərbaycan isə hər zaman beynəlxalq hüquqa və ədalət prinsipinə əsaslanan müstəqil siyasət yürütmüşdür. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra ölkəmizə qarşı artan təzyiqlər bu siyasətin doğruluğunu bir daha sübut edir. Biz bərabərhüquqlu tərəfdaşlıq modelinə sadiqik və bu prinsip gələcək fəaliyyətimizin də əsası olaraq qalacaq.

Rəsmi Bakı açıq şəkildə bəyan edir: İkili standartlar və qərəzli yanaşmalar qəbuledilməzdir. Beynəlxalq münasibətlər qarşılıqlı hörmət və obyektivlik üzərində qurulmalıdır. Avropa Parlamenti daxilində yanaşmalar dəyişməli, daha konstruktiv və ədalətli mövqe nümayiş etdirilməlidir.

Biz Avropa İttifaqını regionda sülh və normallaşma prosesinə real töhfə verməyə, birtərəfli addımlardan çəkinməyə çağırırıq. Çünki qərəzli yanaşmalar yalnız münasibətlərə deyil, ümumilikdə, regional sabitliyə də mənfi təsir göstərir.

Milli Məclisin qəbul etdiyi qərar Azərbaycanın müstəqil, prinsipial və qətiyyətli xarici siyasət kursunun davamıdır. Bu addım ölkəmizin beynəlxalq mövqelərini daha da möhkəmləndirəcək və milli maraqlarımızın qorunmasına xidmət edəcək.

**Nizami Səfərov.** Otuz ildən sonra Cənubi Qafqaz regionunda sülhün və uzunmüddətli təklükəsizlik rejiminin təsbit edilməsi bəzi siyasi dairələrdə və anti-Azərbaycan mövqeyi sərgiləyən fiqurlar tərəfindən narahatlıqla qarşılanır, yenə də millətlər arasında nifaq salmaq, nifrət ideologiyası yaymaq, yeni münaqişə zonası yaratmaq cəhdləri səngimir. Bunların sırasında argentinalı hüquqşünas, 2003–2011-ci illərdə Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru vəzifəsində çalışmış Luis Moreno Okampo xüsusi “fəallığı” ilə fərqlənir. Bu adamın səlahiyyət müddəti bitər-bitməz ifrat erməni millətçiliyin muzdlu təmsilçisinə çevrilmişdir.

2023-cü ildə Okampo Qarabağda ermənilərin “soyqırımı” haqqında kağız parçası qədər qiyməti olmayan ekspert rəyi ilə çıxış etmişdir. Təsəvvür belə etmək çətindir ki, Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru olan şəxs bu cür savadsız, təhrif edilmiş məlumatlarla çıxış edə bilərdi. Burada biz paradoksal mənzərənin şahidi oluruq: Dünyanın müxtəlif coğrafi regionlarında baş verən soyqırımı, müharibə cinayətləri, insanlıq əlehinə cinayətlərin təqibetmə yurisdiksiyasına malik olan beynəlxalq cinayət məhkəməsinin ən yüksək vəzifəli şəxsi olmuş Okampo müharibə canilərini, soyqırımcıları müdafiə edir. Cari il aprelin 24-də 1915-ci ildə Osmanlı Türkiyəsi ərazisində baş verən hadisələri qondarma “erməni soyqırımı” kimi qələmə verən bu şəxs azərbaycanlılara qarşı beynəlxalq cinayətlər törətmiş və layiq olduqları cəzalara milli məhkəmə orqanları tərəfindən məhkum olunmuş erməni canilərinin müdafiəsinə qalxır və bu cinayətkarların azad olunması üçün beynəlxalq mexanizmlərə müraciət olunmasını tövsiyyə edir.

Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokurorunun riyakarlığı, ifrat dərəcədə olan irqçilik meyilləri o dərəcəyə çatıb ki, Avropa təsisatlarını, Avropa İttifaqının bəzi vəzifəli şəxslərini də öz çirkin planlarının icrasına sövq etməyə çalışır və bu sırada 2019–2024-cü illərdə isə Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali təmsilçisi olmuş Cosep Borrellin adına istinad edir. Avropa İttifaqı Məhkəməsinin vasitəsi ilə Avropa Komissiyasını Azərbaycanla tərəfdaşlıq müqaviləsinin ləğvinə məcbur etmək, ABŞ-dəki erməni lobbisi ilə əlaqəli şəkildə ölkəmizə qarşı təzyiqləri artırmaq və bu məqsədlə alət olaraq “insan hüquqları” mövzusunda müxtəlif manipulyasiyalardan istifadə etmək keşmiş prokurorun xəstə təxəyyülünün məhsuludur.

Bu məsələlərə kifayət qədər soyuqqanlılıqla, lakin diqqətlə yanaşmaq lazımdır. Hazırda düşmən qüvvələrin əsas hədəfi Cənubi Qafqaz regionu ölkələrinin işlərinə kobud formada müdaxilə edilməsi, sülh prosesinin səmərəli şəkildə həyata keçirilməsinə maneələr yaradılmasından ibarətdir. Ancaq nəzərə almaq lazımdır ki, cənab Prezidentin irəli sürdüyü sülh gündəliyinə heç bir alternativ ola bilməz, bu proses böyük uğurla həyata keçirilir və regionumuzda davamlı sülhün bərqərar olunmasına gətirib çıxaracaq.

**Sadiq Qurbanov.** Dünən – aprelin 30-da Avropa Parlamenti tərəfindən qəbul edilmiş qətnaməni pisləyirəm. Qeyd etmək istəyirəm ki, bu sənəd təkcə siyasi sənəd kimi deyil, həm də regiona münasibətdə nümayiş etdirilən seçici yanaşmanın nümunəsidir. Həmçinin Azərbaycan haqqında irəli sürülən müddəalar obyektivlikdən uzaqdır, regionun mürəkkəb tarixi və hüquqi reallıqlarını tam şəkildə əks etdirmir. Avropa Parlamenti uzun illərdir, insan hüquqları, demokratiya və azadlıq anlayışlarını siyasi ritorikanın əsas elementi kimi təqdim edir. Lakin həmin prinsiplərin tətbiqində ardıcıl yanaşmanın müşahidə olunmaması ciddi tənqid doğurur. Əgər hüquq universaldırsa, onun tətbiqi də universal olmalıdır. Əgər demokratiya bütün dövlətlər üçün eyni ölçü ilə qiymətləndirilməlidirsə, bu zaman bizim regiona münasibətdə fərqli siyasi standartların tətbiqi nə ilə izah olunur? Azərbaycan haqqında qəbul edilən bu qətnamə, heç şübhəsiz, hüquqi təhlildən daha çox siyasi mövqe nümayişi xarakteri daşıyır. Çünki sənəddə regionun təhlükəsizlik reallıqları, uzun illər davam etmiş münaqişənin nəticələri, işğal dövründə yaranmış humanitar problemlər və Azərbaycanın üzləşdiyi tarixi təcrübə yetərli səviyyədə nəzərə alınmır. Bu isə sənədin qərəzli qiymətləndirmə olduğunu bir daha təsdiq edir.

Ən diqqət çəkən məqam isə odur ki, Avropa Parlamenti, bir tərəfdən, insan hüquqları və hüququn aliliyi barədə danışır, digər tərəfdən, regionun geosiyasi reallıqlarını nəzərə almayan qərarlar qəbul edir. Bu yanaşma bir çox hallarda siyasi idealizm ilə strateji realizm arasında ziddiyyət yaradır.

Unutduqları bir məsələ var: Azərbaycan regionda təsadüfi dövlət deyil, yaxşı olar ki, tarixə də bir nəzər salsınlar… Bu gün ölkəmiz enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, logistika imkanları və geosiyasi sabitlik baxımından mühüm strateji aktordur. Avropada enerji təhlükəsizliyinin yenidən formalaşdığı bir dövrdə Azərbaycan alternativ və etibarlı tərəfdaş kimi xüsusi əhəmiyyət qazanır. Bu reallıq artıq beynəlxalq iqtisadi sistemin qəbul etdiyi siyasi faktdır. Onda ortaya ciddi sual çıxır: Avropa Parlamenti strateji tərəfdaş hesab etdiyi ölkəyə münasibətdə niyə qarşıdurma yaradan ritorikaya üstünlük verir? Bir tərəfdən, enerji əməkdaşlığından danışmaq, digər tərəfdən, siyasi təzyiq təsiri bağışlayan qətnamələr qəbul etmək. Bu məntiqi uyğunsuzluqla nə demək istəyirlər? Yaxşı bilirlər ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu gün Avropanın enerji marşrutlarının şaxələndirilməsi siyasətində Azərbaycanın iştirakı iqtisadi məsələ olmaqla yanaşı, siyasi sabitlik, enerji davamlılığı və strateji balans məsələsidir. Avropa üçün enerji təhlükəsizliyi prioritetdirsə, bu təhlükəsizliyin əsas iştirakçılarından biri olan Azərbaycanla münasibətlər məqsədli şəkildə emosional yanaşma üzərində qurulmamalıdır.

Qətnamədə səsləndirilən ittihamlar regionda davam edən normallaşma prosesinə xidmət etmir. Əksinə, bu cür sənədlər qarşılıqlı etimadı zəiflədə, dialoq imkanlarını daralda və tərəflər arasında siyasi gərginliyi artıra bilər. Diplomatiya ittiham dili ilə deyil, balanslı yanaşma ilə inkişaf edir. Avropa Parlamenti Avropada bu gün baş verən hadisələrdən nəticə çıxardaraq nəzərə almalıdır ki, müasir dünya artıq birtərəfli siyasi diktə modeli ilə idarə

olunmur. Dövlətlər öz maraqları, təhlükəsizlik ehtiyacları və suveren qərarvermə hüquqları əsasında siyasət yürüdür. Azərbaycan da bu hüququnu açıq şəkildə qoruyan dövlətdir.

Azərbaycan heç bir xarici siyasi mərkəzin təsdiqini almaq üçün mövqe dəyişən dövlət deyil. Tarix bunu dəfələrlə sübut edib. Ulu Öndər Heydər Əliyevin Lissabon sammitində nümayiş etdirdiyi prinsipial mövqe Azərbaycanın milli maraqlarının beynəlxalq platformada qətiyyətlə müdafiəsinin mühüm nümunəsi idi. Həmin dövrdə Azərbaycanın ərazi bütövlüyü məsələsinin beynəlxalq gündəmdə saxlanılması məhz müstəqil siyasi iradənin nəticəsi idi. Bu siyasi xətt sonrakı mərhələdə də davam etdirildi. Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda Azərbaycanın müstəqil siyasətini ardıcıl şəkildə müdafiə etmişdir. Hələ də görmürsünüz ki, dövlətimizin beynəlxalq münasibətlərdəki mövqeyi heç vaxt xarici təsdiq mexanizmlərinə əsaslanmayıb. Bu mövqe milli maraqlar, hüquqi legitimlik və dövlət suverenliyi üzərində qurulub. Dövlətimizin siyasəti milli maraqlara, hüquqi legitimliyə və suveren qərarvermə prinsipinə əsaslanır.

Avropa Parlamenti regionla bağlı qərar qəbul edərkən nəzərə almalı idi ki, Cənubi Qafqaz artıq əvvəlki geosiyasi məkan deyil. Azərbaycan burada yeni reallıq formalaşdırıb. Bu reallığın əsas xüsusiyyəti isə dövlətlərin öz siyasi iradəsini daha açıq şəkildə müdafiə etməsidir.

Müasir Azərbaycanın gücü yalnız enerji resursları ilə məhdudlaşmır. Ölkənin əsas gücü xalq–hakimiyyət birliyindədir. Eyni zamanda, müstəqil qərarvermə imkanında, regional təsir qabiliyyətində və beynəlxalq münasibətlərdə balanslı siyasət aparmaq bacarığında ifadə olunur. Heç bir qətnamə bu siyasi xətti dəyişdirə bilməz.

**Sahib Alıyev.** Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru, indi isə muzd qarşılığında və ailə podratı metodu ilə cinayət, o sıradan da Ermənistanda hakimiyyət çevrilişi planlaşdıran Luis Okamponun oğlu ilə danışıqlarının yayıldığı videoda Avropa Parlamentinin fəaliyyəti və iş prinsipi də öz əksini tapdığından bəlkə də o qurumun 30 aprel qətnaməsinə toxunmağa elə də ehtiyac duyulmur. Amma məsələ və paradoks da burasındadır ki, bu qətnamə Avropa İttifaqının Ermənistana göndərməyi planlaşdırdığı missiyanın guya qarşısını almalı olduqları narrativlərlə doludur. Görürük ki, hazırda regionda məhz sülhü və sülh gündəliyini dəstəklədiyinə görə hədəfə çevrilən Ermənistan hakimiyyəti əleyhinə aparılan hibrid savaşın platformalarından biri də məhz Avropa Parlamentidir. Həmin parlamentin sözügedən qətnaməsindəki ən azı 5 maddə göstərir ki, burada əsas məqsəd Ermənistanda demokratik deyil, revanşist dayanıqlılığı dəstəkləməkdir. Bəli, biz bilirik ki, oradakı solçu fraksiyalarda bizim regionda sülhü özünün burada təsir gücünün tam itirilməsi kimi qiymətləndirənlərə muzdla çalışanlar var. Amma məsələ burasındadır ki, daha bir neçə fraksiya, ilk növbədə də, özəyini Fransa Prezidenti Makronun “Renaissance” Partiyasının təşkil etdiyi “Renew Europe”, yəni Yeniləşən Avropa da canfəşanlıq edənlər sırasındadır. Baxın, Fransa Prezidenti, bir tərəfdən, Rusiyanın Ermənistana qarşı apardığı hibrid savaşın önünü kəsəcək sərkərdə oyunu oynayır, digər tərəfdən isə, hay diasporunun hibrid savaş aparmaqda suçlandırdıqlarının maraqlarını tam özündə əks etdirən forumunun Parisdə keçirilməsinə şərait yaradır.

Kim bilmir ki, Belçika və Niderland parlamentlərinin antisülh xarakterli son qətnamələrinin sifarişçilərindən biri də məhz Fransadır. Avropa İttifaqı, doğrudan da, bu regionda sülhdə və Cənubi Qafqazın subyektliyində maraqlıdırsa, onda yaxşı olmazmı ki, Ermənistana göndərməyi

planlaşdırdığı mülki missiyaya elə yerində qalaraq oradakı platformalar üzərindən aparılan hibrid təhdidlərin qarşısının alınmasını tapşırsın? Bir daha vurğulayırıq ki, həmin platformalardan da biri Avropa İttifaqının natamamlılıq kompleksi rəmzinə çevrilən Avropa Parlamentidir.

Yeri gəlmişkən, mən bu fikirdəyəm ki, guya Paşinyana dəstək adı altında Avropa İttifaqının Ermənistanda keçirməyi planlaşdırdığı sammit regionda bölücü xətlərin çəkilməsinə xidmət edir. Elə həmin gün Gümrüyə — Rusiya hərbi bazasının yerləşdiyi şəhərə baş çəkməyi planlaşdıran Fransa Prezidentinin məqsədi Moskvaya "iki missiya ilə bizim də artıq burada mövcudluğumuzu nəzərə alaraq, gəlin, 1878-ci il Berlin Konqresinin məntiqindən çıxış edərək Ermənistanı şərikli forposta çevirək" ismarıcını vermək üçündür. Son günlər rəhbərləri Azərbaycana səfər edən və etməyi planlaşdıran ölkələr də, əslində, göstərdilər ki, Avropa İttifaqında belə bölücü yanaşmanı milli maraqlarına təhdid kimi qiymətləndirir və dəstəkləmirlər.

Mən regiona yanaşmada Berlin Konqresində "hay məsələsi"ni qaldıranların məntiqindən çıxış edərək siyasət yeridənləri qətiyyətlə pisləyirəm. Avropa Parlamenti ilə hər cür əlaqələrə son qoymağı təklif edirəm. Ermənistan hakimiyyətini də, o ölkənin iç işlərinə kobud müdaxilə edərək orada hakimiyyət çevrilişi planlaşdıran ata-oğul okampoları beynəlxalq axtarışa verməyə çağırıram. Bu baxımdan, onlar haqqında cinayət işi qaldırılan Samvel Karapetyandan çox da fərqlənmirlər.

**Samir Vəliyev.** Avropa Parlamenti qəbul etdiyi son qətnamə ilə Azərbaycana qarşı qərəzli və düşmənçilik mövqeyini davam etdirdiyini göstərir. 44 günlük Vətən müharibəsindən sonra bu təşkilat tərəfindən ölkəmizə qarşı qəbul edilən qətnamələrin, belə demək mümkünsə, sayı-hesabı yoxdur. Avropa Parlamenti dövlətimizin öz ərazilərini işğaldan azad

etməsini, Qarabağ üzərində öz suverenliyini təmin etməsini, erməni separatizminin kökünü kəsməsini həzm edə bilmir.

Görünən odur ki, Avropa Parlamenti hər zaman Ermənistanın "vəkili" rolunda çıxış edir. Təşkilatın "Ermənistanda demokratik dayanıqlılığın dəstəklənməsi" adlı qətnaməsi də bu ölkəyə dəstəyin göstəricisidir. Sözügedən qətnamə parlament seçkisi ərəfəsində Paşinyan hakimiyyətinin müdafiəsinə xidmət edir. Lakin sənəddə bir sıra bəndlər birbaşa Azərbaycana qarşı əsassız ittiham və tələbləri ehtiva edir.

Bu gün Avropa dəyərlərinin aşınmaya məruz qalması təəssüf doğurur. Avropa təsisatları yarandıqları zaman xüsusi ilə beynəlxalq hüquq, insan haqları və demokratiya kimi prinsipləri əsas götürüblər. Lakin həmin təşkilatların fəaliyyətində bu prinsiplərə riayət olunmur. Bu təşkilatlar hazırda beynəlxalq güclərin və lobbilərin diqtəsi ilə işləyir. Yəni fundamental dəyərlər onlar üçün arxa plana keçirilib. Avropa Parlamentinin qəbul etdiyi qətnamələr də bunun sübutudur. Avropa Parlamenti kimi islamafob və türkəfob dairələrin əlində alət olan qurumların qəbul etdiyi sənədlərin heç bir hüquqi qüvvəsi yoxdur. Bu təşkilat hər zaman insan hüquqları və demokratiya pərdəsi altında Azərbaycanı hədəfə alıb.

Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Parlamenti bu ölkənin işğalçı siyasətini pisləyən, 1 milyona qədər azərbaycanlı qaçqın-köçkünün hüquqlarını müdafiə edən sənədlər qəbul etməyib. Amma indi bu qurum Ermənistanla əməkdaşlığa böyük önəm verir. Hesab edirəm ki, belə "sənədlər" qəbul etməklə Avropa Parlamenti öz imicinə zərbə vurur. Məlumdur ki, bu gün Avropa İttifaqı, Avropa Komissiyası Azərbaycanla əməkdaşlığa böyük önəm verir. Belə olan halda, Avropa Parlamentinin tutduğu mövqe tamamilə yanlışdır. Təşkilatın rəhbərliyi anlamalıdır ki, hansısa "sənədlər" qəbul etməklə Azərbaycanın beynəlxalq nüfuzuna zərər

yetirə bilməyəcək. Təcrübə göstərir ki, münasibətlərin pozulmasında uduzan tərəf Azərbaycan deyil. Nümunə olaraq deyə bilərik ki, AŞPA-nın qərəzli mövqeyindən sonra Azərbaycan bu təşkilatla əməkdaşlığı dayandırıb. Belə olan halda, AŞPA nə qazandı? Əlbəttə ki, heç nə. Eyni prosesi Avropa Parlamentinə də şamil etmək olar.

Mən təklif edirəm ki, Azərbaycan parlamenti tərəfindən həm Avropa Parlamenti, həm də Avronest Parlament Assambleyası ilə əməkdaşlıq tamamilə dayandırılsın. Çünki ölkəmizə qarşı dəyişməyən qərəzli mövqe bu təşkilatlarla əməkdaşlığı mümkünsüz edir.

**Sevinc Fətəliyeva.** Avropa Parlamenti tərəfindən qəbul edilmiş “Ermənistanın demokratik dayanıqlılığının dəstəklənməsi” adlı qətnamə, sadəcə, tənqid deyil, prinsipial siyasi qınaq tələb edir. Çünki bu sənəd həm obyektivlikdən, həm də institusional məsuliyyətdən kənara çıxan yanaşmanın bariz nümunəsidir.

Əvvəlcə əsas məqama diqqət yetirmək lazımdır: Bu qətnamə Avropa İttifaqının vahid və konsolidasiya olunmuş mövqeyini əks etdirmir. O, dar siyasi qrupların təsiri altında, lobbiçilik və ideoloji yanaşmalar nəticəsində formalaşmış sənəddir. Onu “Avropa mövqeyi” kimi təqdim etmək cəhdi isə açıq manipulyasiyadır və Avropa İttifaqının etibarlı tərəfdaş imicinə xələl gətirir.

Sənədin məzmunu açıq şəkildə qərəzli və siyasi motivli yanaşmanı nümayiş etdirir. Avropa Parlamenti faktiki olaraq Ermənistanda revanşist dairələrin irəli sürdüyü narrativləri təkrarlayır, beynəlxalq hüququn reallıqlarını və regionda baş verən real prosesləri isə görməzdən gəlir. **“**Məcburi köçürülmə” ilə bağlı əsassız iddialar, mədəni irs məsələsi ətrafında spekulyasiyalar – bütün bunlar obyektiv təhlildən uzaqdır və daha çox siyasi sifariş təəssüratı yaradır.

Bundan da təhlükəlisi odur ki, bu cür yanaşmalar Azərbaycan ilə Ermənistan arasında həssas normallaşma prosesinə birbaşa müdaxilə xarakteri daşıyır. Bu gün tərəflər birbaşa danışıqlar aparır, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması istiqamətində real addımlar atılır. Belə bir mərhələdə bu qətnamə gərginliyi azaldan deyil, əksinə, artıran, destruktiv qüvvələri stimullaşdıran amilə çevrilir.

Burada açıq ziddiyyət də diqqət çəkir: Bir tərəfdən, Avropa İttifaqı səviyyəsində sülh və dialoq dəstəklənir, digər tərəfdən isə, Avropa Parlamenti həmin məqsədlərə zidd olan sənədlər qəbul edir. Bu isə Avropa İttifaqının institusional ardıcıllığını şübhə altına alır və onun bəyanatlarının səmimiliyinə kölgə salır.

Qətnamədə beynəlxalq hüququn əsas prinsiplərinə də selektiv yanaşma sərgilənir. Azərbaycan öz ərazi bütövlüyünü beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpa edib və bu fakt qlobal miqyasda qəbul olunur. Lakin sənəddə bu reallığı dolayısı ilə sual altına alan yanaşmaların yer alması olduqca təhlükəli presedent yaradır.

Eyni zamanda, sənəddə açıq selektivlik müşahidə olunur. İşğal dövründə Azərbaycan ərazilərində törədilmiş dağıntılar, mədəni və dini irsin məhv edilməsi, yüz minlərcə azərbaycanlının üzləşdiyi humanitar fəsadlar tamamilə görməzdən gəlinir. Bu “korluq” təsadüfi deyil, siyasi qərəzin nəticəsidir.

Əslində, bu sənəd demokratiyaya dəstək deyil, postmünaqişə reallıqlarını müəyyən geosiyasi maraqlara uyğun şəkildə dəyişdirmək cəhdidir. Bu prosesdə isə Ermənistanın özü də alətə çevrilir və onun real maraqları arxa plana keçir.

Azərbaycan isə əksinə, davamlı sülhün qurulması, kommunikasiyaların açılması və regionda əməkdaşlığa əsaslanan yeni təhlükəsizlik arxitekturasının formalaşdırılması istiqamətində ardıcıl siyasət həyata keçirir. Bu yanaşma getdikcə daha geniş beynəlxalq dəstək qazanır. Əgər Avropa İttifaqı, həqiqətən də, Cənubi Qafqazda sabitlik istəyirsə, o zaman siyasi motivli qətnamələrə deyil, beynəlxalq hüquqa, obyektivliyə və region ölkələri arasında birbaşa dialoqun dəstəklənməsinə üstünlük verməlidir. Əks halda, bu kimi təşəbbüslər sülhə töhfə kimi deyil, sabitliyə təhdid kimi qiymətləndiriləcək.

**Səbinə Salmanova.** Avropa Parlamenti adlanan, demokratik dəyərlərin iflasa uğradığı, korrupsiya və rüşvətxorluğun dərin kök saldığı, lobbi qruplarına və müxtəlif maraq dairələrinə xidmət edən, bir qrup məsuliyyətini anlamayanlardan ibarət “parlamentarilərin” mövcud olduğu bir “qurumun” aprelin 30-da ölkəmizə qarşı qəbul etdiyi növbəti qərəzli qətnamə hər birimizdə gülünc doğurur. Bu əsassız, ittiham və qərəzlə dolu qətnamə, sadəcə, əhəmiyyətsiz bir kağız parçasıdır.

“Sənəddə” Qarabağ bölgəsinə erməni sakinlərinin geri qayıdışı ilə bağlı irəli sürülən iddialar tamamilə əsassızdır. Bu cür yanaşmalar regionda baş verən proseslərin mahiyyətini təhrif etməklə yanaşı, Azərbaycanın suveren hüquqlarına və daxili işlərinə müdaxilə cəhdidir. 2023-cü ildə Azərbaycan dövləti Konstitusiyamıza uyğun olaraq, Qarabağda yaşayan erməni əsilli sakinlərin reinteqrasiyası ilə bağlı plan irəli sürmüşdü. Ancaq buna baxmayaraq, erməni sakinlər regionu könüllü əsasda tərk etmişdilər. Bu faktı inkar və ya fərqli şəkildə təqdim etmək isə nankorluqdur. Sual olunur ki, niyə Avropa Parlamenti torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına, yüzlərcə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına, etnik təmizləməyə, bir milyondan çox qaçqın

və məcburi köçkünün insan hüquqlarına davamlı şəkildə etinasız yanaşmışdı? Hesab edirəm ki, bu sual onların kimliyini ortaya qoyur. Demokratik dəyərlərin iflasa uğradığı, korrupsiya və rüşvətxorluğun dərin kök saldığı, lobbi qruplarına və müxtəlif maraq dairələrinə xidmət edən Avropa Parlamentinin Azərbaycana qarşı iddialar səsləndirməyə, "qətnamələr" qəbul etməyə hüquqi və mənəvi haqqı yoxdur.

Kağız parçasında müharibə əsirləri kimi təqdim edilən erməni əsilli şəxslərin azad edilməsi ilə bağlı çağırışlar hüquqi baxımdan qəbuledilməzdir. Barələrində məhkəmə hökmü çıxarılmış şəxslər isə terrorçuluq, təxribat və hərbi cinayətlər daxil olmaqla bir sıra ağır cinayətlər törətmiş şəxslərdirlər. Eyni zamanda, Azərbaycan tərəfi humanistlik nümayiş etdirərək bəzi şəxsləri sülh mühitinin möhkəmləndirilməsi məqsədi ilə Ermənistana təhvil verilib. Bu, ölkəmizin sülh gündəliyinə sadiqliyinin və regionda etimadın bərpasına yönəlmiş siyasətinin göstəricisidir. Bir sözlə, Avropa Parlamentinin qərəzli qətnaməsi sülh gündəliyi prosesinə maneə yaratmaq məqsədi güdür. Biz bu kağız parçalarını ölkəmizin daxili işlərinə müdaxilə cəhdi kimi qiymətləndirir və qətiyyətlə rədd edirik.

**Ülvi Quliyev.** Avropa Parlamentinin 30 aprel tarixli qətnaməsində növbəti dəfə ölkəmizə qarşı qərəzli müddəaların yer alması ona dəlalət edir ki, bu beynəlxalq təsisat Azərbaycanın sülh naminə atdığı real addımlardan ya bixəbərdir, ya da məqsədli şəkildə onları görməzdən gəlir. Ona görə də bu cür təşkilatlardan ölkəmizlə bağlı obyektiv mövqe gözləməyə dəyməz.

Çıxarmalı olduğumuz növbəti nəticə isə budur ki, Ukrayna məsələsində üz-üzə dayanan dairələrin mövqeyi Azərbaycana gəldikdə nədənsə üst-üstə düşür. Əslində, bu "nədənsə"nin içində "gizlənən" səbəblər toplusu cəmiyyətimizə artıq yaxşı məlumdur. Avropa Parlamenti 2021-ci ildən bu günə qədər ölkəmizə qarşı 13 əsassız qətnamə qəbul edib. Bu

qətnamələrin hər birində mövcud həqiqətlər ya bilərəkdən təhrif olunur, ya da heç bir faktoloji və hüquqi əsası olmayan iddialar irəli sürülür. Hansı sağlam məntiqlə izah edilə bilər ki, erməni separatizminin terrora, təxribata və digər hərbi cinayətlərə görə məhkum olunmuş təmsilçiləri qətnamələrdə gah müharibə əsiri, gah da siyasi məhbus kimi qələmə verilərək onlara azadlıq tələb olunur?

Avropalı deputatlar  bəzən bu şəxsləri hətta girov adlandırmaqdan da utanmırlar. Motivlərə gəldikdə isə, heç onu da gizlətmirlər. Vətən müharibəsinin elə ilk günlərində Fransadan eşitdiyimiz “Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verməriк”, yaxud Avropa Parlamentində və ya AŞPA-da müzakirələr zamanı “xristian erməni qardaşlarımızı müdafiə etməliyik” kimi cahil, bəşəri dəyərlərlə yanaşı, beynəlxalq hüquqa da zidd olan “arqumentlər” Azərbaycana qarşı qərəzin özəyini təşkil edir.

Prezident İlham Əliyev 2 il əvvəl Milli Məclisdə keçirilən andiçmə mərasimində  bu cür dairələrin anti-Azərbaycan mövqeyindən asanlıqla əl çəkməyəcəyi haqda tarixi xəbərdarlığını etmişdi: “Biz, İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir”.

Elə bu səbəbdən, bilməliyik ki, ölkəmizə qarşı əsassız iddialar, məqsədli təhrifetmələr, şantaj və dezinformasiya kampaniyası tezliklə səngiməyəcək. Ona da inanmıram ki, bu “xidmət”də imzası olan avropalı deputatlar elə özlərinin dünyaya bəxş etdiyi fransız əsilli böyük riyaziyyatçı və filosof Blez Paskalın hələ XVII əsrdə səsləndirdiyi bu ibrətamiz nəsihətdən də tezliklə nəticə çıxarsınlar: “Ədalət güclü, güclülər isə ədalətli

olmalıdır”. Lakin unutmasınlar ki, Azərbaycanın bərpa etdiyi tarixi ədalətin təməlində elə onların özlərinin də guya tərəfində olduğu beynəlxalq hüququn gücü, bütöv bir xalqın əyilməz ruhu və onu təmsil edən liderin sarsılmaz iradəsi dayanır.

Bütün bunlardan irəli gələn mənəvi motivasiyanın gücünü və ruhunu yaşamayanlar, təbii ki, bunu bilə bilməz. Elə buna görə də etnik və ya dini zəmində bölücülüyü, ayrı-seçkiliyi təşviq edən heç bir cahil arqument, qərəzli qarayaxma kampaniyası Azərbaycanı haqq yolundan döndərə bilməyəcək.

**Vüqar İskəndərov.** Bu gün biz Avropa Parlamentinin reallıq hissini itirmiş, kağız üzərindəki qərəzlərin məcmusundan başqa bir şey olmayan növbəti hesabatını müzakirə edirik. Mən bu sənədi nə hüquqi akt, nə də obyektiv təhlil adlandıra bilmərəm. Bu, illərdir, davam edən birtərəfli baxışın və Cənubi Qafqazda yaranmış yeni reallıqları həzm edə bilməməyin bariz göstəricisidir. Bu hesabatın sətiraltı mənasına baxdıqda biz açıq-aydın bir riyakarlıq mənzərəsini görürük. Özünü demokratiya və şəffaflığın “mayak”ı hesab edən bir qurumun, əslində, necə dərin korrupsiya bataqlığında olduğunu dünya artıq yaxşı bilir. Elə bu yaxınlarda Okampo və digər deputatlarla bağlı ifşa olunan faktlar Avropa Parlamentinin bəzi üzvlərinin hansısa ideallar üçün deyil, birbaşa Ermənistanın və onun lobbisinin çirkin pulları qarşılığında “hesabatlar” hazırladığını bir daha sübut etdi. Korrupsiya qalmaqalları ilə sarsılan, mandatını pula satan şəxslərin Azərbaycan kimi müstəqil bir dövlətə mənəviyyat və hüquq dərsi keçməyə nə mənəvi, nə də siyasi haqqı yoxdur!

Burada söhbət insan haqlarından deyil, birbaşa ikili standartlardan gedir. Azərbaycanın öz suveren ərazilərində separatizmə son qoyması beynəlxalq hüquqa tam uyğun olduğu halda, hesabatda bu, təcavüz kimi

qələmə verilir. 30 il ərzində 1 milyona yaxın azərbaycanlı qaçqının hüquqları tapdananda susanlar bu gün "humanizm" nümayiş etdirməyə çalışırlar. Bu, sadəcə, siyasi riyakarlıqdır.

Biz bəyan edirik ki, Azərbaycan heç kimin diktəsi ilə hərəkət etmir. Bizim xarici siyasətimiz milli maraqlarımıza və xalqımızın iradəsinə söykənir. Avropa Parlamenti anlamalıdır ki, təhdid dili və lobbi pulları ilə idarə olunan qərəzli sənədlər Azərbaycanla ünsiyyətdə heç bir nəticə verməyəcək. Regionda sülhün və əməkdaşlığın bərqərar olduğu bir vaxtda belə destruktiv bəyanatlar yalnız gərginliyə xidmət edir.

Sonda vurğulamaq istəyirəm: Tarix sübut etdi ki, həqiqət səs çoxluğu və ya satın alınmış deputatların rəyi ilə deyil, faktlarla müəyyən olunur. Azərbaycan öz ədalətini özü bərpa edib və bu yolu kəsməyə heç bir kağız parçasının gücü çatmaz.

**Vüqar Rəhimzadə.** Son illərdə Avropa institutlarında baş verən qalmaqallar artıq bu qurumlardakı struktur böhranını açıq şəkildə ortaya qoyur. Xarici dövlətlərdən rüşvət alınması, qərarların lobbi sifarişi ilə qəbul edilməsi, siyasi mandatların kommersiyalaşdırılması Avropa siyasətinin iç üzünü ortaya qoyur. Avropa diplomatiyasında baş verən böyük geosiyasi manipulyasiyalar, sanksiya siyasətinin selektiv tətbiqi, siyasi qərarların arxasında müxtəlif iqtisadi mərkəzlərin dayanması vaxtı ilə Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi olmuş Cozep Borrellin fəaliyyəti dövründə xüsusi ilə intensivləşmişdi. Qəbul edilən bir sıra strateji qərarlar Avropa xalqlarının maraqlarına deyil, gizli siyasi və maliyyə mərkəzlərinin tapşırıqlarına uyğun formalaşdırılırdı.

Ümumiyyətlə, Avropa İttifaqı qurumlarının çətiri altında olan beynəlxalq təşkilatlar üçün xarakterik korrupsiya formaları kimi lobbiçilik və onun korrupsiyaya keçidini qeyd etmək lazımdır. Xüsusi ilə etnik lobbi qruplar,

onlara məxsus kommersiya şirkətlərin və ya qrupların Avropa İttifaqının qərar qəbuluna təsiri üçün axıtdıqları maliyyə diqqət çəkir. Digər tərəfdən, çox böyük büdcələri olan təşkilatlar, fondlar, kənd təsərrüfatı subsidiyaları, satınalmalar və sair kimi əməliyyatlar zamanı korrupsiya halları da mövcuddur.

Avropa Parlamenti tərəfindən aprelin 30-da qəbul edilmiş qətnamədə Azərbaycana qarşı yer almış əsassız və qərəzli müddəalar bu qurumun əsl simasını və mahiyyətini bir daha ifşa etmiş oldu. Azərbaycana qarşı qərəzli mövqe tutan, əsassız iddialar səsləndirən, davamlı olaraq qeyri-obyektiv yanaşma nümayiş etdirən Avropa Parlamenti hələ də öz çirkin xislətindən əl çəkə bilmir. Qətnamədəki müddəalar reallıqdan uzaq olmaqla yanaşı, obyektivlik prinsiplərinə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət öhdəliklərinə ziddir. Avropa Parlamentinin bu cür qərəzli yanaşması regionda normallaşma prosesinə, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin perspektivlərini alt-üst edir. Qərəzli qətnamədə irəli sürülən iddialar tamamilə əsassızdır. Bu kimi çağırışlar Azərbaycanın daxili işlərinə müdaxilə xarakteri daşıyır və beynəlxalq hüquqa ziddir. Bununla yanaşı, “müharibə əsirləri” kimi təqdim edilən erməni əsilli cinayətkarların, uşaq qatillərinin azad edilməsi ilə bağlı çağırışlar, “mədəni və dini irsin məhv edilməsi” ilə bağlı iddialar hüquqi və siyasi baxımdan qəbuledilməz olmaqla yanaşı, tamamilə qərəzli və əsassızdır. Bu isə Avropa Parlamentinin Azərbaycanafob və islamafob düşüncənin ardıcıl surətdə ifadə olunduğu struktura çevrildiyinin təsdiqidir.

Tarixi Zəfərimizin yaratdığı reallıqlar, regionda sülhün təmin olunması, Azərbaycan və Ermənistan arasında danışıqlarda əldə edilən irəliləyişlər bəzi dairələri ciddi şəkildə narahat edir. Həmin qüvvələrin məqsədi regionda münaqişə yaratmaq, sülh prosesini pozmaq və bununla da öz

çirkin maraqlarını reallaşdırmaqdır. Amma həmin qüvvələr unudurlar ki, artıq Cənubi Qafqaz regionunda yeni reallıqlar yaranıb. Bu reallıqlar fonunda anti-Azərbaycan dairələri, o cümlədən Avropa Parlamentinin qərəzli kampaniyaları uğursuzluğa məhkumdur.